# Xalq qəzeti

Xalqın qəzeti!

№ 159 (30563) 30 iyul 2024-cü il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti


## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Hidayət Heydərovu təbrik ediblər

**İyulun 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "Paris-2024" XXXIII Yay Olimpiya Oyunlarında parlaq qələbə ilə Olimpiya çempionu adını qazanan cüdoçu Hidayət Heydərova zəng ediblər.**



Dövlətimizin başçısı və birinci xanım Olimpiadanın cüdo yarışlarında parlaq qələbə qazanması münasibətilə Hidayət Heydərova təbriklərini çatdırıb, ona gələcək idman fəaliyyətində yeni qələbələr arzulayıblar.

Hidayət Heydərov telefon zənginə və səmimi təbriklərə görə dövlətimizin başçısına və birinci xanıma təşəkkürünü bildirib, Olimpiadada Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltmaqdan və Dövlət Himnimizin səsləndirilməsindən qürur duyduğunu vurğulayıb. O, yeni uğurlar əldə etmək üçün bundan sonra da səylə fəaliyyət göstərəcəyini deyib.

**Prezidentin Mətbuat Xidməti**




# Səudiyyə Ərəbistanı ilə ölkəmizin iqlim tərəfdaşlığı



Səhifə ➩ 8

## Paris neqativ tendensiyalar ixrac edir



**Rəsmi Paris 2024-cü il Yay Olimpiya Oyunlarını fürsət bilərək, Azərbaycana qarşı növbəti təxribatını törədib. "France 2" telekanalı neytrallıq prinsipini pozaraq, Ermənistan komandasına xüsusi rəğbətini büruzə verib. Ermənistanı "tarixən fransızların ürəyinə yaxın bir ölkə" kimi təqdim edib.**

Azərbaycan komandasının təqdimatını isə məqsədli şəkildə neqativ tonda verib. Ölkəmizi "Ermənistanla ərazi münaqişəsində olan Qafqaz respublikası" adlandırıb. Təqdimatdakı qüsurlar bununla bitmir. Növbəti mərhələdə Qarabağdakı qondarma rejimin tarixdən silinməsi ilə bağlı təxribatçı fikirlər səsləndirilib. Elə rəy formalaşdırmağa çalışıb ki, guya, işğalçı bizik. Bir sözlə, Fransa XXXIII Yay Olimpiya Oyunlarını Makronun məkrli siyasətinə alət edib.

Məsələ ondadır ki, Rəsmi Paris son hərəkətləri ilə təkcə Beynəlxalq Olimpiya Xartiyasının maddələrini deyil, sivil, demokratik dünyanın bütün davranış normalarını pozub. Fransa mediasının ermənipərəst mövqeyi müəyyən mənada anlaşılandır. Amma bu yanaşma, faktların təhrif edilməsi, başqalarının haqqının tapdalanması fonunda gerçəkləşdirilməməlidir.

*(ardı 9-cu səhifədə)*

## Senanın çirkli sularına qərq olan Olimpiya məşəli

Səhifə ➩ 3

## İrəvanın sözü ilə əməli düz gəlmir



Səhifə ➩ 9

## Sənaye zonaları qeyri-neft sektorunu modernləşdirir

Səhifə ➩ 7

## Yaxın Şərq daha böyük müharibə ərəfəsində?



Səhifə ➩ 11

## Leysan yağışlar bölgələrdə sel və dağıntılar törədib



Səhifə ➩ 11

## Heykəllərin təmiz üzü və ya tarixi irsə qayğı



Səhifə ➩ 10

# Venesuela Bolivar Respublikasının Prezidenti Zati-aliləri cənab Nikolas Maduro Morosa

**Hörmətli cənab Prezident!**

Venesuela Bolivar Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan-Venesuela münasibətlərinin dinamik inkişafı məmnunluq doğurur. İnanıram ki, xalqlarımızın mənafelərinə uyğun olaraq ölkələrimiz arasında dostluq əlaqələrinin, həm ikitərəfli, həm də çoxtərəfli qaydada qarşılıqlı faydalı əməkdaşlığın uğurla davam etdirilməsi üçün bundan sonra da birgə səylər göstərəcəyik.

Bir daha Sizə təbriklərimi və ən xoş arzularımı çatdırır, dost Venesuela xalqının rifahı naminə məsul fəaliyyətinizdə uğurlar diləyirəm.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 29 iyul 2024-cü il**

# Birinci vitse-prezident Mehriban Əliyeva Hidayət Heydərovun Olimpiya çempionu olması ilə bağlı paylaşım edib




**Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram hesabında Hidayət Heydərovun Olimpiya çempionu olması ilə bağlı paylaşım edib.**

Paylaşımda deyilir: "Əhsən! Əhsən! Əhsən, Hidayət! Təbrik edirəm! Yaşasın Azərbaycan!".

# Mikayıl Cabbarov Ali Kibar ilə görüşüb



**İqtisadiyyat naziri Mikayıl Cabbarov Türkiyənin "Kibar Holding" şirkətinin İdarə Heyətinin sədri Ali Kibar ilə görüşüb.**

Görüşdə Azərbaycan-Türkiyə birliyi və uğurlu iqtisadi tərəfdaşlıq platformasının birgə təşəbbüslərin reallaşdırılması nəticəsində yeni məzmunlarla zənginləşdiyi diqqətə çatdırılıb.

Tərəflər əlavə dəyər yaradan sahələrdə əməkdaşlığın gücləndirilməsi, sənaye məhsullarının istehsalına investisiya yatırımlarının təşviqi, energetika sektorunda fəal tərəfdaşlığın dəstəklənməsi kimi məsələləri müzakirə ediblər.

*XQ*

# Peru Respublikasının Prezidenti Zati-aliləri xanım Dina Ersilia Boluarte Zeqarraya

**Hörmətli xanım Prezident!**

Peru Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan-Peru münasibətlərinin xalqlarımızın mənafelərinə uyğun olaraq dostluq məcrasında inkişafı, həm ikitərəfli qaydada, həm də çoxtərəfli təsisatlar çərçivəsində əməkdaşlığımızın bundan sonra da davam etdirilməsi yolunda birgə səylər göstərəcəyik.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost Peru xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 25 iyul 2024-cü il**

# V.M.Vəliyevin Azərbaycan Texniki Universitetinin rektoru təyin edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanının 2.13-cü bəndinə uyğun olaraq **qərara alıram:**

Vilayət Məmməd oğlu Vəliyev Azərbaycan Texniki Universitetinin rektoru təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 29 iyul 2024-cü il**

# Əli Əsədov İranın yeni təyin olunmuş Birinci vitse-prezidentini təbrik edib

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Məhəmməd Reza Arefə İran İslam Respublikasının Birinci vitse-prezidenti vəzifəsinə təyin edilməsi münasibətilə təbrik məktubu ünvanlayıb.**

Nazirlər Kabinetinin mətbuat xidmətindən verilən məlumata görə, məktubda vurğulanıb ki, Azərbaycan Respublikası İran İslam Respublikası ilə ortaq dini-mədəni köklər, qarşılıqlı hörmət və mehriban qonşuluq kimi möhkəm təməllər üzərində qurulmuş münasibətlərə böyük əhəmiyyət verir.

Azərbaycan-İran əlaqələrinin daha da möhkəmləndirilməsi, qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsi istiqamətində birgə addımların atılmasına hazırlıq ifadə olunub.

*XQ*

# BTQ fəaliyyətini beynəlxalq normalar çərçivəsində qurur

**Təəssüf ki, Fransa bir sıra media orqanları kimi, TF1 telekanalı da Azərbaycana, habelə Bakı Təşəbbüs Qrupuna qarşı qərəzli və qeyri-obyektiv reportaj və məqalələr yayaraq izləyiciləri aldatmaqla məşğuldur. Bu, həm də Fransanın kolonializm siyasətinə haqq qazandırmaq, eləcə də bu ölkədən müstəmləkəçilik siyasətindən əl çəkməyi tələb edən Bakı Təşəbbüs Qrupunun və digər vətəndaş cəmiyyəti təşkilatlarının fəaliyyətini qaralamağa hesablanıb.**



Bu fikirlər Bakı Təşəbbüs Qrupunun İcraçı direktoru Abbas Abbasovun Fransanın TF1 kanalında efirə getmiş "Xarici müdaxilələr: Azərbaycan Fransada sabitliyi necə pozmağa çalışır" adlı reportaja dair şərhində yer alıb.

A.Abbasov, həmçinin bildirib: "TF1 kanalının redaksiya heyətinə yaxşı bəllidir ki, beynəlxalq qeyri-hökumət təşkilatı olan Bakı Təşəbbüs Qrupu Qoşulmama Hərəkatının 2023-cü ildə Azərbaycanda keçirilmiş nazirlər toplantısı çərçivəsində Fransanın kolonializm siyasətindən əziyyət çəkən xalqların nümayəndələri tərəfindən yaradılıb.

Əsas missiyası kolonializm və neokolonializm siyasətinin fəsadlarını dünya ictimaiyyətinə çatdırmaq, müstəmləkəçilikdən əziyyət çəkən xalqlara apardıqları ədalətli mübarizədə beynəlxalq hüquq çərçivəsində dəstək göstərilməsindən ibarət olan BTQ-nin bu ay birilliyi qeyd edilir. Bir il müddətin keçməsinə rəğmən, BTQ tərəfindən BMT-nin qərargahlarında (Nyu-York (2 dəfə), Cenevrə və Vyana), habelə dünyanın müxtəlif ölkələrində 10-dan çox beynəlxalq konfrans təşkil edilib, tədbirlərin yekununda iştirakçılar tərəfindən Fransanın dövlət başçısına, beynəlxalq təşkilatların rəhbər şəxslərinə rəsmi Paris tərəfindən törədilən kolonial və neokolonial cinayətlər haqqında məlumatlar təqdim olunub, müvafiq petisiyalara start verilib.

Bu xüsusda, cari ilin mayında Yeni Kaledoniyada baş vermiş iğtişaşlarda BTQ-nin rolunun vurğulanmasının əvəzinə, Fransa hökumətinin yerli kanak xalqının 2021-ci il referendumunun nəticələrinin ləğvi və səsvermə hüququna malik olan şəxslərin sayının qeyri-qanuni, məqsədli şəkildə çoxaldılmasının dayandırılması ilə bağlı yerli xalqın tələblərinə məhəl qoyulmamasına diqqətin cəlb edilməsi yaxşı olardı.

BTQ-ni 14 min kilometr uzaqda iş aparmaqda ittiham edən Fransa mediası öz hökumətinə sual verə bilər ki, Fransadan 17 min kilometr uzaqda yerləşən bu ərazilərin bu ölkəyə nə aidiyyəti var?

TF1 telekanalının BTQ-nin fəaliyyətinə qarşı qərəzli mövqeyinin kökündə TF1 Qrupun Ara Aprikiyan kimi erməniəsilli şəxslər tərəfindən idarə olunması faktı durur. Qeyd edək ki, jurnalistika etikasını kobud şəkildə pozmağa vərdiş edən fransız mediası bu dəfə də reportaj hazırlayarkən BTQ ilə əlaqə saxlamayıb, mövqeyimizi soruşmayıb.

BTQ heç bir ölkənin daxili işlərinə qarışmır və fəaliyyətini beynəlxalq normalar çərçivəsində qurur. Təşkilatımız müstəmləkəçilik siyasətindən zərər çəkən xalqların öz azadlıqlarından və hüquqlarından tam istifadə edə biləcəkləri bir dünya naminə mübarizəni bundan sonra da davam etdirəcəkdir".

# BƏƏ portalı COP29-dan yazıb

**Birləşmiş Ərəb Əmirliklərinin "The National News" nəşrində Azərbaycanın bu ilin noyabrında BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ev sahibliyi etməyə hazırlaşmasına dair məqalə yayımlanıb.**


The National

The National Climate

Fossil fuel-rich Azerbaijan prepares to host crucial Cop29 climate talks

Can Baku, one of the birthplaces of oil, confound doubters and deliver an ambitious climate outcome for the world?

II Şuşa Qlobal Media Forumunun iştirakçısı Con Dennehinin müəllifi olduğu yazıda Prezident İlham Əliyevin Forumun açılış mərasimində jurnalistlərin suallarını cavablandırarkən səsləndirdiyi fikirlərə də yer verilib.

Məqalədə qeyd olunub ki, Azərbaycan bu ilin noyabrında COP29-a ev sahibliyi etməklə dünyanın müxtəlif bölgələri arasında növbəti dəfə körpü rolu oynayacaq. Azərbaycan Prezidentinin "Bizim üçün bu, misilsiz bir şansdır ki, ən yüksək liqaya daxil oluruq", - sözlərini xüsusi vurğulayan müəllif qeyd edib ki, Prezident İlham Əliyev Azərbaycanın Qlobal Cənub və Qlobal Şimal arasında körpü qurduğunu diqqətə çatdırıb.

Müəllif qeyd edib ki, zəngin qazıntı yanacağı resurslarına malik ölkə hazırda iqlim dəyişikliyi məsələlərinin müzakirə olunduğu COP29 kimi mötəbər tədbirə ev sahibliyi etməyə hazırlaşır. Təxminən üç aydan sonra 200-ə yaxın ölkədən nümayəndələr Bakıda bir araya gələrək iqlim dəyişikliyi məsələsini həll etməyə çalışacaqlar.

Yazıda Azərbaycanın bərpaolunan enerjinin inkişafı, ölkəmizin bu sahədə həyata keçirdiyi layihələr barədə ətraflı söhbət açılıb, dövlətimizin başçısının Azərbaycanın bərpaolunan enerji sahəsində böyük nailiyyətlərə imza atması barədə fikri xüsusi vurğulanıb. Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkətinin inşa etdiyi 230 meqavat gücündə "Qaradağ" Günəş Elektrik Stansiyasının ötən il istifadəyə verildiyi xatırlanıb. "Masdar" şirkətinin Azərbaycan üzrə meneceri Murad Sadıqov bildirib ki, neft hasilatında qabaqcıl ölkə olan Azərbaycan yaşıl enerji sahəsində də ön sıralarda olmaq istəyir: "Əgər dünya dəyişirsə, Azərbaycan da liderlərdən biri olmalıdır. Bakının havası əvvəlkindən qat-qat təmizdir. Hökumət bu işləri davamlı olaraq həyata keçirir".

Müəllif Azərbaycanın ev sahibliyi edəcəyi COP29-da iqlim danışıqlarında maliyyə məsələsinin ön planda olacağını vurğulayıb: "COP29-u uğurla keçirmək üçün Bakının qarşısında məsul vəzifə var – maliyyə. Bu tədbirdə qalıq yanacağından uzaqlaşmaq prosesinin necə maliyyələşdiriləcəyi ön plana çıxacaq. Dünya inkişaf etməkdə olan ölkələr üçün illik 100 milyard dollar həcmində yeni maliyyə öhdəliyi ilə razılaşmalıdır".

Yazıda COP29-un müəyyən olunmuş Prezidenti Muxtar Babayevin bu mühüm məsələ barədə danışıqların aparılmasına dair fikrindən sitat gətirilib: "Hazırda danışıqlar prosesindəyik. Bütün ölkələr bu yeni məqsədləri başa düşür və daha iddialı olmalıdırlar".

Məqalədə Azərbaycanın onilliklərlə davam edən münaqişəyə son qoyulması məqsədilə aparılan sülh prosesi fonunda Ermənistanı COP29-a dəvət etdiyi qeyd olunub. Jurnalist Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin bu məsələ ilə bağlı fikirlərinə istinad edib: "Azərbaycan indi Qarabağ münaqişəsinin sonundadır. İndi biz bu səhifəni çevirdik və sülh haqqında düşünürük. Biz, həmçinin sülh və COP29 anlayışını birləşdiririk".

Qeyd edilib ki, COP29 Bakı Olimpiya Stadionunda keçiriləcək. Hazırda bu arenada COP29-a geniş hazırlıq işləri görülür. COP29-un baş icraçı direktoru, Azərbaycanın energetika nazirinin müavini Elnur Soltanov burada yaradılacaq zonalar barədə məlumat verib. O bildirib ki, Azərbaycan bu tədbirə ev sahibliyi etmək üçün geniş logistik imkanlara və yüksək qonaqpərvərliyə malikdir.

# COP29-a hazırlıq işləri müzakirə edilib



**İyulun 29-da xarici işlər naziri Ceyhun Bayramov BMT-nin İnkişaf üzrə Əlaqələndirici Ofisinin Avropa və Mərkəzi Asiya üzrə regional direktoru Qvi-Yeop Son ilə görüşüb.**

Görüş zamanı Azərbaycan və BMT-nin müxtəlif ixtisaslaşmış qurumları arasında mövcud əməkdaşlıq gündəliyində duran məsələlər, habelə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) hazırlıq işləri müzakirə olunub.

Ceyhun Bayramov Azərbaycan uzun illər BMT, xüsusilə onun ixtisaslaşmış qurumları ilə faydalı əməkdaşlıq etdiyini diqqətə çatdırıb. Postmünaqişə dövründə üzləşdiyimiz ən mühüm təhlükəsizlik çağırışlarından biri olan mina təhdidi ilə mübarizədə humanitar minatəmizləmənin 18-ci Milli Dayanıqlı İnkişaf Məqsədi elan olunduğu, eyni problemin bir çox ölkə üçün aktuallığını nəzərə alaraq, bu təşəbbüsün BMT çərçivəsində davamlı olaraq təşviq edildiyi bildirilib.

Cari ilin ölkəmizin COP29 sədrliyi ilə əlamətdar olduğunu bildirən nazir Ceyhun Bayramov, bu istiqamətdə BMT ilə əməkdaşlığımızın daha da genişlənməsinin sevindirici hal olduğunu qeyd edib. Qlobal təhdidlərlə mübarizədə göstərdiyimiz bütün səylər kimi COP29 sədrliyimizin də inklüziv və nəticəyönümlü proses olmasına əhəmiyyət verdiyimiz diqqətə çatdırılıb.

Qarşı tərəf Azərbaycanın COP29 sədrliyinə hazırlıq üçün məhdud vaxtının olmasına baxmayaraq, indiyədək əldə olunan nəticələrin təqdirəlayiq olduğunu vurğulayıb.

*XQ*

# Senanın çirkli sularına qərq olan Olimpiya məşəli

## *Xoşməramlı idmanı qərəzli siyasətə bulaşdıran makronizm*

**Dünyaya Volter, Didro, Russo, Monteskye, Sartr, Kamyu, Stendal... kimi dahiləri bəxş edən ölkənin və xalqın milli-dini deqradasiya prosesi, deyəsən, özünün finiş xəttinə yaxınlaşır. Dünənədək "qoca qitə"nin öləziməkdə olan parlaqlığını, azca da olsa, qoruyub saxlamağa çalışan Fransa bu imicini paytaxt Parisin ortasından keçən Sena çayının çirkab sularında itirdi. Bu ölkə XXXIII Yay Olimpiya Oyunlarının açılışında təkcə imicini deyil, antik Yunanıstanda alovlanıb günümüzədək yol gələn məşəli də Sena çirkabında qərq etdi.**



**Ekspert rəyi**



**Fikrət SADIXOV,**
**Qərbi Kaspi Universitetinin professoru, politoloq**

– Görünür, rəsmi Paris Olimpiya Oyunlarının açılışı ilə geylərin şousunu səhv salıb. Bunu Makron Fransasının həm daxildə, həm də xaricdə özlərini aparmaq, davranış üslubu kimi qəbul etmək lazımdır. Onun yeritdiyi siyasətə tam adekvat prosesdir. Əslində, bu, Olimpiya Oyunlarının adına xələl gətirən bir açılış idi. Nəticədə ölkənin imicinə, reytinqinə növbəti zərbəni vurmuş oldular. Dünyanın nüfuzlu informasiya vasitələri, telekanallar bununla bağlı kəskin reaksiyaları ictimaiyyətə çatdırdılar.

Təqdimat zamanı Azərbaycanın "Qafqaz respublikası" adlandırılmasını təsadüfi hal saymıram. Dövlət televiziyasının aparıcısı əvvəlcədən yazılmış konkret ssenariyə uyğun çıxış edirdi. Həmin çıxışdan tam aydın oldu ki, rəsmi Parisin təxribatçı siyasi davranışı, anti-Azərbaycan addımları Olimpiya Oyunlarına da öz ləkəsini vurdu. Bu cür biabırçı, rüsvayçı yanaşma özünü qədim və sivil dövlət kimi qələmə verən Fransaya başucalığı gətirmir.

Tam əminliklə deyə bilərəm ki, bu olay tarixə Olimpiya Oyunlarının ən biabırçı açılışı kimi düşəcək və yaddaşlardan silinməyəcək.

**Ekspert rəyi**



**Fərhad MƏMMƏDOV,**
**siyasi icmalçı**

– Fransanın dövlət telekanalında Azərbaycanla bağlı belə hədyanların səsləndirilməsi ilk baxışda təəccüb doğura bilər. Amma reallıq odur ki, məhz Fransa dövlətinin apardığı informasiya siyasəti nəticəsində cəmiyyətin böyük qismi anti-Azərbaycan ovqatına köklənir. Makron iqtidarı hökumətin ixtiyarında və nəzarətində olan bütün media resurslarını ölkəmizə qarşı yönəltdiyini bilirik. Həmin şəbəkə bölgədə problemlərin əsas mənbəyi kimi Azərbaycanı göstərməyə çalışır. Bu tendensiya həm Fransanın daxili siyasətində, həm də kənardakı müstəmləkələrində özünü göstərir. Olimpiya Oyunlarının açılışını canlı işıqlandıran hökumətə bağlı hansısa telekanalın efirindən Azərbaycana qarşı neqativ və reallıqdan uzaq mülahizələrin səsləndirilməsi təəccüb doğurmamalıdır.

Əslində, bu, Emmanuel Makron hakimiyyətinin Azərbaycana qarşı yürütdüyü məqsədyönlü siyasətin növbəti təzahürüdür. Belə halların gələcəkdə də baş verəcəyini istisna etmək olmaz. Çünki Makron özünün anti-Azərbaycan ritorikasından əl çəkməyəcək və bu siyasətindən üz döndərməyəcək.

Fransa Senatına son seçkilərdə siyasi imici kəllə-mayallaq olan Emmanuel Makronun Olimpiada fürsətindən nəinki daxildə özünü reabilitasiya üçün, eləcə də xarici arenada istifadə etmək niyyəti baş tutmadı. Paris-2024-ün açılış mərasimində "böyük güclərin", dünyanın nüfuzlu siyasi liderlərinin iştirak etməməsi Olimpiadanı qeyri-populyar, sönük bir tədbirə çevirmiş oldu. Açılış mərasiminə ABŞ, Böyük Britaniya, İtaliya, Çin, Türkiyə, BƏƏ, Səudiyyə Ərəbistanı kimi aparıcı ölkələrin liderləri gəlmədilər. Tədbirdə müsəlman dövlətlərindən yalnız Qətər təmsil olunurdu. Latın Amerikası rəsmilərindan bir nəfər də olsun Parisdə görünmədi. Bunu, sadəcə, Olimpiya Oyunlarının keçirildiyi ölkəyə etinasızlıq, saymazlıq kimi yox, Makronu boykot jesti kimi qəbul etmək olar.

*

XXXIII Yay Olimpiya Oyunlarının "gey şou"nun rövnəqləndirdiyi açılış mərasiminin ssenari müəllifləri həm də Yelisey sarayının anti-Azərbaycan siyasətini, məkrli niyyətini bir daha nümayiş etdirdilər. Tədbiri canlı yayımlayan Fransanın "France 2" telekanalının aparıcısı erməni idmançılarını "dostlarımız", Ermənistanı isə "tarixən fransızların qəlbinə ən yaxın ölkə" adlandırıb. Bununla da kifayətlənməyib, "Dağlıq Qarabağın süqutu" ilə bağlı təəssüf dolu mətni oxuyub. Bizim idmançıları təqdim edəndə isə aparıcı Azərbaycanı, sadəcə olaraq, "Ermənistanla ərazi məsələsində münaqişədə olan Qafqaz respublikası" adlandırıb. Xatırladaq ki, Beynəlxalq Olimpiya Komitəsinin qaydalarına uyğun olaraq, Olimpiya Xartiyasının əsas prinsiplərindən biri idmana və idmançılara qarşı istənilən siyasi və ya kommersiya istismarına qarşı mübarizədir.

Baş vermiş siyasi təxribatla bağlı Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi və Milli Olimpiya Komitəsi tərəfindən Beynəlxalq Olimpiya Komitəsinə göndərilən etiraz məktubunda qeyd olunur ki, dövlət telekanalının Azərbaycana qarşı bu cür hörmətsiz münasibəti Olimpiya Xartiyasının açıq-aşkar pozulmasıdır. Məktubda deyilir: "Bu cür təbliğat oyunların ruhuna zidd olmaqla yanaşı, Azərbaycan və Ermənistan arasında sülh səylərini pozmağa xidmət edir. Buna görə də BOK-dan Paris-2024 Olimpiadası zamanı idmanın siyasiləşdirilməsinə qarşı qəti mövqe göstərilməsi, açıq bəyanat verməklə Fransa hökumətinə, Fransa Milli Olimpiya və İdman Komitəsinə, eləcə də adıçəkilən telekanala etiraz bildirilməsi xahiş edilib".

Rəsmi Parisin 30 ildən çoxdur nümayiş etdirdiyi anti-Azərbaycan təbliğatının davamı kimi qəbul edə biləcəyimiz siyasi-ideoloji Olimpiya təxribatına niyə təəccüblənməliyik ki? Bu ölkə və onun sakinləri Azərbaycanın torpaqlarını erməni işğalından təmizləməsi, ərazi bütövlüyünü təmin etməsi faktını hələ də həzm edə bilmir. Onlar əllərinə düşən istənilən fürsətdən məkrli planlarını işə salmaq üçün yararlanmağa çalışırlar. Bu dəfə qədim və müqəddəs Olimpiya Oyunlarını öz "oyunlarına" vasitə bildilər.

Ümumiyyətlə, xoş mərama, həmrəyliyə xidmət edən idmanı siyasi mübarizə vasitəsinə çevirmək cəhdləri yolverilməzdir. Axı, idman ayırıcı deyil, həmişə barış, birləşdirici amil missiyasını yerinə yetirib. Olimpiada isə müxtəlif irqlərin və xalqların dostluğunun, həmrəyliyinin rəmzi kimi tanınıb. Vaxt olub ki, Olimpiya yarışlarına görə hətta döyüş əməliyyatları dayandırılıb, qarşı duran tərəflər atəşkəs rejiminə riayət ediblər. Amma iyulun 26-da Parisdən izlədiyimiz görüntülər, eşitdiyimiz şərhlər onu deməyə əsas verir ki, dünyaya demokratiyadan mühazirə oxuyan Fransa, konkret indiki halda, Makron hökuməti belə sivil dəyərlərdən uzaq düşüb. Onun Yay Olimpiya Oyunlarını Azərbaycana qarşı düşünülmüş oyununda alətə çevirməsi isə artıq siyasi deqradasiyanın son həddi sayılmalıdır.

Olimpiya Xartiyasında deyilir ki, Olimpiya hərəkatının məqsədi idmanı bəşəriyyətin ahəngdar inkişafının xidmətinə, dinc cəmiyyətin yaradılmasına töhfə verməkdir. "Fransa prezidenti Emmanuel Makron və hökuməti hazırda Parisdə keçirilən Olimpiya Oyunlarını "sülh və ümid anı" kimi dəyərləndirsələr də, Fransanın müstəmləkəçilik və neokolonial siyasətləri bunun əksini göstərir". Bu fikirlər Bakı Təşəbbüs Qrupu Paris Olimpiadasında Olimpiya Oyunlarının prinsiplərinin pozulması ilə bağlı bəyanatında yer alıb. "XXI əsrin "sülh və ümid anı" olan Olimpiya Oyunları xalqları özünə tabe edən bir ölkədə keçirilə bilərmi? Olimpiadaya ev sahibliyi edən ölkə Kanakidə siyasi məhbusları azad edə bilməzdimi? Onların da öz evlərində uşaqları ilə birlikdə bu "sülh anını" yaşamaq hüququ var", – deyə bəyanatda bildirilir.

* *

Paris Olimpiya Oyunlarının çiskinli açılış mərasiminin ən yaddaqalan səhnələri transgenderlərin və transvestitlərin "nümunəvi çıxışları", LGBT-ləşmə tendensiyasının əyani nümayişi oldu. Dünya xristianlarının dini hisslərinə istehza olunan şouda Leonardo da Vinçinin İsa Məsihin şagirdləri ilə son yemək səhnəsi təsvir etdiyi "Sonuncu şam yeməyi" rəsmi parodiya edilib. "The Telegraph" qəzeti yazıb ki, Olimpiya Oyunlarının təşkilatçıları açılış mərasimində nümayiş etdirilən "gey-parad"a görə üzr istəyiblər. Məsihin və onun həvarilərinin görüşündə İncildəki səhnəyə "uyğun" çılpaq müğənnilərin çıxışı siyasətçilərin və katolik kilsəsi nümayəndələrinin kəskin tənqidinə tuş gəlib. Olimpiadanın açılış mərasiminin bədii rəhbəri Tomas Jolli qəzetə bildirib ki, o, şouya verilən mənfi reaksiyadan "çaşıb qalıb".

Bəs, o biabırçı səhnələrə etiraz edənlər kimlərdir?

* İtaliya Baş nazirinin müavini Matteo Salvini dini parodiyanı "təhqiredici və alçaq əməl" adlandırıb: "Milyardlarla xristianın təhqir edildiyi Olimpiadanın açılışı, həqiqətən, pis başlanğıcdır".

* Dünyanın ən zəngin iş adamı İlon Mask qalmaqallı parodiyanı tənqid edərək, bunu "xristianlar üçün dözülməz dərəcədə təhqiramiz" adlandırıb.

* La Liqanın prezidenti Xavyer Tebas X bloqunda yazıb: "Bu, qəbuledilməz, hörmətsizlik və biabırçılıqdır! "Sonuncu şam yeməyi"ndən bu şəkildə istifadə xristianlara qarşı təhqirdir. Dini inanclara hörmət harada qaldı?".

Deməli, da Vinçinin fırçasına məxsus şeytan ziyafətinin "canlandırılması" təşkilatçılara Olimpiya sevinci bəxş etmək əvəzinə, tənqid və qınaq gətirib. XXXIII Yay Olimpiya Oyunlarının açılış mərasimində yaşanan qanqaraçılıq bununla da bitmir. Cənubi və Şimali Koreyanın eyni dövlət kimi təqdim olunması, bayraqlarının dəyişik salınması da iştirakçıların və tamaşaçıların diqqətindən yayınmayıb.

Sonda bir daha "France 2" milli telekanalın efirdən üfürdüyü siyasi avantüraya qayıdaraq demək istəyirik ki, Paris İrəvanı özünə "bacı", yaxud başqa nəsə hesab edə bilər, amma bu ona Olimpiya hərəkatının prinsip və qaydalarını pozması üçün mənəvi haqq vermir. Daxili və xarici problemlərdən başlarını itirmişlərin ümumbəşəri dəyərləri ayaqlar altına atması təəccüb doğurmamalıdır. Biz bu olayda Makronlu fransız cəmiyyətin kübar obrazından cılız və idbar xislətə yuvarlanmasının çirkin formada nümayişinin şahidi olduq.

Bütün hallarda, üstümüzə atılan, amma yapışmayacaq çirkaba baxmayaraq, idmançılarımızın parlaq çıxışlarına ümid bəsləyirik. Onların əsas hədəfi üçrəngli bayrağımızı Parisdə dalğalandırmaqla, himnimizi səsləndirməklə bədxahların gözünü oymaqdır.

***İmran BƏDİRXANLI***
***XQ***

# Ermənilərin Ağdamda fitnəkar "Tiqranakert" təxribatı

**I YAZI**

Qarabağın erməni işğalı altında olduğu 30 ildən artıq bir dövrdə torpaqlarımızın necə viran edildiyi dünya ictimiyyətinə məlumdur. Törədilən bütün cinayətlərə görə Ermənistan cavab verməli və vurulan zərərə görə təzminat ödəməlidir. Azərbaycanın bu iddialarla beynəlxalq məhkəmələrə müraciətləri bu cinayətlərin cəzasız qalmaması anlamına gələcəkdir.

İşğal dövründə ermənilər Ağdam ərazisini viran qoymaqla kifayətlənməmişdilər. Onlar ayrı- ayrı yerlərdəki xalqımıza məxsus maddi abidələri yox etmiş və talan etmədiklərini isə mənimsəməklə erməniləşdirmək, bu ərazilərdə Azərbaycan türklərinə məxsus dəyərlərimizi məhv etmiş, saxtakarcasına onları öz adlarına çıxarmağa çalışmışlar.

İş o yerə çatmışdı ki, ermənilər Qarabağın gözü olan Ağdam şəhərini və bu bölgəni də "erməni yurdu" adlandırmağa başlamış və bu istiqamətdə təbliğat aparmağa başlamışdılar. Adını dəyişdirərək "Aqna" qoyduqları Ağdamın bəzi yerlərində arxeoloji qazıntılar aparmaqla burada "erməni sür-sümüyü" axtarmış və burada qədimdən ermənilərin yaşadığını "sübut etmək" üçün maddi sərvətlərimizin bir hissəsini Ermənistana daşımışlar.

Ermənistan "alimləri" Ağdam ərazisindəki qədim tarixi olan Gövürqala şəhərini dünyaya "Tiqranakert" kimi tanıtdırırdılar. 2006-cı ildə onlar müxtəlif ölkələrdən dəvət etdikləri bir qrup "alimlə" Ağdam rayonu ərazisində yerləşən və Qarabağ xanlarının yay imarəti olan Şahbulaq Qıfılı saray-kompleksində "qədim Tiqranakert" şəhərinin xarabalıqlarını tapmaq üçün qazıntılar etmiş, tarixi məkana görünməmiş zərər vurmuşlar.



Bu cinayətə onlar xarici ölkə mütəxəssislərini də cəlb etmişdilər. Bu qazıntılar zamanı guya saray xarabalıqları arasından çoxlu sayda xaçkarlar ortaya çıxmışdı. Ermənilərin məkrli məqsədlərini anlayan və özünə hörmət edən bəzi əcnəbi alimlər buna etiraz etmiş və dərhal ekspedisiyanı tərk edərək qazıntıları dayandırmağı tələb etmişdilər. Belə faktlar olmuşdu ki, ermənilər özləri ilə gətirdikləri "xaçkarları" buraya basdırır, sonra onları çıxarıb "kəşf" kimi qələmə verirlərmiş... Erməni hiyləsi üzə çıxmışdı. Ən savadsız tarixçiyə belə bəllidir ki, elmə məlum olan Şərqi Anadoludakı "Tiqranakert" şəhərinin mövcud olduğu dövrdə hələ xristianlıq yox idi. Qafqazda da belə bir şəhərdən danışmaq elmin özünə xəyanət idi.

Qazıntılar zamanı guya o da məlum olub ki, bu tarixi tapıntılar erkən xristianlığa aiddir, dini kompleksin bir parçasıdır, oyulmuş mağarada və onun yan-yörəsindəki hörgü divar isə xristian memarlığını andırır, 2007-ci ilin aprel ayından burada qazıntılar daha intensiv aparılmış və guya maddi çətinliklər səbəbindən dayandırılmışdı.

Bir müddət sonra Tiqranakert təxtibatı yenidən işə salınmışdı. Ağdamın ərazisində olan bu tarixi məkanı qonşu Əsgəranın inzibati ərazisinə daxil edərkən isə niyyət "kəşflərin" inandırıcılığına nail olmaq idi. Qazıntılara rəhbərlik edən tarix elmləri namizədi Vardeqes Safaryanın açıqlaması da bunu sübut edir. Saxtakar tarixçi deyib ki, guya "Tiqranakert"in şimal hissəsinin qala divarlarının uzunluğu 500 metrə çatır. Safaryanın bundan sonra dedikləri erməni yalanının hansı həddə çatdığını göstərir: "Avropa üçün Troya nədirsə, ermənilər üçün Tiqranakert də odur".

Ötən əsrin 1980-ci illərində Azərbaycan burada ekspedisiya aparıb və tapılan hər şey türk mədəniyyətinin nişanəsidir, 1071 Malazgirt zəfərindən və səlcuqların Anadolu və Qafqaza axınlarından çox öncələr türklərin bu ərazilərdə yaşamasının sübutlarından biri kimi dəyərli tarixi dəlildir. Qarabağın 100 ildən çox müddət ərzində arxeoloji tədqiqi prosesində nə dağlıq, nə də düzən Qarabağda heç bir qədim erməni yaşayış yeri, nekropolu, qalası və s. aşkar olunmamışdır.

Bir daha vurğulayaq ki, sözügedən arxeoloji qazıntlıları "türkləşdirilmiş" erməni kilsə-kompleksi adlandırmaq ənənəvi erməni saxtakarlığıdır. Onlar Azərbaycan ərazilərində törətdikləri bu cinayət əməllərinə İngiltərə, ABŞ, Livan və Fransadan da tədqiqatçılar cəlb edərək, bu qazıntı işlərini "beynəlmiləlləşdirərək" ona hüquqi don geyindirməyə çalışırlar.

Ermənilər xarici turistlərin diqqətini bura çəkmək məqsədi ilə Ağdam rayonu ərazisindəki Şahbulaq saray-kompleksini təmir edərək, kompleksin içərisində "Tiqranakert" adlı tarix muzeyinin yaradıldığını təntənəli şəkildə elan edib, burada bayağı bir festival düzənləmiş, bu barədə xəbərləri xarici internet şəbəkələrində yaymışdılar.

Eyni zamanda, Ağdam ərazisində apardıqları bu qazıntılar zamanı ərazidə 15-dən çox Xocalı-Gədəbəy mədəniyyətinə aid məşhur kurqanları (torpaq qəbirlər) dağıdaraq buradakı qiymətli maddi nümunələri Ermənistana daşıyıb aparmaqla məşğul olmuşdular. O cümlədən buradakı toponim və yer adlarını dəyişdirərək, Şahbulaq saray-kompleksinin adını Surenavan, ətraf əraziləri isə "Tiqranakert" adlandırmağa başlamışdılar.



Qeyd edək ki, Şahbulaq qalası Bayat qalasından öncə, Qarabağ xanlığına inzibati mərkəzi kimi tikilib. Müdafiətipli tikili olan qala müəyyən bir dövr ərzində Qarabağ xanlığının iqamətgahı kimi istifadə olunub, sonralar xanlığın yay iqamətgahlarından birinə çevrilib.

Tarixi mənbələrdə göstərilir ki, Qarabağ xanı Pənahəli xan Ağdam şəhərindən 10 kilometr aralıda - indiki "Şah bulağı" adı ilə məşhur olan bulağın yaxınlığında bir saray-kompleks tikdirməyə başlayıb. Lakin sonralar Pənahəli xan bu qalanın düşmən təcavüzünə davam gətirə bilməyəcəyini düşünərək, əlavə Bayat qalasını tikdirib, daha sonra isə Şuşa qalasını inşa etdirərək, sonuncunu xanlığın mərkəzinə çevirib.

***Qafar MEHDİYEV***
***XQ***

# Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 17 noyabr tarixli 2356 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 17 noyabr tarixli 2356 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 11, maddə 1510 (Cild I) ilə təsdiq edilmiş “Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi haqqında Əsasnamə”də aşağıdakı dəyişikliklər edilsin:

**1.** 3.1.4-cü, 3.1.24-cü, 3.1.38–3.1.40-cı, 3.1.43–3.1.45-ci, 3.1.51-ci, 3.1.53-cü, 3.1.54-cü və 3.1.57-ci yarımbəndlərdən “tabeliyindəki qurum vasitəsilə” sözləri çıxarılsın.

**2.** 3.1.42-ci, 3.1.48-ci, 3.1.49-cu, 3.1.52-ci və 3.1.55-ci yarımbəndlərdən “strukturuna daxil olan qurum vasitəsilə” sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 29 iyul 2024-cü il**

---

# “Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi yanında Suların İstifadəsinə və Mühafizəsinə Dövlət Nəzarəti Xidməti haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 17 noyabr tarixli 2356 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

**1.** “Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi yanında Suların İstifadəsinə və Mühafizəsinə Dövlət Nəzarəti Xidməti haqqında Əsasnamə” təsdiq edilsin (əlavə olunur).

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 29 iyul 2024-cü il**

---

# “İcbari tibbi sığorta fondunun 2024-cü il büdcəsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 27 dekabr tarixli 2427 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, İcbari tibbi sığorta fondunun 2024-cü il büdcəsinin gəlirlərini və xərclərini dürüstləşdirmək məqsədilə **qərara alıram:**

“İcbari tibbi sığorta fondunun 2024-cü il büdcəsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 27 dekabr tarixli 2427 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 12 (I kitab), maddə 1688 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 1-ci hissədə hər iki halda “2 811 428 292,00” rəqəmləri “2 850 308 292,00” rəqəmləri ilə əvəz edilsin.

**2.** 2-ci hissə üzrə:

2.1. 2.1-ci bəndin birinci abzasının “Məbləğ (manatla)” sütununda “1 375 987 690,00” rəqəmləri “1 367 987 690,00” rəqəmləri ilə əvəz edilsin;

2.2. 2.1.1-ci yarımbəndin “Məbləğ (manatla)” sütununda “1 236 410 000,00” rəqəmləri “1 228 410 000,00” rəqəmləri ilə əvəz edilsin;

2.3. 2.2-ci bəndin birinci abzasının “Məbləğ (manatla)” sütununda “815 053 804,00” rəqəmləri “827 933 804,00” rəqəmləri ilə əvəz edilsin;

2.4. 2.2.2-ci yarımbəndin “Məbləğ (manatla)” sütununda “218 100 000,00” rəqəmləri “218 380 000,00” rəqəmləri ilə əvəz edilsin;

2.5. 2.2.2.1-ci və 2.2.2.2-ci abzasların “Məbləğ (manatla)” sütununda “109 050 000,00” rəqəmləri “109 190 000,00” rəqəmləri ilə əvəz edilsin;

2.6. 2.2.3-cü yarımbəndin “Məbləğ (manatla)” sütununda “303 800 000,00” rəqəmləri “316 400 000,00” rəqəmləri ilə əvəz edilsin;

2.7. 2.2.3.1-ci və 2.2.3.2-ci abzasların “Məbləğ (manatla)” sütununda “151 900 000,00” rəqəmləri “158 200 000,00” rəqəmləri ilə əvəz edilsin;

2.8. 2.5-ci bəndin birinci abzasının “Məbləğ (manatla)” sütununda “32 600 000,00” rəqəmləri “66 600 000,00” rəqəmləri ilə əvəz edilsin;

2.9. 2.5.1-ci yarımbəndin “Məbləğ (manatla)” sütununda “31 000 000,00” rəqəmləri “65 000 000,00” rəqəmləri ilə əvəz edilsin.

**3.** 3-cü hissə üzrə:

3.1. 3.2-ci bəndin birinci abzasının “Məbləğ (manatla)” sütununda “79 280 236,00” rəqəmləri “78 934 142,00” rəqəmləri ilə əvəz edilsin;

3.2. 3.2.1-ci yarımbəndin “Məbləğ (manatla)” sütununda “53 280 236,00” rəqəmləri “52 934 142,00” rəqəmləri ilə əvəz edilsin;

3.3. 3.4-cü bəndin birinci abzasının “Məbləğ (manatla)” sütununda “2 503 074 032,0” rəqəmləri “2 565 744 926,00” rəqəmləri ilə əvəz edilsin;

3.4. 3.4.1-ci yarımbəndin “Məbləğ (manatla)” sütununda “1 717 996 342,00” rəqəmləri “1 678 167 236,00” rəqəmləri ilə əvəz edilsin;

3.5. 3.4.2-ci yarımbəndin “Məbləğ (manatla)” sütununda “497 077 690,0” rəqəmləri “479 577 690,0” rəqəmləri ilə əvəz edilsin;

3.6. 3.4.2.3-cü abzasın “Məbləğ (manatla)” sütununda “27 500 000,00” rəqəmləri “23 000 000,00” rəqəmləri ilə əvəz edilsin;

3.7. 3.4.2.4-cü abzasın “Məbləğ (manatla)” sütununda “50 000 000,00” rəqəmləri “40 000 000,00” rəqəmləri ilə əvəz edilsin;

3.8. 3.4.2.5-ci abzasın “Məbləğ (manatla)” sütununda “57 000 000,00” rəqəmləri “55 000 000,00” rəqəmləri ilə əvəz edilsin;

3.9. 3.4.2.7-ci abzasın “Məbləğ (manatla)” sütununda “1 000 000,00” rəqəmləri “3 000 000,00” rəqəmləri ilə əvəz edilsin;

3.10. 3.4.2.9-cu abzasın “Məbləğ (manatla)” sütununda “24 000 000,00” rəqəmləri “21 000 000,00” rəqəmləri ilə əvəz edilsin;

3.11. 3.4.2.9.2-ci abzasın “Məbləğ (manatla)” sütununda “5 000 000,00” rəqəmləri “2.000.000,00” rəqəmləri ilə əvəz edilsin;

3.12. 3.4.3-cü yarımbəndin “Məbləğ (manatla)” sütununda “260 000 000,00” rəqəmləri “393 000 000,00” rəqəmləri ilə əvəz edilsin;

3.13. 3.4.4-cü yarımbəndin “Məbləğ (manatla)” sütununda “28 000 000,00” rəqəmləri “15 000 000,00” rəqəmləri ilə əvəz edilsin;

3.14. 3.5-ci bəndin birinci abzasının “Məbləğ (manatla)” sütununda “55 000 000,00” rəqəmləri “30 000 000,00” rəqəmləri ilə əvəz edilsin;

3.15. 3.6-cı bəndin birinci abzasının “Məbləğ (manatla)” sütununda “88 874 024,00” rəqəmləri “90 429 224,00” rəqəmləri ilə əvəz edilsin;

3.16. 3.6.1-ci yarımbəndin “Məbləğ (manatla)” sütununda “3 303 343,00” rəqəmləri “3 288 923,00” rəqəmləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 29 iyul 2024-cü il**

---

**Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 29 iyul tarixli Fərmanı ilə təsdiq edilmişdir**

# Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi yanında Suların İstifadəsinə və Mühafizəsinə Dövlət Nəzarəti Xidməti haqqında əsasnamə

**1. Ümumi müddəalar**

1.1. Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi yanında Suların İstifadəsinə və Mühafizəsinə Dövlət Nəzarəti Xidməti (bundan sonra – Xidmət) Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin (bundan sonra – Agentlik) fəaliyyət istiqamətlərinə uyğun olaraq, su obyektlərindən istifadə və onların mühafizəsi qaydalarına, sudan istifadə limitlərinə, su obyektlərindən istifadə və onların mühafizəsi sahəsində sanitariya-gigiyena, ekoloji, hidrogeoloji, hidroloji, texnoloji tələbləri nəzərdə tutan normativ hüquqi aktlara, su mühafizə zonalarının ərazisindən istifadə rejiminə və Azərbaycan Respublikası su qanunvericiliyinin digər tələblərinə riayət edilməsinə (bundan sonra – müvafiq sahə) dövlət nəzarətini, su və su təsərrüfatı obyektlərinin monitorinqini həyata keçirən, Agentliyin strukturuna daxil olan qurumdur.

1.2. Xidmət öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi haqqında Əsasnaməni, bu Əsasnaməni, Azərbaycan Respublikası Prezidentinin digər fərmanlarını, həmçinin sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, habelə Agentliyin hüquqi aktlarını rəhbər tutur.

1.3. Xidmət öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən Azərbaycan Respublikasının dövlət orqanları (qurumları), yerli özünüidarəetmə orqanları, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə, habelə digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.4. Xidmətin müstəqil balansı, istifadəsində olan dövlət əmlakı, xəzinə və bank hesabları, üzərində Azərbaycan Respublikası Dövlət Gerbinin təsviri, Agentliyin adı və öz adı həkk olunmuş möhürü, müvafiq ştampları və blankları vardır.

1.5. Xidmətin saxlanılma xərcləri və fəaliyyəti, habelə maddi-texniki təminatı Azərbaycan Respublikasının dövlət büdcəsi, büdcədənkənar vəsait və qanunda nəzərdə tutulmuş digər mənbələr hesabına maliyyələşdirilir.

1.6. Xidmət Bakı şəhərində yerləşir.

**2. Xidmətin fəaliyyət istiqamətləri**

2.1. Xidmətin əsas fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. müvafiq sahədə dövlət siyasətinin formalaşdırılması ilə bağlı Agentliyə təkliflər vermək, həmin siyasətin həyata keçirilməsini təmin etmək;

2.1.2. müvafiq sahəni tənzimləyən normativ hüquqi aktların layihələrinin hazırlanmasında iştirak etmək, onlara dair rəy və təkliflər vermək;

2.1.3. müvafiq sahədə dövlət nəzarətini həyata keçirmək;

2.1.4. Azərbaycan Respublikasının ərazisində yerüstü və yeraltı su ehtiyatlarının, su və su təsərrüfatı obyektlərinin, hidrotexniki qurğuların, su təchizatı sistemlərinin monitorinqini aparmaq və monitorinqin nəticələrinə əsasən tədbirlər görmək;

2.1.5. müvafiq sahənin inkişafı üçün tədbirlər görmək.

**3. Xidmətin vəzifələri**

3.1. Bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq, Xidmətin vəzifələri aşağıdakılardır:

3.1.1. müvafiq sahəni tənzimləyən normativ hüquqi aktların hazırlanmasında iştirak etmək, onlara dair rəy vermək;

3.1.2. su obyektlərindən istifadə və onların mühafizəsi qaydalarına, sudan istifadə limitlərinə, su obyektlərindən istifadə və onların mühafizəsi sahəsində sanitariya-gigiyena, ekoloji, hidrogeoloji, hidroloji, texnoloji tələbləri nəzərdə tutan normativ hüquqi aktlara, su mühafizə zonalarının ərazisindən istifadə rejiminə və Azərbaycan Respublikası su qanunvericiliyinin digər tələblərinə riayət edilməsinə dövlət nəzarətini həyata keçirmək;

3.1.3. Azərbaycan Respublikasının ərazisində yerləşən su və su təsərrüfatı obyektlərində, hidrotexniki qurğularda, su təchizatı sistemlərində monitorinqlər, dövlət su kadastrını, yerüstü və yeraltı suların dövlət uçotunu aparmaq;

3.1.4. suların vəziyyətinə zərərli təsir edən texniki qurğuların, avadanlığın, müəssisələrin (və ya onların bir hissəsinin) və digər obyektlərin istismara buraxılmasının qadağan edilməsi barədə, habelə onların istismarının məhdudlaşdırılması, dayandırılması və fəaliyyətinin qadağan edilməsi ilə bağlı Agentliyə təkliflər vermək;

3.1.5. su obyektlərinin, o cümlədən içməli su təchizatı mənbələrinin sanitariya mühafizə zonaları və dairələrinin rejiminin təyin edilməsində iştirak etmək;

3.1.6. su mühafizə zonalarının, sahil mühafizə zolaqlarının ölçülərinin, sərhədlərinin və onlardan istifadə qaydasının müəyyən edilməsində iştirak etmək;

3.1.7. yeraltı və yerüstü suların zərərli təsirinin qarşısının alınması və nəticələrinin aradan qaldırılması üçün tədbirlər planının hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;

3.1.8. təbii fəlakət və texnogen qəzalar nəticəsində zədələnmiş və ya sıradan çıxmış su təsərrüfatı obyektlərinin bərpasına dair təkliflərin hazırlanmasında iştirak etmək;

3.1.9. su ehtiyatlarından kompleks istifadə və həmin obyektlərin mühafizəsi baş sxeminin, hövzə və ərazi sxemlərinin hazırlanmasında iştirak etmək;

3.1.10. sudan qənaətlə istifadə olunması, o cümlədən itkilərin qarşısının alınması ilə bağlı tədbirlər görmək;

3.1.11. qanunla müəyyən edilmiş qaydada istifadəyə verilmiş su mühafizə zonalarının torpaqlarında fəaliyyətə nəzarəti həyata keçirmək;

3.1.12. hidrotexniki qurğuların təhlükəsizliyinə təsir edən tikinti fəaliyyətini və konservasiya işlərini dayandırmaq barədə Agentliyə təkliflər vermək;

3.1.13. su obyektlərinin, hidrotexniki qurğuların və su təchizatı sistemlərinin təhlükəsizliyini təmin etmək məqsədilə həmin obyektlərdən (onların bir hissəsindən) istifadənin məhdudlaşdırılması, dayandırılması və qadağan olunması üçün Agentliyə təkliflər vermək;

3.1.14. dövlət uçotuna alınacaq su istifadəçilərinin siyahısının tərtib edilməsində iştirak etmək;

3.1.15. su obyektlərinin istifadəçiləri və su istehlakçıları tərəfindən su obyektlərindən götürülən və onlara axıdılan suların uçotunun aparılmasına nəzarətin həyata keçirilməsini, bu məqsədlə istifadə olunan avadanlıq və cihazların vəziyyətinə dair aidiyyəti dövlət orqanları (qurumları) ilə birlikdə monitorinq aparılmasını təmin etmək;

3.1.16. su obyektlərindən təyinatına görə istifadə edilməsi ilə bağlı monitorinq aparmaq və qanunvericiliyə uyğun tədbirlər görmək;

3.1.17. su ehtiyatlarından istifadə sahəsində proqnoz və layihələrin hazırlanmasında iştirak etmək;

3.1.18. suların axım rejiminə, keyfiyyətinə və istifadəsinə dair məlumat toplanılmasını həyata keçirmək;

3.1.19. təbii fəlakət və texnogen qəzalar nəticəsində su obyektlərində baş vermiş qəzaların səbəblərinin müəyyənləşdirilməsində və bu qəzalar nəticəsində dəymiş zərərin qiymətləndirilməsində iştirak etmək;

3.1.20. ərazi planlaşdırılması sənədlərinə dair Agentliyə təkliflər vermək;

3.1.21. qanunla nəzərdə tutulmuş qaydada su obyektlərindən balıqçılıq üçün istifadəyə razılıq verilməsi, sututarlar və ya onların müəyyən hissəsinin idman və həvəskar balıq və digər su bioresurslarının ovu üçün ayrılması barədə Agentliyə rəy vermək;

3.1.22. ölkə, su hövzələri və inzibati ərazi vahidləri üzrə su təsərrüfatı balanslarının hazırlanmasında iştirak etmək;

3.1.23. daşqın və subasma zonalarının müəyyənləşdirilməsində iştirak etmək;

3.1.24. sulardan istifadə və onların mühafizəsi sahəsində qanunla müəyyən edilmiş tələbləri pozan şəxslərə qarşı qanunla müəyyən edilmiş tədbirlər görmək;

3.1.25. su və su təsərrüfatı obyektlərindən götürülən suların bölüşdürülməsini və sudan istifadəyə nəzarətin həyata keçirilməsini təmin etmək;

3.1.26. tərkibində çirkləndirici maddələrin miqdarı normadan artıq olan tullantı sularının su obyektlərinə axıdılmasının məhdudlaşdırılmasını, dayandırılmasını və ya qadağan olunmasını təmin etmək;

3.1.27. sanitariya, hidrotexniki və meliorasiya tədbirlərinin görülməsi halları istisna olmaqla, çaylarda, çay qollarında, meliorasiya və irriqasiya sistemlərində qalaqların yaradılmasının, su axımının qarşısının özbaşına kəsilməsinin, göllərdən və limanlardan su buraxılmasının qarşısının alınması üçün tədbirlər görülməsini təmin etmək;

3.1.28. hidrotexniki qurğuların təyinatı üzrə təhlükəsizlik bəyannamələrinin təsdiqini və hidrotexniki qurğuların dövlət reyestrinin aparılmasını təmin etmək;

3.1.29. Agentlik tərəfindən verilmiş su ehtiyatlarından istifadəyə icazələrin şərtlərinə riayət olunmasına nəzarət etmək;

3.1.30. müvafiq sahədə dövlət proqramlarının, inkişaf konsepsiyalarının layihələrinin hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;

3.1.31. qanunda nəzərdə tutulmuş hallarda “Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla yoxlama aparmaq;

3.1.32. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin həyata keçirilməsini fəaliyyət istiqamətləri üzrə təmin etmək;

3.1.33. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, internet saytının yaradılmasını, malik olduğu və siyahısı qanunla müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və bu informasiyanın daim yenilənməsini təmin etmək;

3.1.34. fəaliyyəti ilə bağlı daxil olan müraciətlərə Azərbaycan Respublikasının “Vətəndaşların müraciətləri haqqında”, “İnzibati icraat haqqında” və “İnformasiya əldə etmək haqqında” qanunlarına uyğun olaraq baxmaq və qanunla müəyyən edilmiş qaydada tədbirlər görmək;

3.1.35. dövlət sirrinin və məxfilik rejiminin qorunması üçün zəruri tədbirlər, habelə fəaliyyət istiqamətlərinə uyğun olaraq təhlükəsizlik tədbirləri görmək;

3.1.36. Xidmətin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində Agentliyə təkliflər vermək;

3.1.37. fəaliyyət istiqamətlərinə aid məsələlər üzrə kadr hazırlığını təmin etmək, mütəxəssislərin hazırlanması və əlavə təhsili üçün tədbirlər görmək;

3.1.38. müvafiq sahəyə ayrılan büdcə vəsaitindən, kreditlərdən, qrantlardan və digər maliyyə vəsaitindən təyinatı üzrə istifadə olunmasını təmin etmək;

3.1.39. Xidmətdə kargüzarlıq və arxiv işinin aparılmasını təşkil etmək;

3.1.40. müvafiq sahədə “Coğrafi İnformasiya Sistemi”nin (GİS) formalaşdırılması, aparılması və təkmilləşdirilməsi üçün Agentliyə təkliflər vermək;

3.1.41. meliorasiya və irriqasiya sistemlərinin kadastrını aparmaq;

3.1.42. fəaliyyətinin nəticələri barədə Agentliyə hesabat təqdim etmək;

3.1.43. Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

**4. Xidmətin hüquqları**

4.1. Öz vəzifələrini yerinə yetirmək üçün Xidmətin aşağıdakı hüquqları vardır:

4.1.1. müvafiq sahədə Azərbaycan Respublikasının beynəlxalq müqavilələrə tərəfdar çıxması barədə Agentliyə təkliflər vermək;

4.1.2. müvafiq sahədə normativ hüquqi aktın layihəsinin qəbul olunması, aktda dəyişiklik edilməsi, aktın şərh edilməsi, qüvvəsinin dayandırılması və ya ləğv edilməsi haqqında Agentliyə təkliflər vermək;

4.1.3. müvafiq sahə üzrə beynəlxalq təcrübəni öyrənmək, fəaliyyət istiqamətlərinə və vəzifələrinə uyğun analitik materiallar hazırlamaq, təhlillər, monitorinqlər və tədqiqatlar aparmaq, rəy və təkliflərini Agentliyə təqdim etmək;

4.1.4. Agentliklə razılaşdırmaqla beynəlxalq tədbirlərdə iştirak etmək və müvafiq sahə ilə bağlı konfranslar, seminarlar və digər tədbirlər keçirmək;

4.1.5. Agentliklə razılaşdırmaqla beynəlxalq təşkilatlarla, xarici dövlətlərin aidiyyəti qurumları ilə əməkdaşlıq etmək, onların müvafiq sahə ilə bağlı təcrübəsini öyrənmək;

4.1.6. müvafiq sahə üzrə dövlət və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək, onlardan belə məlumatları (sənədləri) almaq;

4.1.7. müstəqil ekspertləri və mütəxəssisləri, məsləhətçi şirkətləri və elmi təşkilatları müqavilə əsasında, bu məqsəd üçün nəzərdə tutulmuş vəsait çərçivəsində öz fəaliyyətinə cəlb etmək, işçi qruplar və komissiyalar yaratmaq;

4.1.8. Xidmətin fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı məhkəmədə öz adından çıxış etmək;

4.1.9. Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

**5. Xidmətin fəaliyyətinin təşkili**

5.1. Xidmətin strukturu, ştat cədvəli, gəlir və xərclər smetası Agentliyin sədri tərəfindən təsdiq edilir.

5.2. Xidmətə Agentliyin sədri tərəfindən vəzifəyə təyin edilən və vəzifədən azad edilən Xidmətin rəisi rəhbərlik edir.

5.3. Xidmətin rəisi Xidmətə həvalə edilmiş vəzifələrin yerinə yetirilməsinə və funksiyalarının həyata keçirilməsinə görə şəxsən məsuliyyət daşıyır.

5.4. Xidmət rəisinin Agentliyin sədri tərəfindən vəzifəyə təyin edilən və vəzifədən azad edilən iki müavini vardır. Xidmət rəisinin müavinləri vəzifə bölgüsünə uyğun olaraq fəaliyyət göstərirlər və onlara həvalə edilmiş vəzifələrin yerinə yetirilməsinə görə şəxsən məsuliyyət daşıyırlar.

5.5. Xidmətin rəisi:

5.5.1. Xidmətin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

5.5.2. dövlət orqanları (qurumları), yerli özünüidarəetmə orqanları ilə, hüquqi və fiziki şəxslərlə münasibətlərdə Xidməti təmsil edir;

5.5.3. Xidmət rəisinin müavinləri arasında vəzifə bölgüsü aparır, habelə Xidmətin digər vəzifəli şəxslərinin qarşılıqlı fəaliyyətini təmin edir;

5.5.4. müəyyən edilmiş struktur, əməyin ödənişi fondu və işçilərin say həddi daxilində Xidmətin strukturunu, ştat cədvəlini, gəlir və xərclər smetasını təsdiq olunmaq üçün Agentliyə təqdim edir;

5.5.5. Agentliyin sədri tərəfindən təyin edilən Xidmət işçiləri istisna olmaqla, Xidmətin digər işçilərini Agentliyin sədri ilə razılaşdırmaqla vəzifəyə təyin və vəzifədən azad edir, işçilərlə əmək müqavilələri bağlayır, onların fəaliyyətinə rəhbərlik edir, qanunda nəzərdə tutulmuş qaydada həvəsləndirmə və intizam tənbehi tədbirləri görür;

5.5.6. Agentliyin sədri tərəfindən təyin edilən Xidmət işçiləri istisna olmaqla, Xidmətin digər dövlət qulluqçularına qanunla müəyyən edilmiş qaydada dövlət qulluğunun ixtisas dərəcələrini verir;

5.5.7. Xidmətin fəaliyyətinə dair əmr və sərəncamlar verir və onların, habelə Agentlik tərəfindən qəbul edilmiş normativ hüquqi aktların icrasını təşkil edir və buna nəzarəti həyata keçirir;

5.5.8. Xidmətin vəzifəli şəxslərinin qanunvericiliyə zidd olan qərarlarını ləğv edir;

5.5.9. Xidmətin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi, maddi-texniki bazasının möhkəmləndirilməsi barədə Agentliyə təkliflər verir;

5.5.10. işçilərin peşə hazırlığı və əlavə təhsili üçün zəruri tədbirlər görür;

5.5.11. vətəndaşların qəbulunu və müraciətlərinə baxılmanı təmin edir;

5.5.12. Xidmətin fəaliyyəti barədə Agentliyə hesabat verir;

5.5.13. dövlət büdcəsindən ayrılan vəsaitin təyinatı üzrə xərclənməsini təmin edir, ayrılmış vəsaitin həddi nəzərə alınmaqla, Xidmət işçilərinin vəzifə maaşlarına əlavələrin, maddi yardım və mükafatların verilməsini təmin edir.

**Milli Məclisə seçkilərə 32 gün qaldı**

**SEÇKİYƏ GƏL, SƏS VER, SEÇİLMİŞLƏRDƏN OL!**



# İşğaldan azad edilmiş ərazilərdə seçki hazırlığı

**124 saylı Şuşa – Ağdam – Xocavənd seçki dairəsinin sədri Mədinə Abbasovanın "Xalq qəzeti"nə eksklüziv müsahibəsi**



***– Mədinə xanım, hazırda parlament seçkilərində, necə deyərlər, işin başdan aşan vaxtıdır. Rəhbərlik etdiyiniz dairədə seçkilərə hazırlıq işləri necə gedir?***

– Doğrudanda da, iş başdan aşır. Namizədlərin irəli sürülməsi vaxtı sona yaxınlaşır. Namizədliyini irəli sürənlərin hər birinin sənədləri diqqətlə araşdırılır. Çalışırıq ki, onların hər biri bu siyasi kampaniyada öz qüvvələrini sınasınlar. Mən hazırda 124 saylı Şuşa –Ağdam – Xocavənd seçki dairəsinin sədriyəm. Seçki dairəsinin əhatəsində 93 seçki məntəqəsi var və müxtəlif bölgələrdə yerləşir. Bunun 47- də şuşalılar, 32- də ağdamlılr, 14-də isə xocavəndlilər səs verəcəklər. Bu məntəqələri formalaşdırmaq, seçki prosesi üçün tələb olunan ləvazimatla təchiz etmək zəhmət, səbr, dözüm tələb edir. Əhalinin doğma dədə-baba yurdlarına qayıdışından sonra Şuşa və Xocavəndin hər birində 2 seçki məntəqəsi yaradılıb. İlk dəfə olaraq şuşalılar və xocavəndlilər dədə-baba yurdlarında keçirilən parlament seçkilərində səs verəcəklər. Bu sevinci işğaldan azad edilmiş rayonların hər bir sakini yaşamaq arzusundadır. Həmin ərazilərdə yaradılmış seçki məntəqələri müasir standartlara tam uyğun qurulub.

Məlumdur ki, beynəlxalq müşahidəçilər Xankəndidə, Şuşada, Xocavənddə və işğaldan azad edilmiş digər ərazilərimizdə keçiriləcək parlament seçkilərini izləməkdə maraqlı olacaqlar. Ona görə də seçkilərin yüksək səviyyədə aparılması üçün bütün vasitələrdən istifadə edirik. Artıq hazırlıq işləri başa çatıb və seçici siyahıları məntəqələrin müvafiq yerlərindən asılıb. Müşahidəçilər üçün də əlverişli şərait yaradılıb. Məlumdur ki, parlament seçkiləri həmişə gərgin mübarizə şəraitində keçir. Çünki bir mandat uğrunda 10-15 nəfər mübarizə aparır. Onların hər birinin müşahidəçisi, səlahiyyətli nümayəndəsi seçkiləri izləməkdə maraqlıdır. Ona görə də seçki prosesinin problemsiz müşahidə olunması üçün əlverişli şərait yaratmağa çalışırıq.

***– Problemlərdən söhbət düşmüşkən, namizədliyini irəli sürənlər arasında narazılıq edənlər olurmu? Bəzən tələb olunan sənədləri vaxtında toplayıb çatdıra bilməyənlər, guya, onlar üçün qəsdən süni əngəl yaradıldığını iddia edirlər.***

– Bizim dairə üzrə hələlik belə hal baş verməyib. Ümid edirəm ki, bundan sonra da narazılıq yaranmayacaq. Çünki namizədliyini irəli sürənlərin hər biri üçün əlverişli şərait yaradılıb. Biz istəyirik ki, namizədlərin sayı çox olsun və seçki daha gərgin mübarizə şəraitində keçsin. Seçib-seçilmək hər bir kəsin konstitusion hüququdur. Heç kimin ixtiyarı yoxdur ki, bu hüququ onların əlindən alsın. Biz namizədlərə kömək məqsədilə bəzi sənədlərin hazır formalarını onlara təqdim edirik ki, əlavə vaxt itirməsinlər. Ona görə də inanmıram ki, namizədlər onlara süni əngəl yaradılmasından şikayət etsinlər. Namizədlərin təbliğat-təşviqatlarının bərabər səviyyədə aparılması üçün hər bir seçki məntəqəsinin yaxınlığında dəmir lövhələr quraşdırılıb. Bir sözlə, hər bir namizəd üçün əlverişli şərait yaratmışıq. Qoy kim güclüdür, qalib gəlsin.




***– Seçkilərin şəffaf, azad və ədalətli keçirilməsində maarifləndirmə proqramlarının da rolu böyükdür...***

– Seçkilərin mütəşəkkil və insidentsiz keçirilməsi üçün maarifləndirmə layihələrinin rolu çox böyükdür. Artıq MSK dairə seçki komissiyaları, ekspert və işçi qrupları üçün bir neçə belə tədbir keçirib. Aşağı seçki komissiya üzvləri də maarifləndirmə layihələrində iştirak edəcəklər. Çünki belə layihələr seçkilər zamanı qarşıya çıxan problemlərin aradan qaldırılmasında çox kömək edir. Bundan əlavə, MSK tərəfindən hazırlanmış təlimatlar, yaddaş kitabçaları və digər metodiki vəsaitlər hər bir komissiya üzvü üçün yardımçı olacaq. Seçkilərin demokratik şəraitdə keçirilməsi üçün bütün imkanlardan istifadə edirik.

Parlament seçkilərinin ilk dəfə Azərbaycanın bütün ərazisində keçirilməsi hər birimiz üçün qürurverici hadisədir. Hər dəfə olduğu kimi, bu seçkilərdə də dünya ictimaiyyətinin nəzəri ölkəmizə yönələcək. Biz bu seçkiləri də yüksək səviyyədə keçirmək üçün bütün imkanlardan istifadə edirik. Dünya ictimaiyyəti Azərbaycanın seçkiləri yüksək səviyyədə keçirməyə qadir olduğunu bir daha görəcək.

***Müsahibəni qələmə aldı:***
***Əliqismət BƏDƏLOV***
***X Q***

# Ən yaşlı kişi və qadın seçiciləri








Azərbaycanın ən yaşlı qadın seçicisi Əzizova Tamam Əli qızıdır. 1890 – cı ilin yanvar ayında Cəlilabad rayonunun Tokrovka kəndidnə anadan olub. Hazırda Lənkəran rayonunun Şiləvar kəndində yaşayır. 134 yaşlı Tamam Əzizova 78 saylı Lənkəran kənd seçki dairəsinin 38 saylı seçki məntəqəsində səs verəcək.

Ən yaşlı kişi seçicisi isə 1915-ci il təvəllüdlü İbrahimov Hilal İsa oğludur. O, Ağcabədi rayonunun Sarıcalılar kəndində doğulub. 109 yaşlı H.İbrahimov hazırda Bakı şəhərinin Sabunçu rayonunda yaşayır və Zabrat qəsəbəsindəki 37 saylı seçki məntəqəsində səs verəcək. II Dünya müharibəsinin veteranı H.İbrahimov 10 övlad atasıdır, 22 nəvəsi, 18 nəticəsi var.

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 360** **Bakı şəhəri 25 iyul 2024-cü il**

***Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinin informasiya sisteminə inteqrasiya edilən informasiya sistemlərindən (ehtiyatlarından) əldə olunan məlumatların dairəsinin müəyyən edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının 2022-ci il 30 dekabr tarixli 781-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 31 yanvar tarixli 2007 nömrəli Fərmanının 2.1.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinin informasiya sisteminə inteqrasiya edilərək bu Qərarın 1.1 – 1.12-ci bəndlərində nəzərdə tutulan orqanların (qurumların) informasiya sistemlərindən (ehtiyatlarından) "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının 2022-ci il 30 dekabr tarixli 781-VIQ nömrəli Qanunu ilə müəyyən edilmiş səlahiyyətlərinin həyata keçirilməsi ilə əlaqədar zəruri olan aşağıdakı məlumatların elektron qaydada sorğu əsasında təxirə salınmadan almaq hüququ təmin edilsin:

1.1. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi üzrə:

1.1.1. Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi və ümumvətəndaş pasportunda qeyd edilən eyniləşdirmə məlumatları (soyadı, adı, atasının adı, doğulduğu yer və tarix, şəxsiyyət vəsiqəsinin seriya və nömrəsi, ümumvətəndaş pasportunun nömrəsi, verilmə tarixi və etibarlılıq müddəti, fərdi identifikasiya nömrəsi (bundan sonra - FİN) və fotoşəkli);

1.1.2. Azərbaycan Respublikasının hüdudlarından kənara getməsi üçün Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxsin şəxsiyyət vəsiqəsində qeyd edilən eyniləşdirmə məlumatları (soyadı, adı, atasının adı, doğulduğu yer və tarix, hansı ölkədən gəldiyi, şəxsiyyət vəsiqəsinin seriyası, nömrəsi, verilmə tarixi, FİN-i və fotoşəkli);

1.1.3. Azərbaycan Respublikasının hüdudlarında istifadə edilməsi üçün 16 yaşına çatanadək vətəndaşlığı olmayan şəxsə verilən şəxsiyyət vəsiqəsində qeyd edilən məlumatlar (soyadı, adı, valideynlərinin soyadı və adı, doğulduğu yer və tarix, hansı ölkədən gəldiyi, şəxsiyyət vəsiqəsinin seriya və nömrəsi, verilmə tarixi və etibarlılıq müddəti, yaşadığı yer);

1.1.4. Azərbaycan Respublikasının hüdudlarında istifadə edilməsi üçün 16 yaşına çatdıqdan sonra vətəndaşlığı olmayan şəxsə verilən şəxsiyyət vəsiqəsində qeyd edilən məlumatlar (soyadı, adı, atasının adı, doğulduğu yer və tarix, hansı ölkədən gəldiyi, şəxsiyyət vəsiqəsinin seriya və nömrəsi, verilmə tarixi və etibarlılıq müddəti, yaşadığı yer, ailə vəziyyəti barədə məlumat və fotoşəkli);

1.1.5. şəxslərin yaşayış yeri və olduğu yer üzrə qeydiyyatı barədə məlumatlar;

1.1.6. axtarışda olan şəxslər barədə məlumatlar;

1.1.7. cinayət törətməkdə şübhəli bilinən və ya təqsirləndirilən, məhkum olunmuş, inzibati qaydada həbs edilmiş şəxslərin mərkəzləşdirilmiş fərdi uçotlarının əməliyyat - sorğu kartotekalarında mövcud olan məlumatları;

1.1.8. hüquqi və fiziki şəxslərə məxsus, dövlət qeydiyyatı Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi tərəfindən aparılan mexaniki nəqliyyat vasitələri barədə məlumatlar (nəqliyyat vasitəsinin növü, markası, modeli, tipi, dövlət qeydiyyat nömrəsi, sahibinin soyadı, adı, atasının adı və şəxsiyyətini təsdiq edən sənədin seriyası, nömrəsi və FİN-i);

1.2. Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti üzrə:

1.2.1. ölkəyə gələn və ölkədən gedən şəxslərin sərhədkeçmə nəzarəti və qeydiyyatı barədə məlumatları;

1.3. Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti üzrə:

1.3.1. əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının ərazisində müvəqqəti və daimi yaşamaq üçün icazə verilməsi, müvəqqəti olma müddətinin uzadılması barədə məlumatlar;

1.3.2. əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının ərazisində haqqı ödənilən əmək fəaliyyətini həyata keçirmək üçün iş icazələrinin verilməsi barədə məlumatlar;

1.3.3. Azərbaycan Respublikasının ərazisində müvəqqəti və daimi yaşayan, habelə müvəqqəti olma müddəti uzadılmış əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin yaşayış yeri üzrə qeydiyyatı barədə məlumatlar;

1.3.4. Azərbaycan Respublikasına gəlişi qadağan edilmiş əcnəbilər və vətəndaşlığı olmayan şəxslər barədə eyniləşdirmə məlumatları (soyadı, adı, doğulduğu yer və tarix, vətəndaşlığı, sənədin növü, seriyası və nömrəsi);

1.4. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi üzrə:

1.4.1. şəxsin (Azərbaycan Respublikasının vətəndaşlarının, habelə Azərbaycan Respublikasında daimi yaşayan və ya qaçqın statusu almış əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin) Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestrinə daxil edilən eyniləşdirmə məlumatları (soyadı (əvvəlki soyadları), adı, atasının adı, şəxsiyyəti təsdiq edən sənədin seriya və nömrəsi, FİN-i, fotoşəkli, doğulduğu yer və tarix, cinsi, vətəndaşlığı, ailə vəziyyəti, ölüm tarixi);

1.4.2. ərin (arvadın) FİN-i (olduğu halda), soyadı, adı, atasının adı barədə məlumatlar;

1.4.3. valideynlərin FİN-i (olduğu halda), soyadı, adı, atasının adı barədə məlumatlar;

1.4.4. uşağın FİN-i (olduğu halda), soyadı, adı, atasının adı barədə məlumatlar;

1.4.5. notariat qaydasında təsdiq edilmiş aşağıdakı müqavilələr barədə məlumatlar:

1.4.5.1. daşınmaz əmlakın alqı-satqısı üzrə müqavilələr, habelə torpağın icarə hüquqlarının alqı-satqısı üzrə müqavilələr barədə məlumatlar;

1.4.5.2. icarə müqavilələri barədə məlumatlar;

1.4.5.3. kredit müqavilələri barədə məlumatlar;

1.4.5.4. ipoteka müqavilələri barədə məlumatlar;

1.4.5.5. girov müqavilələri, o cümlədən pul vəsaitlərinin girovu müqavilələri barədə məlumatlar;

1.4.5.6. kirayə müqavilələri barədə məlumatlar;

1.4.5.7. borc müqavilələri barədə məlumatlar;

1.4.5.8. əmlak bölgüsü üzrə müqavilələr barədə məlumatlar;

1.4.5.9. pulun bağışlanmasına dair müqavilələr barədə məlumatlar;

1.4.5.10. beh müqavilələri barədə məlumatlar;

1.4.5.11. qiymətli kağızların özgəninkiləşdirilməsi üzrə müqavilələr barədə məlumatlar;

1.4.5.12. nəqliyyat vasitələrinin özgəninkiləşdirilməsi üzrə müqavilələr barədə məlumatlar;

1.4.5.13. hüquqi şəxsin paylarının alqı-satqısı və bağışlanması haqqında, habelə təsis edilməsi haqqında müqavilələr barədə məlumatlar;

1.4.5.14. hüquqi şəxsin yaradılması ilə əlaqədar notariat qaydasında təsdiq edilmiş etibarnamələr (müqavilələr) barədə məlumatlar;

1.4.5.15. elektron imzanın alınması məqsədilə notariat qaydasında təsdiq edilmiş etibarnamələr barədə məlumatlar;

1.4.6. hüquqi şəxsin təsis edilməsi zamanı notariat qaydasında təsdiq edilmiş sənədlər barədə məlumatlar;

1.4.7. pul vəsaitlərinin, qiymətli kağızların, bank və ya qiymətli kağız hesablarının idarə edilməsi ilə əlaqədar notariat əməliyyatları barədə məlumatlar;

1.5. Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi üzrə:

1.5.1. rezident və qeyri-rezident şəxslər tərəfindən valyuta sərvətləri və milli valyutanın gömrük sərhədindən keçirilməsinə, eləcə də malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilməsi ilə əlaqədar valyuta əməliyyatlarına nəzarət barədə məlumatlar;

1.5.2. gömrük orqanları tərəfindən valyuta nəzarəti həyata keçirilərkən aşkar edilmiş hüquq pozuntuları barədə məlumatlar;

1.5.3. fiziki və hüquqi şəxslərin idxal və ixrac əməliyyatlarına dair gömrük bəyannamələri barədə məlumatlar;

1.6. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi üzrə:

1.6.1. hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestri üzrə məlumatlar (hüququ rəsmiləşdirilən şəxsin (o cümlədən əvvəlki hüquq sahiblərinin) soyadı, adı, atasının adı (hüquqi şəxs olduqda tam adı və vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (bundan sonra – VÖEN), hüququn növü, daşınmaz əmlakın növü, mülkiyyət növü, qeydiyyat tarixi, ümumi sahəsi və reyestr nömrəsi);

1.6.2. daşınmaz əmlak üzərində mülkiyyət hüquqlarının məhdudlaşdırılması (servitut, uzufrukt, ipoteka, etibarlı idarəetmə, icarə, istifadə, lizinq, daşınmaz əmlakın üzərinə həbs qoyulması, daşınmaz əmlaka dair tələblər), məhdudiyyətin qüvvədə olduğu müddət, xeyrinə hüquq məhdudlaşdırılmış şəxslər, məhdudiyyətin yaranmasına əsas olan sənədin adı, onun qüvvədəolma tarixi barədə məlumatlar;

1.6.3. vergi ödəyicilərinin məlumatları (fiziki şəxsin soyadı, adı, atasının adı, FİN-i, şəxsiyyət vəsiqəsinin seriya və nömrəsi, doğulduğu tarix, vətəndaşlığı, hüquqi şəxsin adı, keçmiş adı, fiziki və hüquqi şəxsin VÖEN-i və onun verilmə tarixi, təşkilati-hüquqi forması, faktiki və hüquqi ünvanı, əlaqə vasitələri, dövlət qeydiyyatını aparan orqan (qurum), nizamnamə kapitalının valyutası və məbləği, mülkiyyət növü, statusu, ləğv edilmə tarixi, sorğu edilən tarixə barəsində cinayət işinin olub-olmaması, vergi borcları və səyyar vergi yoxlamaları barədə məlumatlar);

1.6.4. vergi ödəyicilərinin əsas və digər fəaliyyət növlərinin adları barədə məlumatlar;

1.6.5. hüquqi şəxsin təsisçilərinin (iştirakçılarının) məlumatları (fiziki şəxsin soyadı, adı, atasının adı, şəxsiyyəti təsdiq edən sənədin seriya və nömrəsi, FİN-i, doğulduğu tarix, vətəndaşlığı, hüquqi şəxsin tam adı, fiziki və hüquqi şəxsin VÖEN-i, təsisçi olduğu tarixlər) və onların nizamnamə kapitalındakı payları barədə məlumatlar;

1.6.6. vergi ödəyicisi olan hüquqi şəxsin qanuni təmsilçisinin (rəhbərinin) məlumatları (fiziki şəxsin soyadı, adı, atasının adı, şəxsiyyəti təsdiq edən sənədin seriya və nömrəsi, FİN-i, doğulduğu tarix, vətəndaşlığı hüquqi şəxsin tam adı, VÖEN-i, qanuni təmsilçi (rəhbər) kimi fəaliyyətinin başladığı və bitdiyi tarix);

1.6.7. vergi ödəyicilərinin təsisçisi olduğu hüquqi şəxsin (şəxslərin) məlumatları (tam adı, VÖEN-i, qeydiyyat ölkəsi, hüquqi ünvanı, mülkiyyət növü, ləğv olunma tarixi);

1.6.8. vergi ödəyicilərinin təsisçisi olduğu hüquqi şəxsin əsas və digər fəaliyyət növləri barədə məlumatlar;

1.6.9. müşahidə şurası üzvlərinin məlumatları (soyadı, adı, atasının adı, şəxsiyyəti təsdiq edən sənədin seriya və nömrəsi, FİN-i, doğulduğu tarix, vətəndaşlığı, müşahidə şurasının üzvü olduğu tarixlər);

1.6.10. vergi ödəyicilərinin hesabları barədə məlumatlar;

1.6.11. vergi ödəyicilərinin gəlirləri, xərcləri, mənfəəti (zərəri) və aktivləri barədə məlumatlar;

1.6.12. vergi ödəyicilərinin vergi hesablamaları, ödənişləri və artıq ödəmələr barədə məlumatlar;

1.6.13. təqdim edilmiş bəyannamə məlumatlarına əsasən muzdlu işçilərin soyadı, adı, atasının adı, şəxsiyyəti təsdiq edən sənədin seriya və nömrəsi, FİN-i, vəzifəsi və onların gəlirləri barədə məlumatlar;

1.6.14. vergi ödəyiciləri tərəfindən pul vəsaitlərinin nağd qaydada bank hesablarından çıxarılmasına görə hesablanmış vergilər barədə məlumatlar;

1.6.15. səyyar vergi yoxlamaları və operativ vergi nəzarəti tədbirləri zamanı aşkar olunan vergi qanunvericiliyinin pozulması, riskli vergi ödəyiciləri və əmtəəsiz əməliyyatlar barədə məlumatlar;

1.6.16. elektron qaimə-fakturalar və alış aktları barədə təfsilatlı məlumatlar;

1.6.17. ƏDV-nin depozit hesabı üzrə saldo və aparılan əməliyyatlar barədə məlumatlar;

1.6.18. dövlət satınalma müqavilələri barədə məlumatlar;

1.7. Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin və Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin daşınar əmlakın rəsmi reyestrlərində qeydiyyata alınmış müvafiq olaraq kiçikhəcmli gəmilər və daşınar tarix və mədəniyyət abidələri üzrə:

1.7.1. daşınar əmlakın adı və növü barədə məlumatlar;

1.7.2. daşınar əmlakın mülkiyyətçisi və onun üzərində digər əşya hüquqlarına malik olan şəxslər barədə məlumatlar (fiziki şəxsin soyadı, adı, atasının adı, şəxsiyyətini təsdiq edən sənədin seriya və nömrəsi, FİN-i, doğulduğu tarix, vətəndaşlığı, hüquqi şəxsin tam adı, VÖEN-i və qeydiyyat ölkəsi);

1.7.3. daşınar əmlaka mülkiyyət hüququnu və digər əşya hüquqlarını təsdiq edən sənədlər barədə məlumatlar;

1.7.4. daşınar əmlak üzərində hüquqların məhdudlaşdırılmasını, başqasına keçməsini və bu hüquqlara xitam verilməsini təsdiq edən sənədlər barədə məlumatlar;

1.8. Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi üzrə:

1.8.1. dövlət qulluqçusunun soyadı, adı, atasının adı və FİN-i;

1.8.2. dövlət qulluqçusunun işlədiyi dövlət orqanının və tutduğu vəzifənin adı, əmək fəaliyyətinin başlama və bitmə tarixi və stajı;

1.9. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi üzrə:

1.9.1. şəxsin işəgötürənlərinin adı və VÖEN-i, aylıq əməkhaqları, vəzifələri (peşələri), habelə işçi ilə əmək müqaviləsinin növü, bağlanıldığı və xitam verildiyi tarixlər, müddətli əmək müqaviləsinin müddətinin bitmə tarixi, əsas və əlavə iş yeri olması barədə qeyd və əməyin ödənilmə forması barədə məlumatlar;

1.10. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi üzrə:

1.10.1. abunəçinin FİN-i və ya VÖEN-i əsasında müəyyən edilən telefon nömrəsi (məftilli olduğu zaman ünvanı), sellülar (mobil) və simsiz telefon nömrələri;

1.10.2. abunəçinin telefon (məftilli olduğu zaman ünvanı), sellülar (mobil), simsiz telefon nömrəsi əsasında müəyyən edilən FİN-i və ya VÖEN-i;

1.11. Azərbaycan Respublikasının Mərkəzi Bankı üzrə:

1.11.1. "Valyuta tənzimi haqqında" Azərbaycan Respublikası Qanununun 16-1.1-ci maddəsinə əsasən Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən təsdiq edilmiş əsasnamə ilə müəyyən edilmiş məlumatlar.

1.12. Azərbaycan Respublikasının Baş Prokurorluğu üzrə:

1.12.1. cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması, terrorçuluğun maliyyələşdirilməsi və predikativ cinayətlərə dair işlər üzrə siyahısı Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinin Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə razılaşdırmaqla müəyyən etdiyi məlumatlar.

**2.** Müəyyən edilsin ki:

2.1. Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidmətinin "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş səlahiyyətlərinin həyata keçirilməsi ilə əlaqədar bu Qərarın 1-ci hissəsində qeyd olunan məlumatlar Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"na uyğun olaraq əldə edilir.

2.2. bu Qərarın 1-ci hissəsinin icrasının təmin edilməsi ilə əlaqədar xərclər Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinin büdcəsi hesabına maliyyələşdirilir.

**3.** Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi bu Qərarın 1-ci hissəsində nəzərdə tutulmuş dövlət orqanlarının (qurumlarının) qeyd olunan məlumatlarının toplandığı informasiya sistemlərinin (ehtiyatlarının) Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidmətinin informasiya sisteminə Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə inteqrasiyasını təmin etsin.

**4** Bu Qərarın 1.1-1.10-cu bəndlərində qeyd olunan dövlət orqanları (qurumları) fəaliyyət istiqamətlərinə uyğun olaraq bu Qərardan irəli gələn digər məsələləri həll etsinlər.

**5.** "Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidmətinin nəzarət orqanlarının və müəyyən edilmiş digər orqanların (qurumların) informasiya resurslarından istifadəyə buraxılış dərəcəsinin (alınan məlumatların dairəsinin) müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 19 sentyabr tarixli 359 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 9, maddə 1093 (Cild I) ləğv edilsin.

**6.** Bu Qərarda dəyişikliklər Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"-nin 3.5-ci bəndinə uyğun edilə bilər.

**Əli ƏSƏDOV,**
**Azərbaycan Respublikasının**
**Baş naziri**

# Liderlik missiyası

II MƏQALƏ

**Tarixin birinci vəzifəsi yalandan imtina etmək, ikincisi, həqiqəti gizlətməmək, üçüncüsü, düşmənçilik niyyətində olduğun haqda şübhələr oyatmamaqdır.**

**SİSERON**



## Tarixi liderlik missiyasının Azərbaycan təcrübəsi

Azərbaycanda tarixi liderlik missiyasının özəl cəhətləri mövcuddur. Ümumiyyətlə, liderlik miqyası və liderin missiyasının Azərbaycan təcrübəsi kontekstində ilk elmi-nəzəri araşdırmanı akademik İsa Həbibbəyli aparmışdır. Biz burada tarixi liderlik missiyasının fəlsəfi anlamında həmin araşdırmadan bəhrələnirik. Konkret olaraq, Prezident İlham Əliyevin tarixi liderlik missiyası araşdırıldığından ümumnəzəri vurğulardan sonra politoloji məqamların təhlilinə keçmək gərəkdir. Akademik İsa Həbibbəylinin "liderin missiyası" anlayışını məzmunca bu istiqamətdə transformasiya etmək mümkündür.

Bu mərhələdə bütövlükdə tarixi liderlik missiyasının müasir dövrdə Azərbaycan təcrübəsi üçün xarakterik olan bir neçə əsas məqamına baxmaq zəruridir. Hər şeydən öncə, Azərbaycan Prezidentinin tarixi liderlik missiyasının təməlində "Heydər Əliyev–İlham Əliyev xətti" adlandırılan siyasi liderlik, siyasi idarəetmə və siyasi baxışlar üzrə müasir Azərbaycan təcrübəsini əhatə edən konsept dayanır. "Heydər Əliyev–İlham Əliyev xətti" tam fəlsəfi-nəzəri mənada bütöv konseptdir və bütün aspektləri üzrə araşdırılması aktualdır. Burada biz onun ancaq İlham Əliyevin tarixi liderlik missiyasına mənəvi, siyasi və ideoloji qida verən özəlliklərinə nəzər salmağa çalışacağıq.

## Heydər Əliyev – İlham Əliyev xətti

"Heydər Əliyev–İlham Əliyev xətti" ifadəsi konkret məzmuna malik olan siyasi konseptdir. Burada Azərbaycanın müstəqil dövlətinin uğurlu qurulması prosesində siyasi idarəetmənin, liderliyin və siyasi baxışların dəqiq məntiq əsasında sistemi mövcuddur. Onların sırasında liderlik missiyası xüsusi yer tutur.

Öncə onu vurğulayaq ki, I məqalədə nümunə kimi gətirdiyimiz və XX əsrdə dünyanın 6 strategiyası kimi təqdim edilən liderlik missiyalarından fərqli olaraq Azərbaycan təcrübəsində liderliyin fəlsəfəsinin, siyasi-nəzəri anlamının konseptual tezislərə yanaşı, praktiki reallaşmasının fərqli cəhətləri mövcuddur. Yəni bütün dünya təcrübəsində olduğu kimi, Azərbaycanda da müasir mərhələdə liderlik təcrübəsi tamamilə fəlsəfi və siyasi-nəzəri tələblərə uyğundur. Bu kontekstdə akademik İsa Həbibbəylinin ümummilli liderliyin miqyası və missiyasına həsr olunmuş araşdırmaları nəzəri təhlillər üçün çox faydalı istiqamətverici rol oynayır. Bundan başqa, AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun direktoru, professor İlham Məmmədzadənin Azərbaycanda liderliyin strategiyası ilə bağlı maraqlı fəlsəfi məqaləsi də faydalıdır. Eyni zamanda, onu nəzərə alaq ki, dövlətçiliyin və liderliyin Azərbaycanda tarixi təcrübəsi və müasir mərhələdə ölkənin düşdüyü xüsusi geosiyasi situasiyadan asılı olaraq liderlik missiyası indiki mərhələdə özəl məzmun almışdır.

## Heydər Əliyev tarixi liderlik missiyasının iki fərqli keyfiyyəti

Bu məzmunu Heydər Əliyev müəyyən etmişdir. Onun mərkəzində, bizim anladığımız qədəri ilə müstəqil, demokratik və hüquqi dövlətin qurulmasına nail olmaq dayanır. Yəni Heydər Əliyev Azərbaycanda əsl liderlik missiyasını müstəqil, demokratik və hüquqi dövlətin uğurlu qurulmasında gördü. Ulu öndər Azərbaycan dövlətçilik və liderlik ənənəsinə, sovet dönəmindəki zəngin təcrübəsinə, dövrün geosiyasi özəlliklərinə, regionun tarixi xüsusiyyətlərinə və siyasət elminin prinsiplərinə əsaslanaraq, 1993-2003-cü illər ərzində ekskliziv həyata keçirdi.

Bununla Ulu öndər tarixi liderlik missiyası kontekstində müasir Qərb liderlik strategiyalarında nümunəsi olmayan iki mühüm trendin əsasını qoydu. Onlardan biri bir mərhələdəki tarixi liderlik missiyasını yeni tarixi mərhələyə uğurlu transformasiya etmək xəttidir. Obrazlı desək, liderlik missiyasının dəyişən tarixi mərhələlərdə uğurlu olmasını təmin edən ümumi prinsiplərin və fəaliyyət nümunələrinin hazırlanması ayrıca bir tarixi xidmətdir.

Digər trend yeni mərhələdə tarixi liderlik missiyasını həyata keçirə biləcək siyasətçinin dəqiq müəyyən edilməsi və hazırlanması ilə bağlıdır.

Bu iki trendin qarşılıqlı əlaqəsi çox maraqlı siyasi-nəzəri və praktiki mənzərə formalaşdırır – liderlik missiyasında tarixiliyi təmin etmənin yeni nümunəsi yaranmışdır. Bu tezisin sübutu üzərində geniş dayanmaq lazımdır.

## Tarixi liderlik missiyasının dinamizmi

Heydər Əliyev müasir Azərbaycanda liderlik missiyasını tarixi kimi qiymətləndirməyə imkan verən fəaliyyət göstərdi və konkret nəticələr aldı. Buraya Azərbaycanda sabitlik və sosial birliyin təmini (azərbaycançılıq ideologiyası və multikulturalizm siyasəti), iqtisadi infrastrukturun tamamilə yeni keyfiyyətdə qurulması (iqtisadi sistemdə fundamental islahatlar), siyasi idarəetmə və sosial institutların fəaliyyətinin müstəqil dövlətçiliyə xidmət istiqamətində yenişəşməsi (müxtəlif siyasi, idarəetmə islahatları, yeni Konstitusiya), qlobal geosiyasi təsiri olacaq yeni enerji strategiyasının hazırlanması ("Əsrin müqaviləsi", enerji nəqli marşrutları, nəqliyyat-loqistika marşrutları), regionda sabitliyi təmin edən balanslı siyasət (regionda böyük güclərin maraqlarını Azərbaycanın milli maraqlarına uyğun tarazlaşdırmaq siyasəti), ölkənin ərazi bütövlüyünü təmin etmək strategiyası (ordu quruculuğu, müdafiə qüdrətinin inkişafı, etibarlı müttəfiqlər qazanmaq, beynəlxalq miqyasda Azərbaycanın haqlı olduğu haqqında qəti mövqe formalaşdırmaq) kimi proseslər daxildir.

Heydər Əliyev bütün bu məqsədlərə nail olaraq tarixi liderlik missiyasının Azərbaycan nümunəsini yaratdı. Onların fonunda Ulu öndər özündən sonrakı mərhələdə tarixi liderlik missiyasını yerinə yetirə biləcək lider hazırlamışdır. İndiki mərhələdə tarixi liderlik missiyasının dinamizminin Azərbaycan təcrübəsinin mərkəzində bu tezis dayanır. Deməli, tarixi liderlik missiyasının dinamizmi dedikdə 2003-cü ildən başlayaraq İlham Əliyevin ekskliziv reallaşdırdığı liderlik nümunəsinin Ulu öndərdən sonrakı mərhələdə məzmunu, məqsədi, miqyası, mexanizmləri və aldığı nəticələrlə tarixi mahiyyət kəsb etməsi ilə izah olunur.

## Azərbaycan və 6 dünya strategiyasının dərsləri

Bu dinamizm bütöv bir proses və ənənədir, çünki tam olaraq siyasi varislik prinsipi əsasında məzmunlaşmışdır. Bu, tarixi liderlik missiyasının Azərbaycan təcrübəsinin nümunə kimi göstərdiyimiz 6 strategiyasından fərqli xüsusiyyətini ifadə edir. Məhz, sözün həqiqi siyasi mənasında, həmin nümunələrdə siyasi varislik ödənmədiyindən tarixi liderlik missiyası davamlı ola bilmədi.

Məsələn, R.Niksonun "tarazlıq" strategiyasını ondan sonra gələn prezidentlər pozdular və "amerikan müstəsnalığı", "ABŞ-ın dünya liderliyi" kimi absurd strategiyalar ortaya çıxardılar. Bununla dünyanın ən qüdrətli dövləti siyasi varislik "relsindən" çıxdı və indiki halı göz qabağındadır.

Marqaret Tetçerdən sonra Böyük Britaniyada "inandırma" strategiyası kölgəyə düşdü. "Brexit" onun əlamətlərindən biridir. Bununla ingilislər faktiki olaraq yeni strateji mövqeyə keçdilər.

Şarl de Qollun "iradə" strategiyasını davam etdirən lider tapılmadı, hətta, bir müddət onun nüfuzu aşağı düşdü, seçkidə uduzdu.

Almaniyada K.Adenauerin tarixi liderlik missiyasını yarımçıq qoydular – dini təəssübkeşliyin və müxtəlif gizli siyasi klubların (məsələn, Bildenberq klubu) təsiri altına düşən liderlər meydana gəldi.

Misirdə Prezident Sədatdan sonra strategiya tamam dəyişdi. Sinqapurda Li Kuan Yu ənənəsini onun səviyyəsində reallaşdıran ikinci lider meydana gəlmədi.

## Azərbaycanın tarixi özəlliyi

Burada bir incə məqamı mütləq vurğulamaq lazımdır. Məsələ həm də hər bir ölkənin özəl tarixi və siyasi təcrübəsi kontekstində dərk edilməlidir. Müasir mərhələdə tarixi liderliyn Azərbayan təcrübəsində siyasi varisliyin ödənməsi mütləq şərtdir.

Cənubi Qafqaz kimi mürəkkəb, ziddiyyətli, Azərbaycana qarşı əsrlərlə böhtan siyasətinin aparıldığı, cəmiyyətin müxtəlif kəsimləri arasında süni ziddiyyətlərin yaradıldığı bir dönəmdə toplumun müstəqil dövlətçiliyə tam köklənməsi üçün uzun müddət davamlı, dayanıqlı bir siyasi kurs həyata keçirmək zəruridir.

Bu baxımdan, elə bir siyasət yeridilməli idi ki, vətəndaşlara və bütövlükdə cəmiyyətə "özünü real tanımağa" imkan yaratsın. Həmin siyasət əsrlərdir ki, həm Cənubdan, həm də Şimaldan qaynaqlanan maraqlar kölgəsində Azərbaycan cəmiyyətinin müxtəlif kəsimləri arasında fərqli süni faktorlara görə - məzhəb, mədəni, sosial-psixoloji və s. sferalarda yaranmış ziddiyyətlərin toplumu parçalayıcı "yaralardan" xilas etsin. Təcrübə göstərir ki, bu, kifayət qədər mürəkkəb prosesdir və onu bacaran Azərbaycan lideri, sözün həqiqi mənasında, tarixi missiya daşımış olacaq! Bunun üçün, ilk növbədə, ölkənin ərazi və suverenliyi real olaraq tam təmin edilməli idi. Deməli, yuxarıda vurğuladığımız və müstəqil dövlətçiliyimizlə bağlı olan həmin zərərləri adlamanın ilk mərhələsini uğurla başa vurmuşuq! Bu uğurun memarı Heydər Əliyev–İlham Əliyev dövlət quruculuğu xəttidir! İndi meydan Heydər Əliyev liderlik nümunəsindən bəhrələnən yeni liderlik nümunəsinindir!

Ərazi bütövlüyü və suverenliyinin tam bərpası problemini toplumun gündəmindən həll edilməli aktual bir məsələ kimi 44 gün və 23 saat 41 dəqiqəyə həll edərək çıxarmağı bacarmaq tarixi liderlik missiyasının birbaşa əlamətidir.

## İnkişaf paradiqması

İndi Azərbaycan cəmiyyəti əsas olaraq daha səmərəli inkişaf xətti haqqında düşünür. Bu tarixi liderlik missiyasının başqa əlamətidir.

Ətrafımıza baxaq – hansı keçmiş sovet respublikası Azərbaycan qədər inkişaf paradiqmasına uyğun fəaliyyət göstərir? Hansında Azərbaycandakı səviyyədə daxili və xarici sabitlik mühiti mövcuddur? Onların hansında Azərbaycanda olduğu miqyasda, səviyyədə və dərinlikdə daxili problemlərin həllinə istiqamətlənmiş cəmiyyətdaxili müzakirələr aparılır? Heç birində! Bu, tarixi liderlik missiyasının əsas əlamətlərindən biridir.

## Sosial şəbəkələrin müzakirə mövzuları

Cəmi 5 il əvvəl Azərbaycan sosial şəbəkələrində, müxtəlif ictimai kəsimlərdə müzakirə mövzuları hansılar idi? Ən böyük dərd kimi Qarabağ məsələsi müzakirə olunurdu. Vətəndaş bu problemin həllini milli ləyaqət nümunəsi hesab edirdi. Bir sıra hallarda bunun fonunda hətta düşməni tərifləyənlər olurdu. Müxtəlif iaşə obyektlərində, toplantılarda çəkinmədən erməniləri tərifləyənlərə və bizi aşağılayanlara rast gəlinirdi. Hətta laqeydlər (yumşaq ifadə edirik) "torpaqlar heç vaxt qaytarılmayacaq" deyə bizə mənəvi-psixoloji od vururdular! Onların cavablarını yerindəcə və qətiyyətlə verirdik.

İndi bunları yavaş-yavaş unuduruq! Bəli, unuduruq və düz edirik! Çünki bu ölkənin lideri sübut etdi ki, Azərbaycan müstəqil var ola bilir, Azərbaycan xalqı qüdrətlidir. Azərbaycan rəhbərliyi doğru müttəfiq seçməkdə ağıllıdır. Azərbaycan Ordusu regionun ən güclüsüdür. Əsas isə azərbaycanlılar istənilən kəskin böhranlı situasiyalarda milli ləyaqətlərini, şərəflərini təmin edə bilirlər! İndi azərbaycanlılar dünyanın istənilən ölkəsinə başı dik, qürurla gedə bilirlər. Azərbaycanlılar böyük zəfərlərə layiqdirlər! Bunlara nail olmaq tarixi liderlik missiyasının təsdiqi deyilmi?

## Müttəfiqlik sədaqəti

İlham Əliyevin tarixi liderlik missiyasının bir mühüm cəhəti də sadiq müttəfiqə olması ilə bağlıdır. Azərbaycanın tarixi ədaləti bərpa prosesində daim yanında olan Türkiyə və Pakistana insani səmimiyyəti ilə yanaşı, tarixi lider məsuliyyəti və ciddiyəti ilə qiymət verməsi bizə əbədi qürur verir!

Prezident İlham Əliyev Siseronun dediyi mənada həqiqəti zərrə qədər də gizlətmir və bu anlamda da tarix yaradır, ənənə yaradır. Tarixi liderlik missiyası üçün bu məqam olduqca əhəmiyyətlidir.

## Cəmiyyətin özünü təmizləməsi

Psixologiyamız haradan haraya dəyişdi. İndi daxili məsələləri sosial şəbəkələrdə fəal müzakirə edirik. Burada bizi qane etməyən çox sayda neqativlər vardır. Lakin yeni tarixi mərhələdə, bu, sosial reallıqlardan biridir. Əslində, bu proses də cəmiyyətin özünü təmizləməsi əlamətlərindən biridir. İnsanlar bir qədər əvvəl gizli olan neqativlərə açıq reaksiya verirlər.

Məsələn, cəsarətlə mədəniyyət, dil, din, ailə, mənəviyyat, əxlaq məsələləri müzakirə olunur. Azərbaycanda mədəni, elmi, mənəvi, əxlaqi inkişafın praktiki aspektdə müzakirəsi aparılır. Çox sayda absurd fikirlər irəli sürülsə də, təmkinli, əsaslı, dəyərli və hüquqa dayanan mövqeləri də görürük. Axı, əsrlərlə yadlar bu cəmiyyətdə neçə-neçə "irinli yaralar" açıblar. Onları sağaltmaq çətin və uzun sürən prosesdir. İndi bizi əsəbiləşdirən bir sıra olaylar həmin "yaraların" açılması əlamətidir. Cəmiyyət özünütəmizləmə prosesinə başlayıb və qətiyyətlə davam etməlidir. Deməli, cəmiyyət diridir, bəzi düşmənlərin təqdim etməyə çalışdığı kimi laqeyd deyil. Azərbaycanda siyasəti absenteizm (seçkiyə, ictimai-siyasi həyata laqeydlik əhval-ruhiyyəsi) gözləyənlər həmişə məğlub olacaqlar.

Bu cür cəsarətli, açıq və dinamik sosial-psixoloji mühit qələbədən sonra yarandı. Prezident İlham Əliyev topluma müraciət edərək milli ideyanın müzakirəsində fəal olmağa səsləməklə tarixi addım atdı. Cəmiyyət bütün istiqamətlərdə yeni tarixi mərhələdə uğurlu olmaq üçün psixoloji axtarışlara başladı. Bu, tarixi liderlik missiyasının siyasi varislik üzərində bərqərar olan əsas əlamətlərindən biridir.

Qərbdə tarixi liderlik missiyasının dinamik və davamlı olması üçün məhz bu faktor çatışmadı. Orada cəmiyyət qarşısına çıxan problemləri yeni mərhələdə uğurlu olmaq naminə deyil, şəxsi komfortu və maraqları prizmasında qiymətləndirdi. Bu da bir tərəfdən siyasi kursa inamı azaldır, digər tərəfdən toplumu ümumi strateji uğur hədəfindən yayındırır.

Beləliklə, Prezident İlham Əliyevin liderlik missiyasını tarixi statusa yüksəldən başlıca əlamət siyasi varislik prinsipinə tam əməl etməsi ilə bağlıdır! Bu əsasda Azərbaycan Prezidentinin tarixi liderlik missiyasının digər politoloji əlamətlərinə nəzər sala bilərik.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

---

***Replika***

# Tələyə qoyulmuş "havayı pendir"

**Aldanmağa meyilli adamın üzərində aparılan "eksperimentlər" sonda vərdiş halına çevrilir və o, bunsuz darıxır, yaşaya bilmir. Adətən, başlanğıcda şirnikləndirici vədlərlə müşayiət olunan belə çoxgedişli "tələlər"dən qurtulmaq sonra müşkülə çevrilir.**

Avropa İttifaqının Hayastan üçün hazırladığı belə "tələlərdən" sonuncusu ermənilər üçün Avropaya vizasız gediş-gəliş rejimi olub. Aİ bu məsələyə yaxın gələcəkdə baxacağını vəd edib. Aydın məsələdir ki, Brüssel bu cür "qiymətli hədiyyələr" məsələsini boş yerə gündəmə gətirmir.

Bəs, Qərb Ermənistana vəd verdiyi sədəqəyə görə onu nədən imtina etməyə məcbur, yaxud hansı addımı atmağa təhrik edəcək? Paşinyan komandasını Aİ-nin icrası məcburi olacaq hansı "tövsiyə və göstərişləri" gözləyir?

Sirr deyil ki, SSRİ-nin süqutundan sonra Aİ bu coğrafiyada təsir imkanlarını gücləndirmək üçün çeşidli maraqlı texnologiyalardan yararlanır. Son 20-25 ilin müşahidələrinə istinadla deyə bilərik ki, bu texnologiyalar dəyişmir. Söhbət hansı texnologiyadan gedir?

Aİ təlqin üsulundan faydalanaraq əvvəlcə bu və ya digər ölkəyə yaxından və gəlirli əməkdaşlıq, şəffaf sərhədlər, qısa müddətdə ittifaqın tamhüquqlu üzvü olmaq şansların xatırladır. Hətta, ilk baxışda, bəzi vədlərini yerinə yetirir. Fəqət, sonra elə bir dövr başlayır ki, vəd olunan proseslərin dinamikası getdikcə zəifləyir və onların əvəzinə Brüsseldən maraqlı şərtlərdən ibarət qalın paket gəlir. Başlıca şərt isə belədir: bunlar olmadan Avropaya inteqrasiya prosesi mümkün deyil. Məhz bu məqamda "tələ" tam atmosfer gücü ilə işə düşür. Yəni, Qərblə bir çox razılaşmaları olan ölkə artıq onları reallaşdırmaq üçün müəyyən irəliləyişə nail olduğundan "ovçu"nun şərtlərini qəbul etməkdən başqa çıxış yolu qalmır. Əks-təqdirdə… Gürcüstanın timsalında bunun reallıqda necə baş verdiyini gördük. Qərbin davamlı təzyiqi buna qədər loyal davranan hətta ölkə hökumətini də təbdən çıxarır, hiddətlənməyə vadar edir. Beləliklə, indi qonşumuz "Gürcü arzusu"nun onun gözündə qaldığını etiraf etmək məcburiyyətindədir.

Növbə Ermənistanındır. Burada anti-Rusiya əhval-ruhiyyəsinin kəskin şəkildə artması göz qabağındadır. İrəvan bəh-bəhlə Qərbin vəd etdiyi və dəstəklədiyi yeni hərbi-texniki əməkdaşlıq kampaniyasına başlayıb. Bəs, bunun ardınca nə baş verəcək? Ermənistan Azərbaycana hücum



edəcək? Hər halda Paşinyan iqtidarı ağlını o dərəcədə itirməyib ki, özünüqəsdə imzasını atsın. Ya da ən skeptik politoloqların, analitiklərin irəli sürdükləri ehtimalın reallaşma məqamı gələ bilər. Yəni, Ermənistan dövlətçiliyinin tamamilə itirmək təhlükəsi ilə üzləşər. Son vaxtlar kollektiv Qərblə intensiv əməkdaşlığa can atan hay baş nazirin hadisələrin bu yöndə inkişafını nəzərdən qaçırmaması çox önəmlidir. Elə rusiyalı siyasi texnoloqlar da Ermənistanın "Avropaya yolunun" erməni xalqı üçün böyük faciənin başlanğıcına çevriləcəyi qənaətini bölüşürlər.

O zaman Cənubi Qafqazda havanın hərarəti daha yuxarı qalxa bilər. Aydındır ki, "Qərbə vizasız səyahət" rejiminin qəbulu Ermənistanın gələcəyi üçün dönüş nöqtəsidir. Bu, eyni zamanda, Ermənistanın, nəhayət, Qərbin çətiri altına keçməsinə dair Moskvaya qəti və konkret işarə sayılacaq. Bu halda Kreml təcili "əcəl təbili"ni çalacaq və İrəvana xatırladacaq ki, onun Avrasiya İqtisadi İttifaqı ilə güzəştli münasibətlərinə yenidən baxılacaq.

Yəqin Qərbin İrəvan üçün tələyə qoyduğu "havayı pendir"in anatomiyasından agah olan oxucular Aİ-nin Cənubi Qafqazla bağlı siyasətinin riyakarlıq üzərində qurulduğunu başa düşərlər.

***İ.HƏSƏNQALA***
***XQ***

# Sənaye zonaları qeyri-neft sektorunu modernləşdirir

## İndiyədək bu sahəyə 6,8 milyard manat investisiya yatırılıb



**Azərbaycanda I yarımildə 32 milyard manatlıq sənaye məhsulu istehsal edilib. Hesabat dövründə ölkədəki sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 31,5 milyard manatlıq məhsul buraxılıb. Dövlət Statistika Komitəsinin məlumatına görə, son 1 ildə neft-qaz sektorunda məhsul istehsalı 0,3 faiz, qeyri neft-qaz sektorunda isə 7,4 faiz yüksəlib.**

Bu dövrdə respublikada fəaliyyət göstərən sənaye zonalarının fəaliyyəti səmərəliliyi ilə daha çox fərqlənib. Belə ki, cari il iyulun 1-nə qədər Azərbaycanda sənaye zonalarından 13,5 milyard manatlıq məhsul satılıb, bunun da 4,4 milyard manatlıq hissəsi ixrac edilib.

İqtisadiyyat Nazirliyi yanında İqtisadi Zonaların İnkişafı Agentliyinin məlumatına görə, satışın 1,4 milyard manatlıq, ixracın isə 0,45 milyard manatlıq hissəsi bu ilin I yarısının payına düşüb. Sənaye zonalarında istehsal olunan məhsullar 70-dən çox ölkəyə göndərilib.

Məlumata əsasən, indiyədək sənaye zonalarında ümumi investisiya dəyəri 8 milyard manat olan 151 sahibkarlıq subyektinə rezident statusu verilib. Eyni zamanda sənaye zonalarına 6,8 milyard manat investisiya yatırılıb və 10500-dən çox daimi iş yeri yaradılıb. Mövcud layihələr üzrə növbəti mərhələdə sənaye zonalarına əlavə 1 milyard manat investisiya qoyulması və 7100-dən çox yeni iş yerinin yaradılması nəzərdə tutulurb.

Hesabat dövründə sənaye zonaları sırasında Cənubi Qafqazın ən böyük sənaye parkı olan Sumqayıt Kimya Sənaye Parkının fəaliyyəti daha çox məhsuldar olub. Qeyd edək ki, bu sənaye parkına indiyədək 5,5 milyard manatdan çox sərmayə yatırılıb. Parkda ümumi investisiya həcmi 6,2 milyard manat olan 40 sahibkarlıq subyektinə rezidentlik statusu verilib.

İqtisadiyyat Nazirliyinin İqtisadi Zonaların İnkişafı Agentliyinin (İZİA) şöbə müdiri Kamran Rəhimli mediaya açıqlamasında bildirib ki, bu günə kimi sənaye müəssisəsində 6800-dək daimi iş yeri yaradılıb. Yeni fəaliyyətə başlayacaq iki müəssisədə, ümumilikdə, 40 milyon manata yaxın investisiya qoyulmaqla 300-dən artıq əlavə iş yerinin yaradılacağı planlaşdırılıb.

Şöbə müdiri əlavə edib ki, mövcud layihələr üzrə sənaye parkına əlavə olaraq 554 milyon manat investisiyanın yatırılması, 2200-dən çox iş yerinin yaradılması nəzərdə tutulub. İndiyədək parkın rezidentləri tərəfindən ümumilikdə 11,6 milyard manatdan çox məhsul satışı həyata keçirilib ki, bunun da 4,1 milyard manatdan çox hissəsi (təxminən 35,3 faizi) ixrac vasitəsilə reallaşıb.

K.Rəhimli vurğulayıb ki, cari ilin birinci yarısında Sumqayıt Kimya Sənaye Parkında 1,3 milyard manatlıq məhsul istehsal edilib və bunun da 455 milyon manatlıq hissəsi ixrac olunub.

Bu il sənaye parkında ümumi investisiya dəyəri 39,2 milyon manat olan iki müəssisənin fəaliyyətə başlaması planlaşdırılır. Burada "Kartaş Kimya" MMC-nin tikinti kimyəvilərin, "Az-Tex-Import" MMC-nin "IVECO" markalı yüngül, orta və ağır tonnajlı yük avtomobillərinin istehsalı müəssisələrinin fəaliyyətə başlaması nəzərdə tutulub.

Azərbaycanın qeyri-neft sənayesinin inkişafında Qarabağdakı sənaye parklarının da fəaliyyəti diqqət çəkir. "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının əsas fəaliyyət istiqaməti kimi parkda logistika və ticarət mərkəzi, anbar kompleksləri, topdan və pərakəndə satış obyektləri, TIR parkı, gömrük, yanacaqdoldurma, avtomobil və digər texnikaların təmiri məntəqələrinin yaradılması planlaşdırılıb. Ağdam Sənaye Parkında isə prioritet fəaliyyət istiqamətləri sırasında tikinti materiallarının istehsalı, kənd təsərrüfatı məhsullarının qablaşdırılması, meyvə-tərəvəz konservləri, ət və süd məhsulları, yem, gübrə istehsalı və emalı, eyni zamanda, xidmət sahələrinin, soyuducu kameraların və s. təşkili müəyyənləşdirilib.

### Ekspert rəyi



**Samir HEYDƏROV, iqtisadçı-ekspert**

Ölkəmizdə sənaye zonalarının inkişafı daim diqqətdə saxlanılır. Sənaye parkları və məhəllələri, eləcə də aqroparkların idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı Azərbaycan Prezidentinin 2021-ci il 22 yanvar tarixli fərmanına əsasən, İqtisadi Zonaların İnkişafı Agentliyinin yaradılması bunun bariz ifadəsidir. Bundan əsas məqsəd sənaye parklarının (Balaxanı Sənaye Parkı istisna olmaqla), sənaye məhəllələrinin (Naxçıvan Muxtar Respublikasında yaradılan sənaye məhəllələri istisna olmaqla) və aqroparkların fəaliyyətinin təşkili, onların idarə olunması və inkişafı ilə bağlı tədbirlər hazırlamaq, həyata keçirilməsini təmin etmək, o cümlədən bu istiqamətdə göstərilən dövlət dəstəyi tədbirlərini həyata keçirtmək olub.

Sənaye parklarının qarşısına innovativ və yüksək texnologiyalar əsasında rəqabətqabiliyyətli sənaye istehsalının inkişaf etdirilməsi, xidmətlərin göstərilməsi üçün münbit şəraitin yaradılması və bu sahədə sahibkarlığın dəstəklənməsi mühüm vəzifə kimi qoyulub. Bütün bunlarla yanaşı, iqtisadiyyatın, o cümlədən qeyri-neft sektorunun davamlı inkişafının gerçəkləşdirilməsi, ölkənin yerli və xarici investisiyalar üçün əlverişliliyinin yüksəldilməsi, əmək qabiliyyətli əhalinin istehsal sahəsində məşğulluğunun artırılması kimi məsələlərə xüsusi önəm verilib.

Qanunvericiliyə uyğun olaraq, sənaye parklarında indiyədək bir sıra stimullaşdırıcı tədbirlər tətbiq olunub. Məsələn, Vergi Məcəlləsinə və "Gömrük tarifi haqqında" Qanuna uyğun olaraq, sənaye parklarının rezidentləri qeydiyyata alındıqları tarixdən 10 il müddətinə əmlak, torpaq, gəlir və ya mənfəət vergilərindən, istehsal məqsədilə idxal etdikləri texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı ƏDV-dən və 10 il müddətinə gömrük rüsumlarından azad olunurlar.

# Orta Dəhlizlə 2,1 milyon ton yük daşınıb




**Cari ilin yanvar–iyun aylarında Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta Dəhliz) ilə yükdaşımaların həcmi ötən ilin eyni dövrü ilə müqayisədə 65 faiz artaraq 2,1 milyon ton olub. Qeyd edək ki, 2023-cü ildə Orta dəhliz ilə yükdaşımaların həcmi 2022-ci illə müqayisədə yenə də 65 faiz artaraq 2,7 milyon ton təşkil edib.**

Qeyd edək ki, Dünya Bankının (DB) hesabatında 2030-cu ilə qədər Orta Dəhliz boyunca daşımaların həcminin 2021-ci illə müqayisədə 3 dəfə artacağı və yüklərin daşıma müddətinin 2 dəfə azalacağı proqnozlaşdırılır. Eyni zamanda investisiya və əməliyyat təkmilləşdirmələrinin düzgün kombinasiyası vasitəsilə bu dəhlizin transkontinental ticarətin iqtisadi və siyasi davamlılığına əhəmiyyətli töhfə verəbiləcəyi bildirilir. Bundan başqa, adıçəkilən layihə dəniz limanlarına çıxış vasitəsilə Çinə, Avropaya və dünyanın digər regionlarına etibarlı marşrutu gerçəkləşdirməklə Mərkəzi Asiya və Cənubi Qafqazın potensialının inkişafını şərtləndirir.

Xatırladaq ki, Orta Dəhliz 2014-cü ilin fevral ayında Azərbaycan, Qazaxıstan və Gürcüstanın müvafiq strukturlarının iştirakı ilə yaradılıb. Sonradan layihəyə Ukrayna, Rumıniya və Polşa qoşulub.

Hazırda marşrut Çin–Qazaxıstan sərhədindən başlayır və Qazaxıstan, Xəzər dənizi, Azərbaycan və Gürcüstan ərazisindən keçərək Avropaya qədər uzanır. Bütün marşrut boyunca vahid tarif yaradılıb, "vahid pəncərə" prinsipi tətbiq olunur.

Çini Avropa İttifaqı ilə Mərkəzi Asiya, Qafqaz və Türkiyə vasitəsilə birləşdirən Orta Dəhliz ölkəmizin iqtisadi maraqlarını əks etdirən irihəcmli beynəlxalq layihədir. Bu layihə ilə əlaqədar fəaliyyətin gücləndirilməsi Qərblə Şərq arasında körpü rolunu oynayan Azərbaycan üçün mühüm önəm daşıyır.

Çinin "Bir kəmər, bir yol" layihəsinin bir hissəsi kimi Orta Dəhliz, həmçinin tarixi İpək yolunun ən mühüm komponentlərindən biri kimi dəyərləndirilir. Buna görə də bu dəhliz üzrə tranzit müddətinin 2024-cü ildə 18-23 gündən 14-18 günə, o cümlədən Qazaxıstan ərazisində 6 gündən 5 günə endirilməsi planlaşdırılır.

# Özəl sektorun aktivliyi bundan sonra da diqqətdə saxlanacaq

**Azərbaycanın biznes təmsilçiləri ilə birgə fəaliyyəti gücləndirərək özəl sektorda aktivliyi artırmaq niyyətindəyik.**



Bunu iqtisadiyyat naziri Mikayıl Cabbarov "X" sosial şəbəkəsindəki hesabında bildirib. "Qeyri-neft sənayesi sahəsində fəaliyyət göstərən sahibkarlarımızla görüşməkdən məmnun olduq. Yerli istehsalın artımı və ixrac bazarlarının genişləndirilməsi imkanlarını müzakirə edərək sualları cavablandırdıq və iş adamlarının təkliflərini dinlədik", – deyə nazir bildirib.

# Yevlax Pilot Aqroparkına 29 milyon manat investisiya qoyulub



**Ümumi ərazisi 2807 hektar olan Yevlax Pilot Aqroparkı ölkə ərazisində kiçik və orta fermerlərin cəlb olunması ilə yaradılan ilk aqroparkdır. Burada intensiv meyvə bağlarının salınması, heyvandarlıq və quşçuluq təsərrüfatlarının, həmçinin emal sahələrinin yaradılması nəzərdə tutulub. Aqroparkda dövlət tərəfindən 815 hektar ərazinin su və elektrik təchizatı tam təmin olunub, təsərrüfatdaxili yollar çəkilib, 370 hektar sahədə infrastrukturun qurulması üzrə işlər davam etdirilir.**

Aqropark üzrə 1939 hektar sahədə 33 sahibkarlıq subyekti rezident kimi qeydiyyata alınıb. Rezidentlər tərəfindən, ümumilikdə, 52 milyon manatadək özəl investisiyanın yatırılması ilə 305 nəfər üçün daimi iş yerinin yaradılması nəzərdə tutulub. İndiyədək rezidentlər tərəfindən 29 milyon manat investisiya qoyulmaqla 92 daimi, 190 mövsümi iş yeri açılıb. 19 rezident tərəfindən 991 hektar ərazidə əkin işləri görülüb, 409 hektar sahədə meyvə bağları salınıb.

Yevlax Pilot Aqroparkına baxış çərçivəsində Harvard Universitetinin ekspertləri ilə ölkəmizdə yaradılmış sənaye parklarının potensialı, alternativ enerji ilə bağlı layihələr və ekoparkların yaradılması imkanları müzakirə olunub.

# ABŞ-yə məhsul ixracı 32 dəfəyə yaxın çoxalıb

**Bu ilin yanvar-iyun aylarında Azərbaycanın Amerika Birləşmiş Ştatları (ABŞ) ilə ticarət dövriyyəsinin ümumi həcmi 184,1 milyon ABŞ dolları və ya 73 faiz artaraq 436,5 milyon ABŞ dollarını üstələyib.**



Dövlət Gömrük Komitəsinin hesabatına görə, cari ilin ilk 6 ayında Azərbaycandan ABŞ-yə 164,4 milyon dollar dəyərində məhsul ixrac edilib ki, bu da ötən ilin göstəricisindən 159,3 milyon dollar və ya 31,8 dəfə çoxdur.

ABŞ-dən Azərbaycana idxal edilən məhsulların dəyəri isə 24,8 milyon ABŞ dolları və ya 10,1 faiz artaraq 272 milyon ABŞ dolları təşkil edib.

Hesabat dövründə ölkənin ümumi ticarət dövriyyəsində ABŞ ilə ticarətin payı 2 faiz təşkil edib ki, bu da bir il öncəki göstəricidən 1,04 faiz çoxdur.



# "Mərkəzi Azəri"dən 1,11 milyard barel neft hasil olunub

**"Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlar blokunun tammiqyaslı işlənməsinin "Faza-2" layihəsi çərçivəsində 2005-ci ildə istismara verilmiş "Mərkəzi Azəri" platformasından hasilat uğurla davam etdirilir.**

2024-cü il tarixinədək bu unikal platformadan 1,11 milyard barel neft və 85,95 milyard kubmetr səmt qazı hasil edilib. Ümumilikdə, ötən müddətdə AÇG yatağından hasil olunan neftin 25,22 faizi, səmt qazının isə 38,56 faizi "Mərkəzi Azəri" platformasının payına düşüb.

Bu barədə SOCAR-dan məlumata verilib. "Azəri" yatağının mərkəzi hissəsində quraşdırılmış platforma Bakıdan 100 kilometr şərqdə, Xəzər dənizində suyun dərinliyinin təxminən 128 metr olduğu yerdə yerləşən dəniz hasilat, qazma və yaşayış platformasıdır.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*




# Səudiyyə Ərəbistanı ilə ölkəmizin iqlim tərəfdaşlığı



**Azərbaycan Səudiyyə Ərəbistanı ilə enerji sahəsində fəal əməkdaşlıq edir. Hazırda iki ölkənin işçi qrupları arasında COP29 çərçivəsində təcrübə mübadiləsi həyata keçirilir. Bunu Səudiyyə Ərəbistanı Krallığının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri İssam bin Saleh Əl-Cüteyli bildirib. Onun sözlərinə görə, iki ay öncə Səudiyyə Ərəbistanının energetika naziri, daha əvvəl isə 45 nəfərdən ibarət işçi qrupu Azərbaycana səfər edib.**

Səfir qeyd edib ki, səfər çərçivəsində Azərbaycanın Energetika, Ekologiya və Təbii Sərvətlər nazirliklərində görüşlər keçirilib, müxtəlif sahələrdə təcrübə mübadiləsinin həyata keçirilməsi müzakirə olunub. "İşçi qrupu azərbaycanlı həmkarları ilə ünsiyyəti davam etdirir və Səudiyyə Ərəbistanının COP29-a hansı töhfələr verə biləcəyini müzakirə edir. Səudiyyə Ərəbistanının energetika naziri ilə Azərbaycanın ekologiya və təbii sərvətlər naziri, COP29-un prezidenti Muxtar Babayev arasında da müzakirələr davam edir və işçi qrupları arasında təcrübə mübadiləsi həyata keçirilir", – deyə səfir əlavə edib.

Hazırda Azərbaycandan və Səudiyyə Ərəbistanından olan işçi qrupları arasında görüşlərin onlayn formatda davam etdiyini diqqətə çatdıran səfirin dediyinə görə, zərurət yarandığı halda işçi qrup Azərbaycana yenidən səfər edəcək. İssam bin Saleh Əl-Cüteyli, həmçinin deyib ki, Azərbaycanda COP29 kimi yüksək səviyyəli böyük beynəlxalq tədbirin keçirilməsi onun gücünün, imkanlarının daha bir nümayişi olacaq.

Yeri gəlmişkən, hazırda bu ölkənin Azərbaycana investisiya yatırmaq niyyətində olan şirkətlərlə danışıqlar aparılır. Bu barədə yerli mediaya məlumat verən İssam bin Saleh Əl-Cüteyli bildirib ki, Azərbaycanın istər neft-qaz, istərsə də alternativ enerji sahəsinə investisiya qoymaq imkanlarının araşdırılması ilə bağlı komissiyalar səviyyəsində iş gedir. Səfirin sözlərinə görə, bu yaxınlarda Azərbaycanın energetika və iqtisadiyyat nazirləri ilə Səudiyyə Ərəbistanının energetika naziri arasında keçirilən üçtərəfli videogörüşdə əməkdaşlıq məsələləri müzakirə olunub. Həmin görüşdə Azərbaycanın energetika sektoruna daha çox investisiyaların qoyulması imkanları ilə bağlı fikir mübadiləsi aparılıb.

Bərpaolunan enerji sektorunda əlaqələrin genişləndirilməsi perspektivlərindən söhbət açan İssam bin Saleh Əl-Cüteyli deyib ki, Səudiyyə Ərəbistanının "ACWA Power" şirkəti Azərbaycanın "yaşıl enerji" sahəsində fəaliyyət göstərən məşhur şirkətlərdəndir. Enerjinin saxlanması və onun akkumulyasiyası ilə məşğul olan şirkət iki ay öncə Azərbaycanın Energetika Nazirliyi arasında əməkdaşlığın daha da genişləndirilməsi ilə bağlı sənəd imzalayıb. "Alternativ enerji sahəsində fəaliyyət göstərən qabaqcıl şirkət kimi "ACWA Power"in Azərbaycanda biznesini daha da genişləndirməyə çalışacağıq. "ACWA Power" çox məsuliyyətli və üzərinə götürdüyü bütün öhdəlikləri lazımi qaydada yerinə yetirən bir şirkətdir", – deyə diplomat qeyd edib.

Xatırladaq ki, Səudiyyə Ərəbistanı şirkəti hazırda ölkəmizdə 240 meqavat gücündə olan "Xızı–Abşeron" külək elektrik stansiyasının tikintisini həyata keçirir. Ötən müddətdə layihənin reallaşdırılmasına 300 milyon ABŞ dolları ayrılıb. Bu isə Səudiyyə Ərəbistanı şirkətinin öz ölkəsindən kənarda yatırdığı ən böyük investisiyasıdır. Ölkəmizdə xarici sərmayə cəlb edilməklə həyata keçirilən "Xızı–Abşeron" külək elektrik stansiyasının ərazizisində hər birinin gücü 6,5 meqavat olan 37 ədəd külək turbini quraşdırılacaq. İlkin hesablamalara görə, stansiyada ildə 1 milyard kilovat-saat elektrik enerjisi istehsal olunacaq. Bu isə il ərzində 220 milyon kubmetr təbii qaza qənaət etməyə, 400 min tondan artıq karbon emissiyasının atmosferə atılmasının qarşısını almağa və 300 min evi elektrik enerjisi ilə təmin etməyə imkan verəcək.

# Bakı buxtasının estetik gözəlliyi təmin olunur




**Xəzər dənizinin sahilyanı ərazilərinin, xüsusən də Bakı buxtasının uzun illər çirklənməyə məruz qalması ekoloqları, eləcə də xəzərşünas alimləri ciddi narahat edib. Çirklənmənin başlıca səbəbi neft tullantılarının düzgün idarə olunmaması, müxtəlif dəmir-beton konstruksiyalarının, həmçinin istismar müddətini başa vurmuş köhnə gəmilərin vaxtında ərazidən uzaqlaşdırılmaması ilə bağlıdır. Bununla yanaşı, sahilboyu ərazilərdə yerləşən sənaye, yaşayış və məişət obyektlərinin tullantıları da dənizin çirklənməsinə səbəb olub. Bu baxımdan paytaxtımızın incisi sayılan Bakı buxtası çirklənməyə daha çox məruz qalıb.**

Əvvəlki illərdə dəniz akvatoriyasında batmış və yarımbatmış gəmilərin, istismarı başa çatmış dəniz buruqlarının, yanalma körpülərinin, eləcə də buruqlararası yolların sökülərək sahilə daşınmasına başlanılıb. 1996-cı ildən etibarən isə Bakı buxtasının dibi təftiş edilərək batıb qalmış gəmi və metal konstruksiyaların çıxarılmasına start verilib. Bütün bunlara baxmayaraq, problemin tam həllinə nail olunmayıb.

Artıq bu sahədə böyük canlanma müşahidə olunur. Hazırda Xəzər dənizinin sahilyanı ərazilərinin, o cümlədən Bakı buxtasının təmizlənməsi üçün ayrı-ayrı qurumlar tərəfindən işlənib hazırlanmış konkret layihələr həyata keçirilir. Prezident İlham Əliyevin məlum sərəncamı ilə ölkəmizdə elan olunmuş "Yaşıl dünya naminə həmrəylik ili"ndə işlərin daha da intensivləşməsi müşahidə olunur. Eyni zamanda bu ilin noyabr ayında Bakıda keçiriləcək Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında (COP29) iştirak etmək üçün paytaxtımıza çoxsaylı qonaqların gəlişi gözlənilir. O vaxta kimi isə paytaxtımızın sahilyanı ərazilərinin, xüsusən də Bakı buxtasının estetik gözəlliyinin təmin olunması üçün abadlıq-təmizlik işləri ən yüksək səviyyədə başa çatdırılmalıdır.

Bakı buxtasında həyata keçirilən təmizlik işlərində Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) aidiyyəti qurumları da yaxından iştirak edir. Hazırda neft-qaz şirkətindən beynəlxalq enerji şirkətinə çevrilməyi hədəfləyən SOCAR ətraf mühitin mühafizəsini və təmizlənməsini prioritet istiqamətlərdən biri kimi müəyyənləşdirib. Bu baxımdan "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində Bakı buxtasının təmizlənməsi ilə bağlı həyata keçirilən işlər diqqət çəkir. Təmizlik işləri çərçivəsində Bakı buxtasının ərazisində suda batmış və yarımbatmış qurğular və digər tullantılar təmizlənərək sahədən daşınır.

Hazırda SOCAR-ın "Neftqaztikinti" Tresti tərəfindən Bakı buxtası və sahil zonasında xüsusi texnologiya və avadanlıqların köməyi ilə batmış və yarımbatmış vəziyyətdə olan iri qabaritli tullantılar müəyyənləşdirilir. Sonra isə həmin tullantılar çıxarılaraq daşınması və utilizasiyası təmin olunur. Bununla bağlı xüsusi layihə işlənib hazırlanıb. Qeyd edək ki, layihə COP29 tədbirləri çərçivəsində Bakı buxtası və sahil zonasının təmizlənməsi və bərpası istiqamətində atılan mühüm bir addım kimi diqqət çəkir. Eyni zamanda bu təşəbbüs ətraf mühitin qorunması, ərazinin estetik görünüşünün yaxşılaşdırılması, turizmin inkişafı, eləcə də insanların həyat keyfiyyətinin artırılması baxımından da xüsusi əhəmiyyət daşıyır.

Ötən müddətdə dəniz sahəsində "Kərəçə-13" və "Atlet" kran gəmiləri vasitəsilə suyun dibinə bərkidilmiş svayların kəsilərək ərazidən daşınması təmin olunub. Bu il aprelin 1-də başlanmış layihə çərçivəsində 291 ədəd polad svay, 76 ədəd 2 tonluq beton blok, 148 ton ağırlığında olan 7 ədəd dəmir-beton konstruksiyası kəsilib, 76 kubmetr beton dasğıdılıb. Bütün bu işlər nəticəsində 272,5 ton ümumi metal konstruksiyası kəsilərək ərazidən daşınıb.

Ağ şəhər bulvarının "Baku Marriot Hotel Boulevard"ın yaxınlığında yerləşən "taxta körpü" adlanan sahəsində də lazımi abadlıq işləri həyata keçirilib. Ötən müddətdə taxta svayların kəsilərək çıxarılması və ərazidən daşınması təmin olunub. Layihə çərçivəsində, ümumilikdə, 1610 ədəd taxta svay ləğv olunub ki, bunun da hesabına 3 min kvadratmetr ərazi abadlaşdırılıb. Bununla yanaşı, sözügedən ərazinin şərq hissəsində neftlə çirklənmiş 3,4 hektar sahə təmizlənib.

# Qazaxıstandan Azərbaycana "yaşıl" körpü salınır

**Qazaxıstanın respublikamızdakı səfiri Alim Bayel Bakıda keçirilən turizm forumunda bildirib ki, bu ölkədən "yaşıl enerji"nin Azərbaycan ərazisi ilə ixracı üzrə layihə hazırlanır.**

Səfirin sözlərinə görə, ölkələr arasında sıx qarşılıqlı səmərəli ticari-iqtisadi əməkdaşlıq qurulub. Qazaxıstandan "yaşıl enerji"nin gələcəkdə Azərbaycan ərazisi ilə ixracı isə təkcə iki ölkənin deyil, bütün regionun, eləcə də Orta Dəhlizin inkişafına mühüm təsir göstərəcək.

Səfir həmçinin, turizm sahəsində əməkdaşlığa toxunub və statistik məlumatları təqdim edib. "Ötən il Azərbaycana 58 min qazaxıstanlı turist gəlib. Bu ilin yanvar–iyun ayları ərzində isə həmin göstərici 38 min təşkil edib. Bütünlükdə Azərbaycana turist axınının artım dinamikasına görə Qazaxıstan Çin və Hindistandan sonra üçüncü yerdə qərarlaşıb", - deyə səfir əlavə edib.



# Qlobal enerji tarazlığının maliyyə öhdəlikləri

**Azərbaycan COP29-la bağlı iddialı nəticəyə nail olmaq üçün fəaliyyətini gücləndirməli və iqlim dəyişmələri üzrə Çərçivə Konvensiyasının bütün tərəflərini səfərbər etməlidir.**

COP20-nin prezidenti olmuş Manuel Pulqar Vidal mediaya müsahibəsində bu fikrini davam etdirərək bildirib ki, Azərbaycanın COP29-a evsahibliyi etməsi ona təkcə danışıqları təşviq etmək deyil, həm də gələcək nəsillər üçün miras yaratmaq imkanı verir.

M.Vidalın sözlərinə görə, səmərəli maliyyə danışıqlarının aparılması proaktiv addımlar atılmasını və maliyyələşmənin miqyasının qəbul edilməsini şərtləndirir. 2030-cu ilə qədər iqlim və ətraf mühit üçün ən azı 1 trilyon ABŞ dolları investisiya lazımdır.

COP20 prezidenti əlavə edib ki, 190-dan çox ölkənin ehtiyacları və tələbləri arasında balans yaratmaq çətin məsələ olsa da, bu, biznes, hökumət və vətəndaş cəmiyyəti liderləri ilə qarşılıqlı fəaliyyət sayəsində mümkündür.

Göründüyü kimi, Azərbaycan iqlim dəyişikliyi ilə mübarizədə maliyyə öhdəliklərinin yerinə yetirilməsinə xüsusi önəm verir. Prezident İlham Əliyev BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına – COP29-a hazırlıq məqsədilə iyunun 19-da Bakıda keçirilən Yüksək Səviyyəli 29-cu Toplantının iştirakçılarına müraciətində COP29-da 2025-ci ildən sonrakı dövr üçün iqlim maliyyəsi üzrə yeni kollektiv kəmiyyət hədəfinin razılaşdırılması üzrə danışıqlar aparılacağını bildirib. Ölkə rəhbəri daha sonra iqlim dəyişmələri ilə bağlı inkişaf etməkdə olan ölkələrin artan maliyyə ehtiyaclarının ödənilməsinin dünya ölkələri qarşısında duran ümdə vəzifə, ortaq gələcəyə sərmayə, müasir və gələcək nəsillər qarşısında kollektiv məsuliyyət olduğunu vurğulayıb.

Azərbaycan hazırda iqlim dəyişmələri ilə əlaqədar maliyyələşmə danışıqlarının şəffaflıq və inklüzivlik şəraitində irəli aparılması, bundan əvvəl götürülən öhdəliklərin və vədlərin yerinə yetirilməsinin sürətləndirilməsi istiqamətində bütün zəruri tədbirləri görür.

Yeri gəlmişkən, ötən il BƏƏ-də keçirilən COP28 konfransında da inkişaf etməkdə olan ölkələrin ehtiyaclarını və prioritetlərini nəzərə alaraq, iqlimin maliyyələşdirilməsi üçün müzakirələr aparılıb. Bu il keçiriləcək COP29 çərçivəsində isə 2030-cu ilə qədər bərpaolunan qlobal enerji potensialının 3 dəfə və enerji səmərəliliyinin ikiqat artırılması, habelə mədən yanacaqlarından "yaşıl iqtisadiyyat"a keçidin sürətləndirilməsi üzrə öhdəliklərin müzakirə ediləcəyi nəzərdə tutulub.

Azərbaycanda hazırda iqlim dəyişikliyinin mənfi fəsadları ilə mübarizə diqqət mərkəzində saxlanılır, COP29 ərəfəsində bu istiqamətdə mühüm tədbirlər həyata keçirilir və dünya ölkələri bu həyati vacib amala – iqlim maliyyələşməsi kimi iddialı qlobal məqsədlərə çatmağa səfərbər edilir.

Ekspertlərin sözlərinə görə, iqlim maliyyələşməsində hər bir ölkə yeni milli səviyyədə müəyyənləşdirilən töhfə verməlidir və bununla bağlı planlar hazırlanmalı, həmin planlarda əsas prioritet 2035-ci ilə qədər ölkələrin iqlim dəyişikləri ilə mübarizə prinsipləri öz ifadəsini tapmalı, qlobal istiləşmənin 1,5 dərəcə Selsi səviyyəsində saxlamaq məqsədi önə çəkilməlidir.

Bildirilir ki, bu il dünyada "yaşıl enerji"nin maliyyələşdirilməsi üçün təxminən 2 trilyon dollar investisiya qoyuluşu nəzərdə tutulur. Bu göstərici ilə qarşıda duran vəzifənin öhdəsindən gəlinməsinin mümkünsüzlüyü vurğulanır. sərmayə qoyulacağının nəzərdə tutulması da bunun bariz ifadəsidir. Çünki həmin 2 trilyon dolların təxminən 85 faizinin inkişaf etmiş iqtisadiyyatlara və Çinə yatırılacağı gözlənildiyindən və vəsaitin cəmi 15 faizinin dünya əhalisinin üçdə ikisindən çoxunun yaşadığı inkişaf etməkdə olan ölkələrə sərmayə kimi qoyulması planlaşdırıldığından problemin həllinin bundan sonra da yubanılacağı heç bir şübhə doğurmur.

İqlim maliyyələşməsini şərh edən ekspertlərin fikrincə, təkcə inkişaf etmiş iqtisadiyyatlarda və Çində iqlim maliyyəsini artırmaqla problemi həll etmək mümkün deyil. Asiya, Afrika və Latın Amerikasında böyük miqdarda emissiya var. Ona görə də kritik bir vəziyyətin aradan qaldırılması COP29-da ciddi müzakirə edilməli, maliyyələşdirmənin həll yolları tapılmalıdır.

# "Yaşıl bank"çılıq mövzusunda təqdimat keçirilib



**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzində (İİTKM) "Green Talk" layihəsi çərçivəsində növbəti təlim keçirilib. "İslahat könüllüləri"nin təşəbbüsü ilə İİTKM-in Strateji planlaşdırma şöbəsinin baş məsləhətçisi Yusif Məmmədov "Davamlı inkişaf və "yaşıl bank"çılıq" mövzusunda təqdimatla çıxıb edib.**

Y.Məmmədov gənclərə "yaşıl bank"çılıq anlayışı, onun əsas prinsipləri və komponentləri, "yaşıl bank"çılığın ekoloji, iqtisadi-sosial faydaları, yeni texnologiyaların tətbiqi haqqında ətraflı məlumat verib. Həmçinin "yaşıl bank"çılıqla ənənəvi bankçılığın fərqləri və üstünlükləri haqqında danışıb.

Təqdimat zamanı Y.Məmmədov tələbələrə "yaşıl bank"çılıq sahəsində ABŞ, Almaniya, Çin, Yaponiya və digər ölkələrin təcrübələrini bölüşüb və müxtəlif ölkələrin, maliyyə institutlarının enerji səmərəliliyi və "yaşıl bank"çılıq layihələrinə olan investisiyalarını təqdim edib.

Təlimdə Azərbaycanda "yaşıl bank"çılığın inkişafı, mövcud vəziyyəti və perspektivləri ilə bağlı əsas məqamlar da izah olunub. İnteraktiv keçən görüşdə gənclərin mövzu ilə bağlı fikirləri dinlənilib, sualları cavablandırılıb.

Qeyd edək ki, "Green Talk" layihəsinin əsas məqsədi "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində ölkədə "yaşıl düşüncə"nin formalaşmasına dəstək olmaqdır.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

# Paris neqativ tendensiyalar ixrac edir

## Fransanın Azərbaycana qarşı davranışından asimmetrik müharibə qoxusu gəlir

(əvvəli 1-ci səhifədə)

“France 2” telekanalı Ermənistan komandasını müsbət fonda təqdim etmək üçün Azərbaycan barədə informasiyaları saxtalaşdırıb. Bu, həm də, media haqqında modern prinsiplərin pozulması deməkdir. Həmin prinsiplərin altında Fransanın imzası var. Məsələn, medianın etik davranış prinsiplərini ehtiva edən beynəlxalq sənədlərdən biri – Münxen Bəyannaməsi KİV-in münaqişələrə münasibətdə bitərəf davranışın tələb edir. Həmin bəyannaməni imzalayan 5 dövlətdən biri Fransadır. Amma bu gün Münxen Bəyanaməsini ən çox pozan da Fransadır.



Müşahidələr göstərir ki, “France 2”, “France 24”, “Le Fiqaro”, eləcə də Fransanın digər KİV-nin bu yöndə xətalara yol vermələri təsadüfi xarakter daşımır. Şuşa Qlobal Media Forumunda qeyd edildiyi kimi, onlar Fransa hakimiyyətinin ruporuna çevrilərək, şüurlu şəkildə dezinformasiyalar ötürürlər. Fransa ötən 30 il müddətində Minsk qrupunun həmsədri qismində fəaliyyəti ilə sübut etmişdi ki, Qarabağ münaqişəsinə yanaşmada tərəfsiz davrana bilmir. Məsələni ədalətsiz formada, Ermənistanın xeyrinə həll etmək istəyir və bunun üçün bütün vasitələrə əl atır.

Qarabağ münaqişəsinin bitməsindən sonra isə Fransanın davranışında yeni elementlər ortaya çıxdı. Görünən budur ki, o, Ermənistan üzərindən iş quraraq, Cənubi Qafqaza daxil olmaq, burada özünün təsir dairəsini yaratmaq istəyir. Yəni, əvvəllər öz siyasətini “Qarabağ münaqişəsinin həllində vasitəçi olmaq” adı ilə pərdələyirdisə, Qarabağ probleminin həllindən sonra qılafını atıb, prosesin önündə birbaşa öz sifəti görünməyə başlayıb.

Fransanın Cənubi Qafqaza yönəlik ekspansiya siyasəti zorakılığa əsaslanır və o, neokolonializm alətlərindən istifadə edir. Ermənistanla Azərbaycan arasında sülhün əldə edilməsinə mane olur. İki ölkə arasında münaqişənin yenidən alovlandırılması üçün Ermənistanı sürətlə silahlandırır. Özünün Cənubi Qafqazda iştirakını münaqişələrin alovlandırılmasında görür. Azərbaycanı da öz siyasətinə tabe etdirmək üçün təzyiq mexanizmlərindən yararlanır, beynəlxalq təşkilatlardakı təmsilçiliyindən faydalanaraq ölkəmizə təsir göstərməyə çalışır.



*Müşfiq ƏLƏSGƏRLİ,*
*XQ-nin media eksperti*

44 günlük müharibədən sonra baş verən proseslər bunu deməyə əsas verir ki, Fransa Azərbaycana qarşı davranışlarında asimmetrik müharibə elemetlərinə istinad edir. Təsir dairəsində olan media qurumlarını, transmilli KİV-ləri qarayaxma kampaniyasına cəlb edir. Bu vasitə ilə qlobal ictimai rəyi Azərbaycana qarşı yönəltməyə çalışır. Paralel olaraq, beynəlxalq platformalarda qondarma müzakirələr açır, ölkəmizin adına kölgə salır. 2022-ci ildə, hələ müharibənin davam etdiyi dövrdə Azərbaycanın məsələsini BMT Təhlükəsizlik Şurasının müzakirəsinə çıxararaq, təzyiq göstərmək, ölkəmizi özünün haqq işini tamamlamaqdan yayındırmaq istəmişdi. 2022-ci ilin dekabrında “Laçın yolu” mövzusunu əsas götürərək, Azərbaycan məsələsini BMT müstəvisinə çıxarmaq üçün növbəti dəfə təşəbbüs göstərmişdi. Eyni hərəkətlərini 2023-cü ilin avqust ayında da təkrarlamışdı. Qarabağ bölgəsində yaşayan erməni əsilli sakinlərin, guya, “blokadaya salınması” barədə əsassız iddialar irəli sürmüşdü. Bölgədə yaşayan ermənilər üçün yalançı humanitar yardım karvanı göndərməklə “humanitar böhran” kampaniyasına başlamışdı.

2023-cü il oktyabrın 11-də BMT-nin İnsan Hüquqları Şurasında Azərbaycan əleyhinə birgə bəyanat verdirməyə çalışdı. Fransa Azərbaycana qarşı təzyiq mexanizmlərini bu gün də davam etdirir. Onun davranışları bölgədə gərginliyi artırmaq və sülh prosesini pozmağa hesablanıb.

Makron hakimiyyəti belə yanlış hərəkətlərlə Azərbaycanın suveren hüquqlarına müdaxilə etdiyi kimi, Fransanın özünə də ciddi zərər vermiş olur. O, Fransanın “sülhsevər, demokratik ölkə” imicini dağıdır. Məhz belə davranışın nəticəsidir ki, Fransa əsrlər boyunca nəzarətində olan Afrika ölkələrindən qovulur, hər sahədə sıxışdırılır. Cənubi Qafqazdakı pozucu hərəkətlərinə görə də cavab verməli olacaq.

Amma, təəssüf ki, Fransanın media sahəsində yaratdığı neqativ tendensiyalar hələ uzun müddət davam edəcək. “France-24”, “France 2”, “Le Fiqaro”, “Euronews”un Fransa xidmətinin indi sərgilədikləri münasibət sivil dünyanın yüz illər boyunca formalaşdırdığı prinsipləri dağıdır, bəşəriyyətə neqativ tendensiyalar təqdim edir.



# İrəvanın sözü ilə əməli düz gəlmir

**Cənubi Qafqaz regionunda sülh və əmin-amanlığa, təhlükəsizliyə hər zaman təhdid olan, xarici havadarları tərəfindən dəstəklənərək regionda onların maraqlarını təmin etmək məqsədilə vaxtaşırı destruktiv addımlar atan Ermənistanın təxribatlar seriyası davam edir. Ölkənin əvvəlki iqtidarları Qarabağda başlatdıqları separatçılıq əməllərində və Azərbaycan torpaqlarının işğal olunması məsələsində ilk vaxtlar SSRİ rəhbərliyinə, sonra isə ermənipərəst Boris Yeltsin hökumətinə güvənirdilər. Hayların digər “istinadgahı” Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı adlanan hərbi-siyasi qurum idi.**

İkinci Qarabağ müharibəsində məğlubiyyətinə, xüsusilə ordumuzun ötən il uğurla həyata keçirdiyi lokal xarakterli antiterror tədbirlərinə görə Moskvanı suçlu görən rəsmi İrəvan hazırda üzünü Qərbə çevirmiş durumdadır. Rusiyanın rəhbərliyi altında keçirilən bütün tədbirləri boykot edən, KTMT-ni maliyyələşdirməyəcəyini bildirən Ermənistan hökumətinin üzvləri, Paşinyan başda olmaqla Avropa ölkələrində tez-tez peyda olurlar. Nikol Avropa şəhərlərində keçirilən bir tədbiri belə qaçırmır. Bu yaxınlarda isə o, Almaniyaya gedərək UEFA Avropa Çempionatının final oyununu izləmiş, Berlin küçələrində velosiped sürmüş, insanlarla şəkil çəkdirmiş, həyat yoldaşı ilə alış-veriş etmiş və muzeyə bilet almaq üçün növbəyə durmuşdu. O, bununla özünün də avropalılardan biri olduğunu nümayiş etdirməyə və onların rəğbətini qazanmağa çalışmışdır.



Ancaq Paşinyanın və iqtidarının əməlləri onların gerçəkdən sivil, mədəni, sülhpərvər olduqlarını ciddi şəkildə şübhə altına alır. Bu yaxınlarda Ermənistanda ABŞ ilə birgə hərbi təlimlər keçirilib. Fransa Ermənistanı öldürücü silahlarla təchiz edir. Avropa İttifaqı tərəfindən isə Avropa Sülh Fondu adlanan təşkilatın xətti ilə Hayastana ilkin mərhələdə 10 milyon avro dəyərində hərbi yardım göstərilib. Bütün bunlar heç də bölgədə sülhə xidmət etmir. Əksinə, Azərbaycan Müdafiə Nazirliyinin iyulun 25-də yaydığı bəyanatda qeyd edildiyi kimi, işğalçı Ermənistanı təxribatlar törətməyə həvəsləndirir və Azərbaycana qarşı növbəti müharibəyə hazırlaşdırılmasına dəlalət edir.

Onu da bildirək ki, Ermənistan tərəfindən bu kimi təxribatların törədilməsi birinci hal deyil və davamlı xarakter daşıyır. Növbəti təxribat iyulun 28-də baş verib. Həmin gün saat 17:40 radələrində Ermənistan silahlı qüvvələrinə məxsus kvadrokopter ordumuzun Laçın rayonu istiqamətində yerləşən mövqeləri üzərində kəşfiyyat uçuşları həyata keçirməyə cəhd göstərib. Müdafiə Nazirliyinin mətbuat xidməti iyulun 29-da yaydığı məlumatda bildirib ki, bölmələrimizin sayıqlığı nəticəsində aşkar olunan növbəti pilotsuz uçuş aparatının fəaliyyətinə xüsusi texniki vasitələrlə müdaxilə edilib və ərazidən uzaqlaşdırılıb.

Bütün bunlar bölgədə yeni gərginlik ocağının yaradılmasına aşkar cəhdlər edildiyini ortaya qoyur. Maraqlıdır ki, bu proseslər sülh müqaviləsi üzrə danışıqların aparıldığı bir zamanda baş verir. Rəsmi İrəvan bir tərəfdən sülhdə maraqlı olduğunu bəyan edir, digər tərəfdən isə şərti sərhəddə təxribatlar törədir. Bu isə onun sülhdə səmimi olmadığını aşkar surətdə ortaya qoyur. Əslində, İrəvan sülh sazişi üzrə təkliflərə cavab vermək əvəzinə, destruktiv əməllərlə məşğul olur. Azərbaycanın məram nümayiş etdirərək BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına – COP29-a Ermənistanı da dəvət etməsi fonunda İrəvanın bu kimi addımları onun dəyişməz mahiyyətinin göstəricisidir. Bəs son vaxtlar İrəvan şərti sərhəddə təxribatlar törətməklə nəyə nail olmaq istəyir? Mövzu ətrafında fikirlərini öyrəndiyimiz **Azərbaycan Ordusunun sabiq korpus komandiri, ehtiyatda olan polkovnik Şair Ramaldanov** bildirdi ki, son vaxtlar Ermənistanda gedən proseslər regionda təhlükəsizliyə təhdid yarada biləcək şəkildə inkişaf edir. Onun sözlərinə görə, Ermənistanın sürətlə silahlanması və bu silahlanmanın, açıq-aydın, nümayişkəranə şəkildə həyata keçirilməsi ölkə daxilindəki revanşist qüvvələri ruhlandırır. Hərbi ekspert qeyd etdi ki, adətən, ölkələrin silahlanma prosesi onun hərbi potensialına aid olduğundan qapalı şəkildə həyata keçirilir. Ermənistan rəhbərliyi isə bütün kontraktları media önündə imzalayır. Onlar bununla “biz silahlanırıq” mesajını ötürməyə çalışırlar. Eyni zamanda, Hayastan hərbi-siyasi rəhbərliyi havadarlarının maraqlarını təmin etmək məqsədilə bölgədə sabitliyə deyil, gərginliyə səbəb olan addımlar atır: “Onların sülh müqaviləsinin imzalanmasına “bir addım irəli, iki addım



geri” prinsipi ilə yanaşması, sazişin imzalanmasına yaxın olduğumuz dövrdə şərti sərhəddə təxribatların törədilməsi digər proseslərin davamı kimi də qiymətləndirilə bilər. Əgər Ermənistan silahlanırsa, yaxud onu silahlandırırlarsa, deməli, burada hansısa məqsəd var. Həmin məqsəd heç də regionda sabitliyə xidmət etmir. Onlar şərti sərhəddə təxribatlar törətməklə, vəziyyəti gərginləşdirməklə, kvadrokopterləri havaya qaldırıb kəşfiyyat uçuşları aparmaqla bir daha Azərbaycanı adekvat addımlar atmağa vadar edirlər”.

Ş.Ramaldanov hesab edir ki, bunlar sırf İrəvanın özünün ortaya çıxardığı ssenari və ya qərarlar deyil. Ermənistana havadarlıq edən və regionda maraqları olan böyük dövlətlərin ssenari və qərarlarıdır. Regionda bütün proseslər “3+3” formatında həll olunmalıdır. Ancaq Ermənistana havadarlıq edən Fransa, Avropa İttifaqının bəzi digər ölkələri və ABŞ bölgədə öz maraqlarını təmin etmək üçün Ermənistanı silahlandırırlar. Hazırda törədilən təxribatlar da həmin ssenari əsasındadır.

Müsahibimiz qeyd etdi ki, Ermənistanda Aİ-nin mülki müşahidə missiyası adı altında yerləşdirilmiş yarımhərbi qrupun üzvlərinin sayı artır. Missiya sülh adı altında kəşfiyyat xarakterli işlər həyata keçirir, erməni cəmiyyətini Rusiyaya qarşı qaldırmağa xidmət edir. Bu çərçivədə ABŞ ilə bir-birinin ardınca keçirilən hərbi təlimlər də diqqəti cəlb edir. Biz həmin təlimlərin Azərbaycanla şərti sərhəddə gərginliyi artırdığının şahidi oluruq.

Hərbi ekspert düşünür ki, proseslər sırf Azərbaycana qarşı yönəlməyib. Ölkəmiz burada birinci hədəf kimi nəzərdə tutulmayıb. Ancaq buna baxmayaraq, vəziyyətin gərginləşməsi regionda ümumi təhlükəsizliyə xələl gətirir. Müxtəlif qüvvələr bölgədə yeni münaqişə ocaqları alovlandırmağa çalışırlar. Belə olan təqdirdə baş verənlər “3+3” formatı üzrə bölgənin bütün ölkələrinə mənfi təsir göstərəcək. Azərbaycan və Ermənistan arasında mövcud vəziyyəti nəzərə alaraq situasiyanı gərginləşdirən qüvvələr ikili standartlar siyasətini işə salacaq, özlərinin maraqlarına uyğun qətnamələr qəbul edəcəklər. Bu qətnamələr əsasında Ermənistana havadarlıq edən ölkələr burada öz maraqlarını təmin etmək üçün hüquqi baza yaratmağa çalışacaqlar. Ermənistanın bu mövqeyi və gedən proseslər isə təhlükə yaradır: “Ona görə də düşünürəm ki, İrəvanın tutduğu mövqe nə erməni xalqına, nə də ölkənin maraqlarına xidmət edir. Paşinyan hökuməti isə nüfuzunu itirmiş iqtidar kimi özünü qorumaq üçün havadarları tərəfindən hansısa zəmanətlər alıb”.

Onu da qeyd edək ki, bu gün Türkiyə ilə Ermənistan arasında normallaşma prosesi üzrə xüsusi nümayəndələr – Sərdar Kılıç və Ruben Rubinyan Türkiyə–Ermənistan sərhədində danışıqların beşinci raundunu keçirəcək. Bu barədə türkiyəli jurnalist Sena Alkan məlumat yayıb. Ermənistan xarici işlər nazirliyi də Türkiyə ilə Ermənistan arasında normallaşma prosesi üzrə xüsusi nümayəndələrin görüşəcəyini təsdiqləyib. Hayastan xarici siyasət idarəsinin sözçüsü “X” hesabında bildirib ki, iyulun 30-da Ermənistan–Türkiyə sərhədində xüsusi nümayəndələrin beşinci görüşü olacaq. İrəvanın bir tərəfdən Azərbaycanla şərti sərhəddə vəziyyəti gərginləşdirib, digər tərəfdən ölkəmizin ən yaxın müttəfiqi ilə danışıqlar aparması görüntüsü yaratması da Hayastan rəhbərliyinin siyasi riyakarlığından xəbər verir. Azərbaycanla münasibətlər normallaşmadan Türkiyə ilə hansısa sahədə danışıqlarda nəticə əldə ediləcəyi ciddi şəkildə sual altındadır. Rəsmi İrəvan bunu anlamalı və bütövlükdə, regionda sülh və sabitlik naminə konstruktiv yanaşma ortaya qoymalıdır.

***Səxavət HƏMİD***
***XQ***

# “Bəxt üzüyü” ilə “Dantenin yubileyi”nə

## *Müsahibimiz Xalq artisti Sabir Məmmədovdur*

**Şaxtalı-sazaqlı, soyuq bir qış axşamında dünyaya göz açsa da, üz-gözündən isti, ılıq bahar təbəssümü əskik olmur Sabir Məmmədovun. Təbii ki, bu istiqanlılığın sənətə, teatra vurğunluqdan, eləcə də mənsub olduğu ailədən gələn tərəfləri də var. Onunla söhbətimizə elə bu ovqatla başladıq.**



**– Sabir müəllim, ürəkdə sevgi olanda çöhrədən hiss edilir, elədirmi?**

– Bəli. Mən teatrı, ədəbiyyatı çox sevirdim. Müəllimim məni belə yönləndirmişdi. Özüm fəhlə ailəsində böyümüşəm. Valideynlərim təhsilsiz olsa da, inanırdılar ki, mən həvəsliyəm. İstəklərimə qarşı gəlməyiblər. Bu baxımdan azad böyümüşəm. Eləcə də ata yurdum Qazaxda hər zaman sənət mühiti olub, teatra, ədəbiyyata çox güclü meyil olub. Hər kənddə dram dərnəkləri mövcud idi, mənim dünyaya gəldiyim Poylu kəndində də.

**– Sonra da İncəsənət İnstitutunda unudulmaz sənətkarımız Həsənağa Turabovun kursunda təhsil almısınız...**

– Bəli, bu, xoş bir təsadüf oldu. Sentyabrda dərsə gələndə dedilər ki, sizin müəlliminiz Həsənağa Turabovdur. Çox sevindim, gözəl insan, gözəl aktyor idi.

**– Rüstəm İbrahimbəyovun “Park”ında xoşbəxt adamı oynayıbsınız. Vaqif Səmədoğlunun “Bəxt üzüyü”ndə isə bədbəxt, içki düşkünü Hüseyni. Bir-birinin tam əksi olan obrazlardır. Fərqli amplualarda təqdim olunan obrazlarda səhnəyə çıxmaq çətin olmur ki?**

– Fərqli amplualarda çıxış etmək çətindir. Bir də, bu, rejissorla baglıdır. Aktyoru rejissor yönləndirir. O, aktyoru obrazın ruhuna uygunlaşdıra bilirsə, proses ugurlu olur. İlk illərdə mənim üçün bu, çətin idi, çünki təcrübəm yox idi. Ancaq zamanla janrları, amplualarıı fərqləndirdim və rahat oldu mənim üçün.

**– Dünyaya göz açdığınız Qazax mahalı həm də şairlər məskənidir. Bəlkə də, bu səbəbdən bəxtinizə xeyli şair obrazı yaratmaq düşüb. Nazim Hikmətin “Kəllə”pyesində Şair, Cəfər Cabbarlının “Almas”ında Hafizhəngi, Sədihəngi şeirlər quraşdıran Şərifsiniz. Məmməd Səid Ordubadinin “Qılınc və qələm” romanı əsasında hazırlanmış “Qətibə İnanc” tamaşasında Nizami rolunu ifa edirsiniz. Özünüzün necə, duyğu və düşüncələrinizi şeirlə ifadə etmək cəhdləriniz heç olubmu?**

– Mən poetik bir insan deyiləm, sadəcə, obrazları ifa eləmişəm, düşüncələrimi ifadə etmək üçünsə şeirə müraciət etmirəm.

**– Sumqayıt teatrında “Bəxt üzüyü” tamaşasında Hüseyn rolunda səhnəyə ilk dəfə siz çıxmısınız...**

– Elədir, o obrazı Sumqayıt teatrında ilk dəfə mən ifa etmişəm. Çox ugurlu bir tamaşa oldu. Film də tamaşanın ekran inikası idi. Qrimlər, geyimlər də eyni idi. Çox adam elə bilirdi ki, kinoda da mən oynamışam. Amma filmdə həmin rolu Ayşad Məmmədov canlandırıb.

**– Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında Xalq yazıçısı Anarın “Dantenin yubileyi” əsəri əsasında hazırlanan tamaşada Feyzulla Kəbirlinski rolunu ifa etmisiniz. Səhnədə bir aktyoru canlandırmaq necə bir hiss idi?**

– Anar öz əsəri barədə deyir ki, mən isdedadsız bir adam haqqında yazmışam. Kəbirlinski də bir aktyor kimi isdedadsızdır. Bunu səhnədə ifa etmək çətindir. Ancaq çox kədərli, insanın qəlbinə toxunan bir obrazdır.

**– İfa etdiyiniz obrazlardan hansı sizə daha çox yaxındır?**

– Mən ən çox tragikomik obrazları sevirəm. İnsan da, obraz da birtərəfli olmur, xarakterikdir. Xarakterik obrazları oynamaq da çox çətindir, ancaq belə obrazlar yaradan aktyorlar daha çox yadda qalır. Gənclərə demək istəyirəm ki, çalışın xarakterik rollarda səhnəyə çıxın.

**– Hamleti, Otellonu oynamaq arzusuyla yaşadığınız vaxtlarda bir rus rejissor sizi bazar satıcısı rolunu ifa etməyə dəvət edib. Necə qarşılamısınız o təklifi?**

– Rus rejissor məni filmdə kiçik bir rola çəkilməyə dəvət etdi. Mən də dedim ki, bu rolu istəmirəm, arzumdur ki, Hamleti, Otellonu oynayım. Rejisor mənə dedi ki, mənə aktyor lazımdır, sən lazımsan. Mən də razılaşdım.

**– Sabir müəllim, ötən əsrin lap son illərində ölkə həyatımızın çətin, xaos və durğunluqla izlənən yaşamı oldu. Bu olaylar teatr sahəsinə də təsirsiz ötüşmədi. Elə bil hər şeyin sonu çatmışdı. Amma Ulu öndər Heydər Əliyev xalqın tələbi ilə 2-ci dəfə hakimiyyətə gəldi. Bu gəliş bütün sahələrdə olduğu kimi, teatr həyatını da əsaslı şəkildə canlandırdı. Ulu öndərin mədəniyyət siyasəti bu gün ölkəmizin başçısı tərəfindən uğurla, qədirbilənliklə davam etdirilir. Bu barədə fikirlərinizi dinləmək xoş olardı...**

– Sovetlər birliyinin dagılması mərhələsini, xaos dövrünü bizim kumir hesab etdiyimiz aktyorlar çətin keçirirdi. Uygunlaşmaq olmurdu. Səhnə, teatr, maaş yox idi. Ulu öndər gəldikdən sonra teatr sənəti inkişaf mərhələsinə qədəm qoydu.1995-ci ildə “Hökmdar və qızı” səhnəyə qoyuldu və Heydər Əliyev tamaşanı izlədi. Sonra səhnə arxasına keçib xoş təəssüratını bildirdi və truppanı Türkiyəyə qastrola göndərdi. Eləcə də Heydər Əliyev "Hamlet", "Burla xatun" tamaşalarına da baxmışdır. Bu gün də ölkə başçısı İlham Əliyev, Birinci vitse-prezident Mehriban Əliyeva mədəniyyətimizi çox yüksək dəyərləndirirlər. Bir çox tədbirlər, layihələr həyata keçirilir. Zəhmət qiymətini tapır. 2018-ci ildə mənə Xalq artisti adı verilib.

**– Sabir müəllim, necə düşünürsünüz, aktyor hansı şəraitdə formalaşır?**

– Aktyor ilahi vergi ilə uzun müddət səhnədə qala bilməz. Universitet aktyora sistemi öyrədir, teatra dair biliklərlə tanış edir. Bunsuz ilahi vergi ilə, sadəcə, bir rol oynaya bilərsən. Aktyorun formalaşmasında universitetin rolu mühümdür.

**– Keçən il teatr forumu keçirildi. Bu yaxınlarda Teatr Xadimləri İttifaqının konfransı oldu. Bunlar milli teatrın daha da inkişafına nə dərəcədə təsir edəcək?**

– Mədəniyyət nazirimiz mədəniyyətə öz sevgisi, qaygısı ilə seçilir. Festivallar, forumlar, ölkələrarası qastrol səfərləri təşkil edilir. Forumda teatrın bir nöpv yol xəritəsi müəyyənləşdi. Konfransda sevimli aktyorumuz Hacı İsmayılov İttifaqa sədr kimi təsdiqləndi. Ümidvarıq ki, peşəkar teatr sənətimiz daha da irəli gedəcək. Yeri gəlmişkən, sentyabrda Akademik Milli Dram Teatrı Sankt-Peterburqa qastrola gedəcək, Aleksandrinski teatrı isə Bakıya gələcək.

**– Yeni mövsümdə Akademik Milli Dram Teatrı daha hansı yeniliklərlə pərdələrini tamaşaçıların üzünə açacaq?**

– Teatrımızda 4 tamaşanın hazırlanması barədə əmr verilib: Mehriban Ələkbərzadənin quruluşunda “8 qadın”, “Müharibə”, Ərşad Ələkbərovun quruluşunda “Aydın” və Nicat Kazımovun quruluşunda “Ledi Maqbet”. Yəqin ki, mən də bir, iki rolda səhnəyə çıxacam.

**– Sizə daha böyük yaradıcılıq uğurları arzu eduruk!**

***Müsahibəni aldı:***
***Aynur HİLALİ***

# Türk Dil Qurumu ilə əməkdaşlıq genişlənir



**Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzinin direktoru, professor Sevinc Əliyeva Türkiyəyə səfəri çərçivəsində Türk Dil Qurumunun sədri professor Osman Mert və sədr müavini Harun Şahinlə görüşüb. Eyni zamanda Azərbaycan Mədəniyyət Mərkəzinin rəhbəri Samir Abbasovla da mərkəzdə görüş olub.**

Mərkəzdən bildirilib ki, görüşdə qloballaşma dövründə türk dillərində gedən inteqrasiya prosesləri və bu proseslərin türk dillərinin inkişafına təsiri məsələləri ətraflı təhlil edilib. Türk Dil Qurumu ilə Monitorinq Mərkəzi arasında elmi-mədəni əməkdaşlıq münasibətlərinin perspektivləri müzakirə olunub.

Professor Sevinc Əliyeva “XQ”-yə eksklüziv müsahibəsində deyib:

– Türk Dil Qurumunun əməkdaşları ilə əvvəllər də ünsiyyətimiz olub, bizim mərkəzimizdə işgüzar görüş keçirmişik. Türkiyə səfərimiz çərçivəsində professor Osman Mertlə görüşümüz də eyni xarakter daşıyırdı. Həm Türk Dil Qurumunun zəngin təcrübəsini, həm də böyük nüfuzunu nəzərə alsaq, bu görüşləri əhəmiyyətli hesab etmək olar. Razılığa gəlindi ki, Əməkdaşlıq memorandumu hazırlansın və yaxın aylarda imzalanacaq.

Görüş zamanı müzakirə olunan məsələlərə dair onu deyə bilərəm ki, müxtəlif lüğətlərin hazırlanması, yalnız Azərbaycan və Türk dillərinin deyil, müxtəlif türk xalqlarına mənsub dillərin lüğətlərinin, xüsusilə izahlı lüğətlərin hazırlanması barədə ətraflı danışıldı. Bildiyimiz kimi, tərcümə prosesində eyni dil ailəsinə mənsub olan dillərdə ciddi problemlər olur. Elmi, bədii əsərlərin tərcüməsində əsas məsələ tərcüməçi bacarığıdır. Dublyaj sahəsində də qüsurlar mövcuddur. Tərcüməçilərin Azərbaycan dilinin və çevirdikləri dilin lüğət tərkibinə dərindən bələd olmamaları, xüsusilə frazeoloji ifadə və sözlərin düzgün işlədilməməsi problemi var. Qarşıdakı aylarda dublyajların monitorinqinə dair tədbirimiz olacaq və yığışıb nəticələrdən bəhs edəcəyik.

Osman Mertlə görüşümüzdə o da qeyd olundu ki, bu gün dilin praktik səviyyədə tədris olunması problemi var və bu, dilin yox, tərcüməçinin, danışanın, yazanın problemidir. Dilimiz zəngindir, sadəcə, nitqlər, təqdimatlar fərqli olur. Aparıcı düzgün danışa bilmirsə, bunu dilin üzərinə atmaq olmaz. Hər hansı aparıcının tamaşaçı zövqünü korlaması yolverilməzdir. Görüşdə lüğətlərin işlənməsi, tədris vəsaitlərinin kifayət qədər olmaması da əsas problem kimi qabardıldı.

Ankarada ölkəmizin Türkiyədəki səfirliyinin tabeliyində fəaliyyət göstərən Azərbaycan Mədəniyyət Mərkəzinin direktoru Samir Abbasovla da görüşümüzdə bədii ədəbiyyatın tərcüməsi məsələlərini müzakirə etdik. Böyük Azərbaycan, türk şairi Nizaminin olduğu kimi təqdim edilməsi zərurəti önə çəkildi. Beləliklə, “Nizami fars şairidir” tipli yanlış fikirlərə tutarlı cavab veriləcək.

Bütün bu istiqamətlərdə bizim Monitorinq Mərkəzi ilə Türk Dil Qurumu əməkdaşlığı davam etdirəcəklər. Ədəbiyyat, dil və sair bu kimi sahələrdə birgə çalışacağıq.

***Hazırladı:***
***Əli NƏCƏFXANLI***
***XQ***

# Heykəllərin təmiz üzü və ya tarixi irsə qayğı

**Paytaxt Bakının bir-birindən cəlbedici və bənzərsiz memarlıq nümunələri onun xoş cazibəsini daha da artırır, ecazkar gözəlliyi ilə heyranlıq yaradır. Şəhərin küçə və meydanlarını bəzəyən tarixi-memarlıq və mədəniyyət abidələrinin yaratdığı möhtəşəm mənzərə paytaxtımızı dünyanın ən maraqlı məkanlarının sırasında qərarlaşdırır. Bakının görünüşünü daha da ehtişamlı edən vasitələrdən biri, şəhərin ən görməli yerlərində ucaldılan milli heykəltaraşlıq nümunələridir. Bu gün paytaxtımızın park və xiyabanlarını dolaşarkən, tez-tez görkəmli şəxslərin heykəlləşmiş obrazları ilə üz-üzə gəlirik. Onlardan bir çoxunun üzərində bərpa-təmizlik işlərinin aparılmasına ehtiyac duyulduğu aydın görünür. Bürünc, mərmər və qranitdən ucaldılan bu monumental heykəllərin səthində uzun illərdir ki, restavrasiya işləri görülməyib və hazırda onlarda bərpa-təmir işlərinin aparılması zərurəti yaranıb.**



Bəs Mədəniyyət Nazirliyi tərəfindən bu heykəllərin unikallıqlarının saxlanılması – yad təsirlərdən qorunması və çirklərdən təmizlənməsi istiqamətində hansı addımlar atılır?

Bu barədə Mədəniyyət Naziriliyinin Media və komunikasiya şöbəsinin müdiri Aynur Kərimli sorğumuza cavab olaraq bildirdi ki, artıq qeyd edilən yöndə intensiv işlərə başlanılıb. Nazirlik heykəllərin yad təsirlərdən qorunması və təmizlənməsi üçün artıq “Abidələrə qayğı – Bakı şəhərində heykəltaraşlıq əsərlərinin təmizlənməsi və bərpası” layihəsinə start verib.

– İyul ayının 10-da mövcud vəziyyətlə əlaqədar Bakı şəhərində 100-dən çox abidəyə baxış keçirilərək, üzərlərində



ekspertiza aparılıb. Abidələrdən 20-nin təmizlənmə və bərpaya ehtiyac oduğu müəyyən edilib. Bəzi abidələrdə toz və yağ qatı, habelə yanlış rənglənmə aşkarlanıb. Bu baxımdan təmizlənmə işinin icrası qərara alınıb. Bu günə kimi 10-dək heykəl və abidə kompleks yuyularaq təmizlənib və əvvəlki halına qaytarılıb. Buraya Məhəmməd Füzuli, Mirzə Ələkbər Sabir, Qara Qarayev, Səməd Vurğun,



Boris Vannikov, Albert Aqarunov və Qafur Məmmədovun heykəlləri, habelə 20 Yanvar abidə kompleksi, "Kitabi-Dədə Qorqud" abidəsi daxildir.

Nazirlik rəsmisi onu da əlavə etdi ki, təbiətin, aqressiv mühitin yaratdığı müxtəlif rəng dəyişmələri, korroziyaların aradan qaldırılması və heykəlin ilkin vəziyyətinə qaytarılması üçün təmizlənmə prosesi intensiv aparılır.

– Heykəl yad təsirlərdən, çirklərdən təmizlənərək ilkin vəziyyətinə qaytarılır və sonrakı mərhələdə qaydalara uyğun olaraq, tonlama prosesi aparılır. Bundan sonra, heykəlin yad təsirlərdən uzun müddət qorunması məqsədilə ona qoruyucu qat çəkiləcək. Heykəllərin unikallığının qorunması və təhlükəsizliyinin təmin olunması məqsədilə peşəkar heykəltaraşların nəzarəti ilə texniki heyət tərəfindən görülən işlər bütün standartlara uyğun və keyfiyyətlə həyata keçirilir.

Layihənin regionlardakı abidə və heykəllərə də şamil olunmasına gəlincə, nazirlik rəsmisi söylədi ki, bu proses yaxın perespektivdə regionlar üçün nəzərdə tutulmur.

Qeyd edək ki, layihə Mədəniyyət Nazirliyi, Bakı Şəhər İcra Hakimiyyəti və "Bakı Abadlıq Xidməti" MMC-nin birgə təşkilatçılığı ilə həyata keçirilir.

***Ceyhun ALIŞLI***

# Gəncə teatrı Portuqaliyada



**Avrasiya Teatrlar Birliyi, Portuqaliya Mədəniyyət Nazirliyi, CTB (Braqa Teatr Şirkəti) və Braqa Şəhər Bələdiyyəsinin birgə keçirdiyi III Beynəlxalq Teatr festivalında 8 ölkədən teatr kollektivləri iştirak edib.**

Festivalda ölkəmizi Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və Gəncə Şəhər İcra Hakimiyyətinin dəstəyi ilə Gəncə Dövlət Milli Dram Teatrı təmsil edib. Bu festivalın təşkilatçısı olan rejissor qrupunun teatr düşüncəsi Brext teatrına yaxındır və onlar daha çox bu tip tamaşaları festivala dəvət edirlər. Gəncə teatrının ədəbi hissə müdiri, teatrşünas-tənqidçi Anar Ərtoğrul Burcəliyevin bu barədə “XQ-yə verdiyi məlumatda bildirilir ki, yaradıcı kollektiv rejissor Tural Vaqifoğlunun quruluşunda Ejen İoneskonun “Kral ölür” tamaşasını Maia və Braqa şəhərlərində uğurla nümayiş etdirib.

Münsiflər heyətinin qərarına əsasən Gəncə teatrı “Ən yaxşı tamaşa geyimi” nominasiyasında qalib elan edilib və festivalın Qran-pri mükafatına layiq görülüb. Tamaşada obrazları Əməkdar artistlər Elxan Yunis, İlham Hüseynov, Sevda Orucova, Kəmalə Məmmədova, aktyorlar Güntəkin Mehdiyeva və Ruslan Hüseynov canlandırıblar.

Müsahibimiz onu da dedi ki, dünya teatrının vəziyyətini, inkişaf proseslərini öyrənmək baxımından da bu kimi festivalların rolu böyükdür.

***XQ***

# Leysan yağışlar bölgələrdə sel və dağıntılar törədib

## Yerlərdə yaranan fəsadları aradan qaldırmağa çalışırlar



**Son 2 gündə leysan xarakterli yağışların yağması nəticəsində ölkəmizin bir sıra rayonlarında, o cümlədən Gəncə şəhərində daşqınlar baş vermiş, təsərrüfatlara, evlərə, həyətyanı sahələrə ciddi ziyan dəymişdir.**

Ötən gün axşam saatlarından başlayaraq Gəncə şəhərinə yağan və hazırda da fasilələrlə davam edən güclü yağış bir sıra fəsadlar törədib. Belə ki, şəhərin Yeni Gəncə yaşayış massivində yeni salınan məhəllədə 30-a yaxın fərdi yaşayış sahəsi su altında qalıb.



Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov hadisə yerinə gələrək sakinlərlə görüşüb, güclü yağışın yol açdığı fəsadların aradan qaldırılırması istiqamətində aparılan işlərlə yerində tanış olub.

Gəncə Şəhər İcra Hakimiyyəti başçısının birinci müavini, Gəncə Şəhər İcra Hakimiyyəti yanında Fövqəladə Hallar Komissiyasının sədri Səməd Tomuyev bildirib ki, baş vermiş hadisə ilə əlaqədar olaraq aidiyyəti qurumlar gücləndirilmiş iş rejimində çalışırlar.



Belə ki, Gəncə şəhər Mənzil Kommunal Təsərrüfatı İstehsalat Birliyinin və Fövqəladə Hallar Nazirliyinin yerli regional qurumlarının əməkdaşları tərəfindən evlərə dolmuş yağış sularının ərazidən xaric edilməsi istiqamətində zəruri tədbirlər davam etdirilir. Qısa vaxt ərzində yağış sularının evlərdən tamamilə çıxarılması təmin ediləcəkdir.

Qeyd edək ki, anoloji halların gələcəkdə də yaşanmaması üçün hazırda sözügedən ərazidə Azərbaycan Dövlət Su Ehtiyyatları Agentliyinin sifarişi ilə yeni su ötürücü beton boruların inşası həyata keçirilir. İşlərin yaxın aylarda yekunlaşdırılması nəzərdə tutulub.

28 iyul 2024-cü il tarixdə, günün birinci yarısından yağan leysan xarakterli yağış nəticəsində Goranboy rayonu ərazisində çaylarda suyun səviyyəsi artmış, bir sıra yaşayış məntəqələrində, o cümlədən Qazanbulaq qəsəbəsi, Borsunlu, Nadirkənd, Azad, Dəyirmanlar və Nizami kəndlərində fərdi təsərrüfatlara və əkin sahələrinə ziyan dəymiş, elektrik enerjisinin verilişində fasilələr yaranmışdır.

Mövcud vəziyyətlə bağlı, rayon İcra Hakimiyyəti yanında Fövqəladə Hallar Komissiyası və RİH-nin məsul əməkdaşları axşam saatlarından operativ şəkildə ərazilərdə olmuş, aidiyyəti xidmət sahələrinin əməkdaşlarını və lazımi texnikaları cəlb etməklə fəsadların aradan qaldırılması istiqamətlərində əməli tədbirlər görülmüşdür. Hazırda həmin yaşayış məntəqələrində elektrik enerjisinin təhcizatı bərpa edilmiş, fəsadların aradan qaldırılması istiqamətində müvafiq işlər davam etdirilir.

Goranboy Rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyev aidiyyəti məsul şəxslərlə birgə, selin ziyan vurduğu yaşayış məntəqələrinə getmiş, mövcud problemlərlə yerində tanış olmuşdur.

Ötən gün yağan güclü yağışlar Qabırrı çayının daşmasına səbəb olub və Samuxun sərhəd kəndlərinin, o cümlədən Salahlı və Kəsəmən kəndlərinin təsərrüfatlarına, həyətyanı sahələrinə ziyan dəyib. Rayon icra hakimiyyəti başçısının birinci müavini



Tahir Qarayevlə telefon əlaqəsi saxladıq. T.Qarayev dedi ki, xoşbəxtlikdən evlərə su dolmayıb. Hazırda rayon icra hakimiyyətinin başçısı Firdovsi Əliyev, əlaqədar srtukturların rəhbərləri həmin kəndlərdəyik. Sərhəd kəndlərinə çəkilmiş yolun müəyyən hissəsini sel yuyub aparmışdır. Rayon rəhbərinin göstərişi ilə buraya təcili qum-çınqıl gətirilmiş və təmirçilər tezliklə yola asfalt salacaq, əvvəlki vəziyyətinə gətirəcəklər.

Qeyd edim ki, təsərrüfatların və həyətyanı sahələrin sudan təmizlənməsi üçün kifayət qədər texnika cəlb olunub. Kənd adamlarının da qoşulduğu işlər tezliklə yekunlaşdırılacaqdır.

Son günlər ölkəmizin şimalında yerləşən Quba rayonun əhalisi də sel və suların fəsadlarından əziyyət çəkir. Dünən aldığımız məlumata görə, rayon ərazizisindəki Qusarçay üzərində yerləşən təmirə bağlanmış körpüyə alternativ çəkilən yolu sel suları yuyub, avtomobillərin hərəkəti müvəqqəti məhdudlaşdırılıb.

Mənbə qeyd edir ki, Bakı-Quba-Rusiya Federasiyası dövlət sərhədi avtomobil yolunun 181-ci kilometrliyində Qusarçay üzərindəki körpüdə on gün əvvəl əsaslı təmir işlərinə başlanılıb. Bununla əlaqədar körpünün yaxınlığında, çayın içindən alternativ yol çəkilib. Amma son günlər bölgədə yağan güclü yağışlar nəticəsində Qusarçaya gələn güclü sel alternativ yolun bir hissəsini yuyub. Hazırda Qubadan dövlət sərhədi, həmçinin Xudat şəhəri istiqamətində yol bağlıdır.

Qubada yerləşən "5 saylı Yol İstisması MMC"nin mühəndisi Rövşən Babayev mətbuata bildirib ki, körpü yaxınlığındakı alternativ yol çayda suyun səviyyəsi azalandan sonra bərpa olunacaq. "Hazırda çayda güclü sel müşahidə olunur. Həmin ərazidə texnikanın işləməsi mümkün deyil. Vəziyyətə nəzarət edirik. Suyun səviyyəsi azalan kimi, alternativ yol qısa zamanda bərpa ediləcək", - deyə mühəndis bildirib.

Xatırladaq ki, Qusarçay üzərində uzunluğu 146, eni 10 metr olan körpünün əsaslı təmirinin isə sentyabr ayında başa çatdırılması gözlənilir.

Qudyalçaydan keçən güclü sel Quba rayonunun Küpçalqışlaq kəndində də fəsadlar törədib. Belə ki, sel nəticəsində Küpçalqışlaq kəndinin ərazisində Qudyalçayın sahilindəki yamac yuyularaq torpaq uçqunu baş verib. 460 nəfər əhalinin yaşadığı kəndin yolunda uçqun nəticəsində ciddi təhlükə yaranıb. Dirəklərin aşması yaşayış məntəqəsinin elektrik enerjisi ilə təminatında çətinliklər yaradıb.

Quba Rayon İcra Hakimiyyətinin, rayon fövqəladə hallar komissiyasının və digər aidiyyəti qurumların nümayəndələri selin fəsadları ilə yerində tanış olublar. Kənd sakinlərinin istifadəsi üçün alternativ yolun salınması məqsədilə müəyyən olunan əraziyə xüsusi texnikalar cəlb edilərək inşa işlərinə başlanılıb. Bununla yanaşı, sel nəticəsində aşan elektrik dirəklərinin yeniləri ilə əvəzlənməsi işləri də görülür.

Küpçalqışlaq kəndinin ərazisində bundan sonra sel sularının yarada biləcəyi fəsadların miqyasının azaldılması üçün əraziyə müvafiq qurumların xüsusi texnikaları cəlb olunub.

Son günlər havaların qeyri-sabit keçməsi xüsusən leysan yağışları Qəbələnin bir sıra yaşayış məntəqələrində fəsadlar törədib. Belə ki, Qala çayın daşması nəticəsində sel-sular əvvəlki günlər rayonun Tikanlı və Abrıx kəndlərində təsərrüfatlara xeyli ziyan vurmuşdu. Güclü leysandan sonra bu dəfə Durca çayında suyun səviyyəsi artıb və nəticədə Uludaş kəndində sakinlərin təsərrüfatını, həyətyanı sahəsini lilli su basıb.

Kənd sakini Xanımqız Qaçayeva jurnalistlərə bildirib ki, artıq ikinci gündür ki, onların təsərrüfatından sel-sular axır. Su azaldıqca həyətdə, təsərrüfatda lil qatı çoxalır.

Eyni aqibətlə digər kənd sakini Ümər Məmmədov da qarşılaşıb. Sakinlərin sözlərinə görə, son bir neçə gündə yağan intensiv yağışlar Durca çayının daşması ilə nəticələnib: "Əslində çay daşmayıb, kəndə ayrılan qolunda suvarma suyu bəndinin qarşısının kəsilməməsi nəticəsində sel-sular sakinlərin həyət bacasına, təsərrüfatlara dolub".

Kənd bələdiyyəsindən verilən məlumata əsasən, 80 fərdi təsərrüfatın olduğu kənddə 2 min nəfərə yaxın insan yaşayır. Kənd relyef baxımından düzənlikdə yerləşdiyindən sel-sular demək olar ki, əksər təsərrüfatlara zərər vurub.

Ölkəmizin cənub bölgəsinin də sakinləri təbiətin şıltaqlığı ilə üzləşiblər. Belə ki, Lənkəranda intensiv yağan yağışdan sonra Lənkərançay daşıb, həyətləri su basıb.

Səhər saatlarında Lənkəranda yağan intensiv yağışdan sonra kanallar daşaraq həyətyanı sahələrə dolub.

Rayonun Sütəmurdov kəndi ərazisindən keçən Lənkərançay daşıb. Hazırda Lənkəranda yağış dayanıb. Rayonda buludlu hava şəraiti müşahidə olunur.

***Hamlet QASIMOV,***
***Məsaim ABDULLAYEV,***
***Qəzənfər QASIMOV***
***XQ***

BEYNƏLXALQ HƏYAT

# Yaxın Şərq daha böyük müharibə ərəfəsində?

**Yaxın Şərq regionunda gərgin vəziyyət daha təhlükəli "qaynar" mərhələyə qədəm qoyub. Qolan təpələrində yerləşən Druz kəndinə raket zərbəsi nəticəsində on iki yeniyetmənin həlak olması İsrail-Livan arasında münasibətləri genişmiqyaslı hərbi münaqişə səviyyəsinə yüksəldib. İsrail "Hizbullah"a qarşı əməliyyat planlarını nəzərdən keçirib və qisasın ağır olacağına söz verib. Mütəxəssislər isə düşünürlər ki, Təl-Əviv "Hizbullah"ın hərbi obyektlərinə raket zərbələri endirməklə kifayətlənəcək. Amma başqa mövqeni müdafiə edənlər də az deyil.**



İsrail Müdafiə Qüvvələrinin (IDF) Baş Qərargah rəisi Herzi Halevi iyulun 28-də siyasi rəhbərliyə şimal cəbhəsində bir sıra hərbi əməliyyat ssenarilərini təqdim edib. Həmin gün yəhudi dövlətinin Baş naziri Benyamin Netanyahu Qolan təpələri ətrafındakı vəziyyət fonunda ABŞ-dakı proqramını ixtisar etmək məcburiyyətində qalaraq Amerika turundan qayıdıb. Ölkəyə gələndən sonra cənab Netanyahu dərhal Təl-Əvivdə Müdafiə Nazirliyinin ərazisindəki Kiriya kompleksinə yollanıb və burada 12 uşağın həlak olmasına cavab variantlarını qiymətləndirmək üçün iclas keçirib. Cənab Netanyahu Vaşinqtonda İsrailli Druzların ruhani lideri Muafik Tarif ilə telefon danışığında "İsrailin "Hizbullah"ın hücumunu cavabsız qoymayacağına" söz verib. Onun sözlərinə görə, qrup "bunun üçün əvvəllər heç vaxt ödəmədiyi ən yüksək qiyməti ödəyəcək".

"Məcdəl Şəmsin atəşə tutulması, mülki şəxslərə və uşaqlara zərər verilməsi bütün qırmızı xətləri keçir. Biz "Hizbullah" və Livanla genişmiqyaslı müharibə anına yaxınlaşırıq", - İsrailin xarici işlər naziri İsrael Katz xəbərdarlıq edib. "Cəbhədə və arxa cəbhədə yüksək qiymət ödəyəcəyik, lakin müharibə nəticəsində "Hizbullah" lideri Nəsrullah və "Hizbullah" məğlub olacaq və Livana ciddi ziyan dəyəcək. Biz şimalda məskunlaşma ərazilərində sülh və təhlükəsizliyi bərpa edəcəyik", - İsrail XİN rəhbəri vəziyyətin inkişafı ilə bağlı proqnozunu verib. O, artıq israilli diplomatlara "Livandakı əməliyyatın legitimliyini təmin etmək üçün bütün dünyada hərtərəfli əməliyyata hazırlaşmaq" barədə göstəriş verdiyini və İsrailin Qərb müttəfiqlərinin tam dəstəyini alacağına əmin olduğunu bildirib.

Bununla belə, İsrail tərəfi hərbi əməliyyata hazırlaşarkən son ana qədər siyasi manevr imkanlarını saxlayıb. İsrail Xarici İşlər Nazirliyinin bazar günü yaydığı bəyanatda Livan hökumətindən BMT Təhlükəsizlik Şurasının 1701 saylı qətnaməsini yerinə yetirməyə və Litani çayının cənubunda "Hizbullah" qüvvələrinin geri çəkilməsini təmin etməyə çağırıb. Amma bundan əvvəl də, bazar günü gecə İsrail Hərbi Hava Qüvvələri əməliyyata hazırlaşaraq, həm Livan ərazisinin dərinliklərində, həm də ölkənin cənubundakı "Hizbullah" mövqelərinə hücum edib.

Xatırladaq ki, 1967-ci ildə İsrail tərəfindən nəzarət altına alınan Druz kəndindəki faciə iyulun 27-də "Hizbullah"ın Livan tərəfdən yəhudi dövlətinin ərazisini kütləvi şəkildə atəşə tutması nəticəsində baş verib. Atılan raketlərdən biri həmin an uşaqların olduğu futbol meydançasında partlayıb. İsrail rəsmiləri hücumu 2023-cü ilin oktyabrından bəri şimalda mülki itkilər baxımından ən böyük hücum adlandırıb. Rəsmi Təl-Əviv "Hizbullah"ı günahlandırıb. İsrail Müdafiə Nazirliyinin sözçüsü Daniel Həqarinin sözlərinə görə, futbol meydançası "Fələq-1" raketi ilə vurulub.

Ancaq "Hizbullah" həmin əraziyə raket zərbəsi endirmədiyini iddia edib. Bu barədə hərbi-siyasi hərəkatın sözçüsü Mohammed Afif Associated Press-ə bildirib. Bundan əlavə, "Hizbullah" nümayəndələri BMT-yə rəsmi bəyanat göndərərək, İsrailin raketdən müdafiə qurğusunun dağıntılarının futbol meydançasına düşdüyünü göstəriblər. Ancaq iyulun 28-də "Hizbullah"ın üzvləri İsrailin cavab əməliyyatının nəticələrini minimuma endirmək üçün Livanın cənubunda kütləvi şəkildə mövqelərini dəyişməyə başlayıblar. Öz növbəsində, bir sıra Qərb ölkələri öz vətəndaşlarını Livan ərazisini təcili tərk etməyə çağırıblar. Rəsmi Beyrut ABŞ Prezidenti Co Bayden administrasiyasına mesaj göndərərək ondan genişmiqyaslı qarşıdurmanı dayandırmağı xahiş edib.

"Axios" portalının Amerika rəsmilərinə istinadən verdiyi məlumata görə, Bayden administrasiyası davam edən eskalasiyadan son dərəcə narahatdır. Portalın həmsöhbətlərinin sözlərinə görə, Ağ ev Qəzza zolağında atəşkəs olmadan İsraillə "Hizbullah" arasında müharibə ehtimalının getdikcə artmasından ehtiyat edir. Bu, ABŞ-nin cəlb olunacağı böyük regional münaqişə ilə nəticələnə bilər.

***S.ELAY***
***XQ***


## Ləğvetmə prosesində olan "Montin Bazar" ASC səhmdarlarının nəzərinə!

14 sentyabr 2024-cü il, saat 10.30-da "Montin Bazar" ASC səhmdarlarının növbəti ümumi yığıncağı cəmiyyətin yerləşdiyi ünvanda keçiriləcəkdir.

Ümumi yığıncağın gündəliyi:

1. 2023-cü ilin İllik maliyyə balansının təsdiq edilməsi.
2. Səhmdarların 29 iyun 2023-cü il tarixli ümumi yığıncağının qərarlarının və onun nəticələrinin ləğv edilməsi.
3. Cəmiyyətin müşahidə şurasının, icra orqanının və təftiş müfəttişinin seçilməsi.
4. Digər məsələlər.

Səhmdarlar gündəlikdəki məsələlərə aid sənədlərlə tanış olmaq üçün və hər hansı sualla bağlı iş günləri, saat 10.00-dan 13.00-dək cəmiyyətin ləğvetmə komissiyasına müraciət edə bilərlər.

Yığıncaqda bütün səhmdarların iştirakı vacibdir.

Əlaqə telefonu– 055-792-42-58.

Ünvan– Bakı şəhəri, Nərimanov rayonu, Mayakovski küçəsi 8/9.

***Ləğvetmə Komissiyası***

## "Sabirabad –konserv" ASC səhmdarlarının nəzərinə!

1 avqust 2024-cü il saat 15.00 -da "Sabirabad –konserv" ASC səhmdarlarının növbəti ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1.Kreditin alınması üçün kredit təşkilatlarına edilən müraciətə baxılması.

2. "Sabirabad –konserv" ASC- nin müşahidə şurasının 25 iyul 2024-cü il tarixli iclasında qəbul edilmiş qərarın təsdiq edilməsi.

Ünvan –Sabirabad şəhəri, Vidadi küçəsi 1.

***İdarə heyəti***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 159 (30563) 30 iyul 2024-cü il, çərşənbə axşamı

# "Paris-2024": Olimpiadada ilk qızıl!





**Azərbaycan milli Olimpiya komandası Paris Yay Olimpiya Oyunlarında böyük qələbə qazanıb. Cüdoçumuz, dünya çempionu, Avropa çempionatının 4 qat qalibi cüdoçu Hidayət Heydərov bütün rəqiblərini məğlub edərək Olimpiya çempionu tituluna layiq görülüb. Olimpiya Oyunlarında 8 illik fasilədən sonra komandamız qızıl medala sevinib. Bu, həm də müstəqil Azərbaycanın olimpiadalar tarixində qazandığı 50-ci – yubiley medalı olub. Komandamız iştirak etdiyi 7 olimpiadada indiyədək 7 qızıl, 14 gümüş və 28 bürünc mükafat olmaqla, ümumilikdə 49 medal qazanıb.**

Hidayət Heydərov müsahibələrində məhz Olimpiya çempionluğunu hədəflədiyini bildirmişdi. Yarışda ancaq qələbəyə köklənən 73 kiloqram çəki dərəcəsində dünya reytinqinin lideri 1/8 finalda Tohar Bitbula (İsrail) ipponla qalib gələrək növbəti raunda vəsiqə qazanıb. Dörddəbir finalda Artur Marqelidon (Kanada) ilə gərgin keçən qarşılaşmada da həmyerlimiz rəqibini ipponla məğlub edib. Hidayət yarımfinal döyüşündə Akil Qyakov (Kosovo) üzərində inamla qələbə qazanaraq finala vəsiqə qazanıb. Çempionluq uğrunda yerli idmançı Joan-Benjamin Qaba üzərində parlaq qələbə qazanan idmançımız qızıl medala sahib olub.

Olimpiya çempionumuz Elnur Məmmədli Avropa Cüdo İttifaqının mətbuat xidmətinə müsahibəsində Azərbaycanda uzun illər cüdoda Olimpiya çempionunun olmadığını, 1992-ci ildə Nazim Hüseynovun titulu qazanaraq ölkəyə ilk "qızıl"ı gətirdiyini deyib. 16 il sonra N.Hüseynovun uğurunu təkrarladığını bildirən Azərbaycan Cüdo Federasiyasının vitse-prezidenti Pekin Olimpiadasından düz 16 keçdiyini bildirmişdi. H.Heydərov ümidləri doğruldaraq eyni çəki dərəcəsində bu böyük uğuru təkrar etməyə nail oldub.

Olimpiadalarda cüdoçularımız indiyədək 1-i qızıl, 2-si gümüş, 2-si bürünc mükafat olmaqla 5 medal qazanıblar. Müstəqil Azərbaycanda Olimpiya Oyunlarında ilk qızıl mükafatı da bu idman növü üzrə qazanmışıq. Təmsilçimiz Nazim Hüseynov "Barselona-1992"də bütün rəqiblərini məğlub edərək fəxri kürsünün ən yüksək pilləsinə yüksəlib. Amma onu qeyd edək ki, idmançımız o zaman MDB adından yarışırdı.

Əvvəlki olimpiadalarda da statistikaya nəzər salsaq, ən erkən Olimpiya mükafatlarına cüdoçularımızın sahib olduğunu görərik. "Pekin-2008"in açılışdan sonrakı 3-cü günündə Elnur Məmmədli rəqiblərini bir-birinin ardınca məğlub edərək çempion olub. "Olimpiada-2016"da isə Rüstəm Orucov komandamıza ilk medalı (gümüş) qazandırıb. Bəs digər olimpiadalarda millimizin ilk



medallarını kim qazanıb? Müstəqillik tariximizdə Azərbaycan bayrağı altında ilk Olimpiya medalını "Olimpiada-1996"da Namiq Abdullayev əldə edib. Adlı-sanlı pəhləvanımız mükafatı açılış mərasimindən 13 gün sonra əldə edib. Digər olimpiadalarda ilk yarış həftəsinin sonlarına qədər medalı intizarla gözləmişik.

Azərbaycana ilk qızıl medal qazandıran Zemfira Meftaxetdinova "Sidney-2000"in açılışının 6-cı günündə qızıl, güllə atıcılığı üzrə İradə Aşumova "Afina-2004"ün –5-ci günündə bürünc medal qazanıblar. "Tokio-2020"də isə İrina Kindzerska 7-ci yarış günündə komandamızın aktivinə ilk medalı (bürünc) yazdırıb.

Azərbaycan boks yığmasının üzvü Alfonso Dominqes də Olimpiadaya uğurla start verib. O səkkizdəbir finalda son 2 olimpiadanın qalibi Xulio Sezar la Krusu məğlub edib. İdmançı mətbuata açıqlamasında kubalı ilə döyüşün çox çətin keçdiyini bildirib:

–Bilirəm ki, bütün Azərbaycan məni dəstəkləyir, buna görə də minnətdaram. Yaxşı hazırlıq keçmişəm. Məşqçilərimə və bütün komanda üzvlərinə dəstəyə görə təşəkkür edirəm. Mənim günüm idi, qələbə qazanmağı bacardım. Bu son deyil, qarşıda döyüşlər var. Daha da irəli getmək lazımdır.

Qeyd edək ki, rinq ustasının olimpiadada ilk qələbəsi ad gününə təsadüf edib. Paris-2024 Olimpiya Kəndində alqışlarla qarşılanan idmançımız, həm də ad gününü qeyd edib. İdmançımız avqustun 1-də dörddəbir finalda qazaxıstanlı Aybek Oralbayla üz-üzə gələcək.

Dünən Azərbaycanın daha 2 boksçusu rinqə çıxıb. Əvvəlcə ölkəmizin Olimpiya Oyunlarındakı kişi bayraqdarı Məhəmməd Abdullayev (+92 kiloqram) döyüşüb. Təəssüf ki, idmançımız almaniyalı Nelvi Raman Tiafaka məğlub olub. Axşam seansında isə Malik Həsənov (63,5 kiloqram) 1/8 finalda gürcüstanlı Laşa Quruli ilə mübarizə aparıb.

Dünən mübarizə aparan badmintonçumuz Keişa Fatimə Zəhra qadınların fərdi yarışında 2-ci sınağında N qrupunda Böyük Britaniya təmsilçisi Kirsti Gilmura uduzub. Zəhra ilk matçında H qrupunda He Bin Çzyaoya (Çin) da məğlub olduğu üçün olimpiadada çıxışını yekunlaşdırıb. Qeyd edək ki, yalnız qrup qalibləri 1/8 finala adlayır.

Azərbaycan qılıncoynadanı Anna Baştanın da Oyunlarda çıxışı başa çatıb. Sablyaçımız mükafatlar uğrunda yarışa 1/16 finaldan start verib. Baştanın ilk rəqibi Çin idmançısı Yanq Henqyu olub. Sablyaçımız 15:9 hesabı ilə qalib gəlib. O, 1/8 finalda Olimpiadaların dördqat mükafatçısı Olqa Xarlanla (Ukrayna) bacarmayıb. İdmançımız görüşdə 6:15 hesabı ilə məğlub olaraq, mübarizəni dayandırıb.

Bu gün qadınlardan ibarət 3x3 basketbol komandamız meydana çıxır. Azərbaycan millisi İspaniya ilə iyulun 30-u Bakı vaxtı ilə saat 19:00-da qarşılaşacaq.

Kamandan oxatma növündə isə Yaylagül Ramazanova bu gün 1/32 finalda Quxuan Anla (Çin) qarşılaşacaq. Qeyd edək ki, bundan əvvəl sıralama turuna 30-cu cütdə başlayan təmsilçimiz 39-cu yeri tutub. O, 720 mümkün xaldan 647 xal toplayıb. Onun rəqibi isə sıralama turunu 656 xalla 26-cı pillədə başa vurub.

## Açılış mərasiminin videoları necə yoxa çıxıb?

**Beynəlxalq Olimpiya Komitəsi (BOK) Parisdə keçirilən Yay Olimpiya Oyunlarının açılış mərasimindən fraqmentlərin əks olunduğu videoların yoxa çıxmasından xəbərsiz olduğunu bildirib.**



Qurum bir sıra media orqanlarının sorğusuna cavab olaraq bildirib ki, BOK rəqəmsal hüquqları yalnız müəyyən qlobal bazarlarda saxlayıb. Xüsusilə, BOK-un Avropa və Böyük Britaniyada rəqəmsal hüquqları yoxdur. Belə ki, rəsmi Olimpiya obyektləri və ərazilərindən olan videolar coğrafi olaraq bu bazarlardan bloklanır və bu videolara baxmaq mümkün olmur. Onlar silinməyib.

Xatırladaq ki, Paris Olimpiadasının açılış mərasimi bir sıra təxribat xarakterli epizodlara görə ciddi tənqid edilməkdədir. Xüsusən də, mərasimin təşkilatçıları Leonardo da Vinçinin "Son şam yeməyi" əsərinin parodiyasına görə, dindarlara hörmətsizlikdə günahlandırılıb. Ümumiyyətlə, açılış mərasimi bir sıra qalmaqallarla gündəmdədir. Belə ki, bu böyük tədbirdə Olimpiya bayrağının dirəyə tərs asılması, meydanda diktorların parad zamanı Cənubi Koreyadan olan idmançıları KXDR təmsilçiləri kimi elan etmələri və digər xoşagəlməz hadisələr ciddi tənqid olunub.

## Olimpiadada növbəti xoşagəlməz hadisə

**Fransalılar Paris-2024 Yay Olimpiya Oyunlarında təşkilatçılıqdakı nöqsanlarla özlərini biabır etməkdə davam edirlər.**



Belə ki, Cənubi Sudan və Puerto-Rikonun kişi basketbolçulardan ibarət yığmalarının matçından əvvəl qalmaqal yaşanıb. Görüşdən öncə Afrika təmsilçisinin himni əvəzinə başqa melodiya səsləndirilib. Bir müddət keçdikdən sonra Təşkilat Komitəsi səhvini düzəltsə də, azarkeşlər sərt narazılıq bildirblər. Çünki Olimpiadanın startından keçən qısa müddətdə xoşagəlməz hadisələr bir-birini əvəzləyir. Qurumun kommunikasiyalar üzrə direktoru Enn Deskam üzr istəyib. Qeyd edək ki, bu matçda sudanlılar 90:79 hesablı qələbə qazanıblar.

## "Paris-2024": İştirakçıların səbri tükənir

**Paris Yay Olimpiya Oyunları başlandığı gündən tarixin ən bərbad Olimpiadası statusuna iddia edir.**



Dördilliyin ən mühüm idman hadisəsinin təşkilatçılığındakı nöqsanlar yarış iştirakçılarının səbrini tükəndirməkdədir. Bu dəfə kişi həndbolçulardan ibarət Danimarka millisinin baş məşqçisi Nikolay Yakobsen təşkilatçılığın bərbadlığından qəzəbini gizlədə bilməyib. Mütəxəssis artıq komandanın 2 dəfə Fransada azdığını, nəticədə, məşqə gecikdiklərini deyib. Yığma bir dəfə isə məskunlaşdıqları məkana gec çatıb. Baş məşqçi deyib:

–Hamımız səhvə yol verə bilərik. Amma eyni yolu 3 dəfə gedəndə, deməli nə isə düz deyil. Bunu da bildirim ki, artıq səbrimiz çox qalmayıb.

Xatırladaq ki, Danimarka Olimpiadadakı ilk oyununda Fransanı 37:29 hesabı ilə məğlub edib.

*Səhifəni hazırladı:*
*Leyla QURBANOVA*
*XQ*

## Parisdə Azərbaycana qarşı təxribatla bağlı bəyanat

**Azərbaycan Gənclər və İdman Nazirliyi ilə Milli Olimpiya Komitəsi Paris Olimpiadasında Azərbaycana qarşı təxribatla bağlı bəyanat yayıb.**

AZE
GƏNCLƏR VƏ İDMAN NAZİRLİYİ
AZERBAIJAN

Bəyanatda bildirilib ki, iyulun 26-da Fransanın paytaxtı Parisdə keçirilən Yay Olimpiya Oyunlarının açılış mərasimində Fransanın dövlətə məxsus milli televiziyası olan France2 telekanalının müxbiri Azərbaycan və Ermənistan idmançılarının paraddan keçidi zamanı ayrı-seçkilik nümayiş etdirərək Azərbaycanı Ermənistanla toqquşmalarda ittiham edib. Eyni zamanda Ermənistanı Fransanın dostu adlandırıb və qeyd edib ki, bu il erməni xalqı üçün "Dağlıq Qarabağ"ın Azərbaycan ordusu tərəfindən süqutu kimi yadda qalıb.

Bu, faktiki olaraq Olimpiya Xartiyasının Əsas Prinsiplərinin pozulmasıdır. Həmin prinsiplər son illərdə Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş Assambleyasının bir neçə qətnaməsi ilə, o cümlədən açıq şəkildə "Olimpiya Xartiyasının əsas prinsiplərinin etirafı" (A/RES/78/10) ilə tanınıb və dəstəklənib. Xartiyada açıq şəkildə qeyd edilib ki, "BOK-un missiyası olimpizmi bütün dünyada təbliğ etmək, Olimpiya Hərəkatına rəhbərlik etmək, idmana və idmançılara qarşı hər hansı siyasi və ya kommersiya istismarına qarşı çıxmaqdır".

Baş vermiş halla bağlı Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi və Milli Olimpiya Komitəsi tərəfindən Beynəlxalq Olimpiya Komitəsinə rəsmi olaraq etiraz məktubu göndərilib. Məktubda qeyd olunub ki, dövlət telekanalının Azərbaycana qarşı bu cür hörmətsiz münasibəti Olimpiya Xartiyasının açıq-aşkar pozulmasıdır. Bu cür təbliğat oyunların ruhuna zidd olmaqla yanaşı, Azərbaycan və Ermənistan arasında sülh səylərini pozmağa xidmət edir. Buna görə də BOK-dan Paris-2024 Olimpiadası zamanı idmanın siyasiləşdirilməsinə qarşı qəti mövqe göstərilməsi, açıq bəyanat verməklə Fransa Hökumətinə, Fransa Milli Olimpiya və İdman Komitəsinə, eləcə də adıçəkilən telekanala etiraz bildirilməsi xahiş edilib.

## Aranda yağmursuz, dağlarda yağıntı və külək



**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, iyulun 30-da Bakıda və Abşeron yarımadasında əsasən yağmursuz keçəcək. Cənub-qərb küləyi əsəcək, gündüz mülayim cənub-şərq küləyi ilə əvəz olunacaq. Gecə 18-23°, gündüz 28-32° isti olacaq.**

Atmosfer təzyiqi 759 mm civə sütunundan 754 mm civə sütununa enəcək, nisbi rütubət gecə 40-50, gündüz 65-75 faiz olacaq. Abşeron çimərliklərində gözlənilən . dəniz suyunun temperaturu: Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 24-25° isti, Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 25-26° isti olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Şərq küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 17-21°, gündüz 25-30°, dağlarda gecə 10-15°, gündüz 16-21° isti olacaq.

***QQ ASIMOV***
***XQ***

## ALLAH RƏHMƏT ELƏSİN

Dövlət İmtahan Mərkəzinin kollektivi Mərkəzin İdarə Heyətinin sədri Məleykə Abbaszadəyə əzizi

**TAHİR müəllimin**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3177
SİFARİŞ 1683
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Paşa ƏMİRCANOV
Çapa imzalanmışdır 00:00